
KHAZAR REVIEW

№ 370 Fevral 2018

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org


"DÜNYA" XƏBƏRLƏRİ













# İÇİNDƏKİLƏR

"Dünya" məktəbində professor Hamlet İsaxanlı ilə görüş ..... 4
Görkəmli alimin yeni kitabının təqdimatı ..... 10
Xalq artisti Arif Babayevin 80 illik yubileyi keçirildi..... 14
Professor Hamlet İsaxanlı İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinin
100 illik yubiley tədbirlərində iştirak etmişdir ..... 16
İsrail səfiri Xəzər Universitetində ..... 21
Universitet xəbərləri..... 22
Xəzər Universitetinin rəhbərliyi "GreenTech" MMC-də..... 24
Mir Cəlalın ingilis dilində kitabı çap olunub ..... 27
Xəzər Universiteti EURİE-2018 təhsil sammitində ..... 28
*С. Алиева.* Азербайджан и интеграция высшего образования
в европространство ..... 34
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xəbərləri ..... 38
Gənc biznesmen: "İndi isə bütün böyük adamlar kimi vərdişlərimin
quluyam" (*Xəzər Universitetinin məzunu Barat Əlizadə ilə müsahibə*)..... 42
"Toksik çirkləndiricilərin ətraf mühitə təsiri" mövzusunda elmi-praktik seminar . 44
*Firəngiz Nəsirova.* Camal müəllimi xatırlayarkən..... 48
"Bircə xaşı yeyə bilmirəm" - amerikalı olduğuna inanmayacaqsız (*Xəzər
universitetinin keçmiş əməkdaşı Marta Lauri ilə müsahibə*)..... 50
NDU xəbərləri..... 54
*Vurğun Əyyub.* Hüseyn Cavidin "Öksüz Ənvər" şeiri..... 58
"Xəzər"in əməkdaşlarının məqalələri ölkədə və xaricdə çap olunub..... 64
*Aqata Kristi.* Hökumət başçısının oğurlanması (*hekayə*) ..... 68

1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Əjdər Ağayev
Afiə Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Eyvaz Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Fotoşəkillər
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Ajdar Aghayev
Afia Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eyvaz Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photos:
Multimedia Centre



# "DÜNYA" MƏKTƏBİNDƏ PROFESSOR HAMLET İSAXANLI İLƏ GÖRÜŞ

# A MEETING WITH PROFESSOR HAMLET ISAKHANLI AT "DUNYA" SCHOOL

Fevralın 23-də "Dünya" məktəbinin "İnciçiçəyi" salonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüş keçirildi. Zəngin proqramlı ədəbi-bədii kompozisiyadan ibarət tədbirdə "Dünya" məktəbinin müəllimləri və valideynlər, Xəzər Universitetinin əməkdaşları, ölkənin görkəmli elm, ədəbiyyat və incəsənət xadimləri, dövlət nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin əməkdaşları və digər qonaqlar iştirak edirdilər.

Tədbirdən əvvəl iştirakçılar və qonaqlar məktəbin foyesində məktəbin rəssamı Mir Rafiq Əbdürrəhimovun rəhbərliyi ilə hazırlanmış sərgi ilə tanış oldular. Sərgidə professor Hamlet İsaxanlının elmi və bədii kitabları, məqalələri çap olunmuş xarici jurnallar, ölkədə və xaricdə fəaliyyətinə aid fotoşəkillər nümayiş etdirilirdi.

There was a meeting with Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, in "Injichicheyi" hall of "Dunya" school on February 23. The teachers and parents of the school, staff members of Khazar University, prominent public and art figures, government officials, representatives of foreign embassies to Azerbaijan, and other guests participated in the ceremony with program of literary composition.

Before the ceremony, guests had a look at exhibition, organized by Mir Rafig Abdulrahimov in the foyer of schools, which involved photos of scientific and literary books by Hamlet Isakhanli, foreign journals with articles by Hamlet Isakhanli, as well as photos of Hamlet Isakhanli's activities in Azerbaijan and abroad.







Aparıcıları "Dünya" məktəbinin müəllimləri–Arzu Ömərova, Elşad Rzayev və Gülnar Əliyeva olan tədbir "Yaranış" adlı mətn-fonoqramla başlandı.

Qeyd edək ki, ədəbi-bədii kompozisiyaya daxil edilmiş şeirlər, xanəndə və müğənnilər tərəfindən ifa olunmuş mahnıların sözləri şair Hamlet İsaxanlıya məxsus idi.

Xəzər Universitetinin, "Dünya" məktəbinin və Avrasiya Akademiyasının yaranmasını əks etdirən slayd-şoular, film fraqmentləri, "İnciçiçəyi" filmindən süjetlər professor Hamlet İsaxanlının həyat və yaradıcılığının müxtəlif məqamlarını, "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurası sədrinin müşaviri Nailəxanım İsayevanın professorun bütün təhsil quruçuluğu fəaliyyətində onunla birgə addımladığını əks etdirirdi.

The presenters of the ceremony were Arzu Omarova, Elshad Rzayev and Gulnar Aliyeva, the teachers of "Dunya" school. The ceremony started with a text-phonogram "Creation".

The poems and lyrics of pieces of music included in the literary composition belong to poet Hamlet Isakhanli.

Slides, video clips and fragments of "Injichicheyi" movie demonstrated history of foundation of Khazar University, "Dunya" school and Eurasian Academy, Hamlet Isakhanli's life and career as well as Nailakanim Isakhanli's career, advisor of the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, who accompanied Hamlet Isakhanli throughout his career.









Tədbirdə şairin "Ana" şeiri məktəbin əməkdaşı Afaq Qəmbərovanın, "İkimizdən birimiz" şeiri Afaq Qəmbərova və məktəbin əməkdaşı Murad Allahverdinin, "Çiçəkli çəmən" qəzəli məktəbin müəllimi Mədinə Karahanın, "Uşaqlığımda qalan buludlar", "Bu bir həyatdır", "Bu dünyaya nə gətirdim" şeirləri və "Ziyarət" poemasından parçalar isə aparıcıların ifasında səsləndi.

Əməkdar artist Fərqanə Qasımova "Rübai" (bəstəkar Fərqanə Qasımova, musiqi tərtibatı Fərahim Qulubəyov), İrandan xüsusu olaraq bu tədbirə dəvət olunmuş məşhur xanəndə Vədud Müəzzinzadə "Yaşamağa nə var ki" şeirini muğam təsnifində, xalq artisti Gülyanaq Məmmədova "Nə yaxşı ki" (bəstəkar əməkdar incəsənət xadimi Nailə Mirməmmədli), əməkdar artist Manana Caparidze "Külək və qız" (bəstəkar Nailəxanım İsayeva), xalq artisti Azər Zeynalov "Mənə ayrılan vaxt" (bəstəkar əməkdar incəsənət xadimi Tahir Əkbər) mahnılarını ifa etdilər.

Afag Gambarova, a staff member of the school, recited the poem of "Mother", Murad Allaverdi and Afag Gambarova jointly recited the poem of "Either of us", Madina Karahan, a teacher of the school, recited the ghazal of "Flowery meadow", and the presenters recited the poem of "The clouds left in my childhood", the poem of "It is life", the poem of "What I have brought to the world", and the poem of "Visit".

Honored artist Fargana Gasimova sang the poem of "Rubai" (composition by Fargana Gasimova and arrangement by Farahim Gulubayov) in mugham classification; Vadud Muazzinzadeh, who was specially invited to the ceremony from Iran, sang the poem of "It is easy to live" in mugham classification; People's Artist Gulyanaq Mammadova sang the song of "It is so nice" (composition by Honored Artist Naila Mirmammadli); Honored Artist Manana Chaparidze sang the song of "Wind and a girl" (composition by Nailakhanim Isakhanli); People's Artist Azar Zeynalov sang the song "Time spared for me" (composition by Tahir Akbarov).









Xalq artisti Alim Qasımovun ifasında "Nə olaydı" adlı mahnı-süjetin (bəstəkar Alim Qasımov, musiqi tərtibatı Fərahim Qulubəyov) videoklipi təqdim olundu.

Məktəbin rəqs müəllimləri - əməkdar artist Emin Əliyev və Səbinə İsmayılova, Xəzər Universitetinin qızlardan ibarət rəqs ansamblı tədbirdə çıxış etdilər.

"Dünya" məktəbinin şagirdləri Ayla Qarayeva və Hakan İsaxanlı hazırladıqları etüd-kompozisiyanı nümayiş etdirdilər.

Səhnədəki çıxışları royalda bəstəkar Nailə Mirməmmədli, "Dünya" məktəbinin müəllimi bəstəkar Sevda İbrahimova və digər sənətçilər müşayiət edirdilər.

Moreover, a video clip of music-plot "If only", performed by People's Artist Alim Gasimov (composition by Alim Gasimov, arrangement by Farahim Gulubayov), was also demonstrated.

Honored Artist Emin Aliyev and Sabina Ismayilova, dance instructors of the school, and dance ensemble of Khazar University performed dance at the ceremony.

Ayla Garayeva and Hakan Isakhanli, students of "Dunya" school, performed etude-composition at the composition.

The performances at the stage were accompanied in grand piano by Naila Mirmammedli, honored art worker, composer and Sevda Ibrahimova, teacher at "Dunya" school, composer, as well as other artists.









Xalq artisti Alim Qasımov, şair Ramiz Rövşən, AMEA-nın müxbir üzvü, "Zadə İrsi və Süni İntellekt" Assosiasiyasının prezidenti Rafiq Əliyev, xalq artisti rejissor Ramiz Həsənoğlu Hamlet İsaxanlıya gül dəstələri təqdim edərək, səmimi təbriklərini çatdırdılar.

Tədbirdə AMEA-nın Mexanika və Riyaziyyat İnstitutunun direktoru Misir Mərdanov, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, AMEA-nın həqiqi üzvü, Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru Vaqif Abbasov çıxış etdilər.

People's Artist Alim Gasimov, Ramiz Rovshan, a poet, Rafig Aliyev, a corresponding member of ANAS and a president of "Zadeh Legacy and Artificial Intellegence" Association, People's Artist Ramiz Hasanoghlu, a film director, presented bunches of flowers to Hamlet Isakhanli, and expressed their sincere congratulations.

Misir Mardanov, Director of Institute of Mechanics and Mathematics of ANAS, Aygun Aliyeva, Deputy Head of Binagadi Executive Power, Vagif Abbasov, active member of ANAS and Director of the Institute of Petrochemical Processes named after Yusif Mammadaliyev, delivered speeches at the ceremony.







Çıxışlarda professor Hamlet İsaxanlı görkəmli təhsil təşkilatçısı – Azərbaycanda ilk özəl universitet olan, dünya universitetləri reytinqində yüksək yer tutan Xəzər Universitetinin və "Dünya" məktəbinin qurucusu, Azərbaycanın hüdudlarından kənarda da tanınan riyaziyyatçı alim, şair, nümunəvi ziyalı və şəxsiyyət, ictimai xadim kimi səciyyələndirildi.

Tədbirin layihə rəhbəri məktəbin direktoru Mərufə Mədətli, ssenari müəllifi məktəbin İctimai əlaqələr və media üzrə koordinatoru Afaq Qəmbərova, rejissoru məktəbin bədii rəhbəri Murad Allahverdi və quruluşçu rəssamı Mir Rafiq Əbdülrəhimov idi.

Tədbir iştirakçılar və qonaqlar tərəfindən çox yüksək qiymətləndirildi.

The speakers characterized Hamlet Isakhanli as a prominent education figure, a founder of "Dunya" school and a founder Khazar University, which is the first private university with a high international rating, a prominent mathematician famous in Azerbaijan and abroad, and a model intellectual and public figure.

Marufa Madatli, a school principal, was a project director of the ceremony, Afag Gambarova, a Coordinator on Public Relations and Media of the school, was a script writer of the ceremony, Murad Allahverdi, an artistic director of the school, was a director of the ceremony, and Mir Rafig Abdulrahimov was production designer of the ceremony.

The participants and guests highly appreciated the ceremony.







# GÖRKƏMLİ ALİMİN YENİ KİTABININ TƏQDİMATI

Fevralın 2-də Xəzər Universitetinin Mərmər salonunda dünyada tanınan alim, qeyri-səlis məntiq nəzəriyyəsi, süni intellekt üzrə ən güclü mütəxəssislərdən biri olan professor Rafiq Əliyevin qərar qəbuletmə nəzəriyyəsi ilə bağlı ABŞ-da çapdan çıxmış növbəti kitabının təqdimat mərasimi keçirildi.

Sayca professorun 75-ci elmi monoqrafiyası olan "Uncertain computation based decision theory" ("Qeyri - müəyyən hesablamalar əsasında qərar qəbuletmə nəzəriyyəsi") adlı kitab dünyanın məşhur elmi nəşriyyatlarından biri olan "World Scientific" nəşriyyatında işıq üzü görüb. Qeyd edək ki, adı çəkilən nəşriyyat yalnız dünya standartlarına cavab verən elmi nəşrlərin çapında maraqlıdır. Həmyerlimizin bu kitabı da ABŞ-dan tutmuş dünyanın bir çox yerlərində qərar qəbuletmə ilə məşğul olan mütəxəssislərə dərs vəsaiti kimi tədris ediləcək.








## PRESENTATION OF A NEW BOOK BY A PROMINENT SCIENTIST

Presentation ceremony of the book on decision-making theory by a prominent scientist Rafig Aliyev, one of the greatest experts on fuzzy logic and artificial intelligence, which was published in the USA, was held in Marble Hall of Khazar University, on February 2.

"Uncertain computation based decision theory", which is 75th monograph by the professor, was published by "World Scientific", one of the famous scientific publishers. "World Scientific" is interested in publishing researches meeting world standards. The book by our compatriot will be used as a textbook in several countries including the USA.










Tədbiri giriş nitqi ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, alimin böyük elmi uğurlarından danışdı.

Mərasimdə şair Ramiz Rövşən, özbəkistanlı alim akademik Nadirbek Sadiqbekov, jurnalist, publisist Qulu Məhərrəmli, Durham Universitetinin (Böyük Britaniya) tələbəsi, professor Rafiq Əliyevin nəvəsi - Rafiq Rəşad oğlu Əliyev çıxış edərək, alimin çoxşaxəli elmi fəaliyyətinin müxtəlif cəhətlərindən bəhs etdilər.

Professor Rafiq Əliyev çıxışında kitabın yazılma tarixçəsindən danışdı, təqdimat mərasiminin təşkilinə görə universitetin rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi.

Mərasimdə Xəzər Universitetinin Kamera orkestrinin ifasında musiqi nömrələri səsləndi, Rafiq Əliyevin həyat və fəaliyyətindən bəhs edən qısametrajlı filmlər nümayiş etdirildi.







Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered an opening speech talking about great achievements of the scientist.

Ramiz Rovshan, a poet, Nadirbek Sadigbekov, Uzbek scientist academic, Gulu Maharramli, a journalist and publicist, and Rafig Rashad Aliyev, Prof. Rafig Aliyev's grandson who is studying at Durham University (Great Britain), delivered speeches underlining various aspects of scientific activities of the professor.

In his speech, Rafig Aliyev talked about background of the book and expressed his gratitude to university administration for the presentation ceremony.

At the ceremony, Chamber Orchestra of Khazar University performed pieces of music, and a short film about life and scientific activities of the professor was demonstrated.





## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLDİ

## KHAZAR UNIVERSITY LECTURER IS AWARDED WITH ORDER OF "HONOUR"

2018-ci il fevralın 19-da Xəzər Universitetinin müəllimi, xalq artisti professor Arif İmran oğlu Babayev Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şərəf" ordeni ilə təltif edilmişdir.

On February 19, 2018, People's artist Prof. Arif Imran Babayev, a lecturer of Khazar University, was awarded with Order of "Honour", for his contribution to the development of musical culture, by Order of Ilham Aliyev, the President of the Republic of Azerbaijan.

## XALQ ARTİSTİ ARİF BABAYEVİN 80 İLLİK YUBİLEYİ KEÇİRİLDİ

## A CEREMONY DEDICATED TO ARIF BABAYEV'S 80TH ANNIVERSARY

Fevralın 27-də Xəzər Universitetinin Mədəniyyət mərkəzində görkəmli muğam ustadı, xalq artisti Arif Babayevin 80 illik yubileyi münasibətilə mərasim keçirildi.

Mərasimi qısa giriş sözü ilə universitetin Musiqi və incəsənət departamentinin müdiri - əməkdar müəllim, dosent, pianoçu Zülfiyyə Sadıqova açdı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı geniş çıxışında Arif Babayevin qədim və zəngin muğam ənənələrinə əsaslanan özünəməxsus ifaçılıq xüsusiyyətlərindən, özünün də iştirakçısı olduğu səfərlərdə xarici ölkələrin tamaşaçıları tərəfindən sənətkarın böyük rəğbətlə qarşılandığından danışdı, yubileyi münasibətilə onu təbrik etdi.

Dosent Zülfiyyə Sadıqova Xəzər Universitetinin kollektivi adından professor Hamlet İsaxanlının imzaladığı təbrik məktubunu oxudu. Yubilyara gül dəstəsi və hədiyyə təqdim olundu.

Xalq artisti mərasimin təşkilinə görə universitet rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi, tarzən Ramin Rzayev, kaman ifaçısı əməkdar artist Mirnazim Əsədullayev və skripkaçı Fərid Abbasovun müşayiəti ilə muğam parçası ifa etdi.

Tədbirdə universitetin rektoru Hassan Niknafs, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, dekanlar və departament müdirləri, əməkdaşlar iştirak edirdilər.

A ceremony was held to commemorate Arif Babayev's, a prominent mugham singer and People's Artist, 80th anniversary in the Culture Centre of Khazar University on February 27.

Honored instructor, Associate Professor and pianist Zulfiyya Sadigova, Head of the Department of Music and Art, opened the ceremony with a brief speech.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a long speech about Arif Babayev's mastery of mugham, which is based on ancient and rich traditions, and mentioned that Arif Babayev is warmly welcomed even by people of foreign countries to which he visit, and congratulated him on his birthday. Associate Professor Zulfiyya Sadigova read a letter of congratulation, with a Hamlet Isakhanli's signature, on behalf of staff of Khazar University. Arif Babayev was presented a bunch of flowers and a gift.

Arif Babayev expressed his gratitude to university administration for the ceremony, and sang a piece of muhgam accompanied by Ramin Rzayev, a tar player, Mirnazim Asadullayev, a kaman player, and Farid Abbasov, a violinist.

Dr. Hassan Niknafs, rector, Mahammad Nuriyev, vice-rector for Academic Affairs, Isakhan Isakhanli, vice-rector for Administration and Student Affairs, deans, heads of departments, and other staff members participated at the ceremony.

















# PROFESSOR HAMLET İSAXANLI İVANE CAVAXİŞVİLİ TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNİN 100 İLLİK YUBİLEY TƏDBİRLƏRİNDƏ İŞTİRAK ETMİŞDİR

# PROFESSOR HAMLET ISAKHANLI PARTICIPATED IN THE CEREMONIA L MEETINGS DEDICATED TO IVANE JAVAKHISHVILI TBILISI STATE UNIVERSITY'S 100TH ANNIVERSARY



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı fevralın 7-9-da İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinin (TDU) 100 illik yubileyinə həsr olun-muş silsilə tədbirlərdə iştirak etmişdir. TDU-nun 100 illiyi yubileyə dəvət olunmuş 50-dən çox universitetin nümayəndə heyətlərinin, dövlət və hökumət nümayəndələrinin, ictimai xadimlərin və alimlərin iştirakı ilə keçirilmişdir.

Yubiley tədbirləri çərçivəsində fevralın 7-də professor H.İsaxanlı xarici ölkələrdən yubileyə gəlmiş nümayəndələrin tərkibində Gürcüstan Respublikasının Prezidenti Giorgi Marqvelaşvili ilə görüşmüşdür. Söhbət zamanı Gürcüstan Prezidenti Xəzər Universiteti haqqında çox eşitdiyini bildirmiş, universitetin ünvanına xoş sözlər söyləmişdir.

Professor H. İsaxanlı, həmçinin, Gürcüstanın təhsil naziri Dr. Mixeil Çxenkeli ilə söhbət etmiş, Gürcüstanda və Azərbaycanda təhsilin vəziyyəti, qarşılıqlı əməkdaşlıq ideyaları, Gürcüstanda yaşayan Azərbaycandilli əhalinin təhsil problemləri, bu işdə Xəzər Universitetinin marağı və köməyi məsələləri müzakirə olunmuşdur.

Khazar University Founder and the Chairman of its Board of Directors and Trustees has been invited to the series of events dedicated to the Ivane Javakhishvili Tbilisi State University's 100th Anniversary held on 7-9 February. The Annirversary was held with participation of more than 50 university representatives, state and government representatives, well-known public figures and scholars from abroad.

On February 7, within the foreign delegation, Professor H. Isakhanli met with Georgian President H.E. Giorgi Margvelashvili. During the talks, the Georgian President expressed his sympathy towards Khazar University and said that he had heard much about the University.

Prof. Isakhanli also held talks with the Minister of Education of Georgia Dr. Mikheil Chkhenkheli about the state of education in Georgia and Azerbaijan, mutual cooperation ideas, education problems of Azerbaijani-speaking population of Georgia, and the interest and support of Khazar University in this regard.

Fevralın 8-də professor H. İsaxanlı Tbilisi Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış etmişdir. (*Çıxışın mətni 19-cu səhifədə dərc olunur*). H.İsaxanlı çıxışında Xəzər Universiteti və onun Gürcüstan universitetləri ilə əməkdaşlığı kimi məsələlərdən danışmış, Tbilisi Dövlət Universitetinə xalça hədiyyə etmişdir.

Professor H. İsaxanlı həmin gün Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Dursun Həsənovla görüşüb söhbət etmişdir.

Fevralın 9-da professor H. İsaxanlı TDU-nun 100 illik yubileyinə gəlmiş qonaqlarla birlikdə Gürcüstan Parlamentində olmuşdur. Parlament sədrinin birinci müavini Tamar Çuqoşvili dəvət olunmuş qonaqları salamlayaraq, yubiley münasibətilə universitet rəhbərliyini və əməkdaşlarını təbrik etmişdir.

Yubiley günlərində Azərbaycan televiziyası (AzTV) və bir neçə digər informasiya agentlikləri professor H. İsaxanlıdan müsahibə almışlar.

On February 8, Prof. H. Isakhanli delivered a speech at the Ceremony dedicated to TSU's 100th Anniversary. (Text of the speech is published on page 19).During his speech, H. Isakhanli spoke about Khazar University and its cooperation with Georgian universities, and presented a carpet to TSU.

On the same day Prof. H. Isakhanli met with the Ambassador of Azerbaijan to Georgia, Mr. Dursun Hasanov.

On February 9, Prof. H. Isakhanli visited Georgian Parliament together with the guests invited to the TSU's 100th Anniversary. First Deputy Speaker of the Parliament, Tamar Chugoshvili greeted the invited guests, congratulated the University management and the staff on the ocassion of its Anniversity.

During the Jubilee days, several news agencies including Azerbaijan TV (AzTV) took interviews from Prof. Isakhanli.

## PROFESSOR HAMLET İSAXANLI TDU - NUN 100 İLLİK YUBİLEYİNƏ QUBA XALÇASI HƏDİYYƏ EDİB

## PROFESSOR HAMLET ISAKHANLI PRESENTED GUBA CARPET TO TSU'S 100TH YEAR ANNIVERSARY

*2018-ci il fevralın 8-də Gürcüstan Azərbaycanlılarının Xəbər Agentliyi - GAXA Tbilisi Dövlət Universitetinin (TDU) 100 illik yubileyi mərasimlərində iştirak edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdan müsahibə almışdır. Müsahibəni təqdim edirik.*

Azərbaycanın Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinin 100 illik yubileyinə Quba xalçası bağışlayıb. GAXA-nın Tbilisi müxbirinin məlumatına görə, H. İsaxanlı TDU-nun 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlər çərçivəsində ölkə prezidenti Giorgi Marqvelaşvili ilə görüşdüklərini bildirib. Onun sözlərinə görə, prezident Xəzər Universitetinin fəaliyyəti haqqında müsbət fikirlər səsləndirib.

H. İsaxanlı GAXA-ya açıqlamasında bu gün Gürcüstanın elm və təhsil naziri Mixeil Çxenkeli ilə görüşdüyünü və görüşdə Gürcüstan azərbaycanlılarının təhsil sahəsində olan mövcud problemləri barədə öz fikirlərini söylədiyini və onların həll olunması istiqamətində əlindən gələn köməyi əsirgəməyəcəyini bildirib: "Mən nazirlə görüşdə ondan Gürcüstan azər-




*GAXA – Georgian Azerbaijanis' news agency took an interview from the founder of Khazar University, Chair of its Board of Directors and Trustees, Professor Hamlet Isakhanli participating in the ceremonial meetings dedicated to 100th Anniversary of Tbilisi State University (TSU).*

The Founder of Khazar University of Azerbaijan, Chair of its Board of Directors and Trustees, Professor Hamlet Isakhanli presented a Guba carpet on the occasion Ivane Javakhishli Tbilisi State University's 100th Anniversary. According to GAXA's correspondent in Tbilisi, within the framework of events on TSU's 100th year anniversary, H. Isakhanli met with the president of Georgia, Georgi Margvelashvili. According to him, the President expressed warm words on behalf of Khazar University.

In an interview to GAXA, Prof. Isakhanli told that today he had met with the Georgian Minister for Science and Education Mikhail Chkhenkeli and expressed his views on the he Georgian Azerbaijanis' current problems in education and assured that he would do his utmost to solve them: "at the meeting

baycanlılarının təhsil problemlərinə fikir verməyini xahiş etdim. Dedim ki, Xəzər Universiteti olaraq nə lazımdırsa, sizə kömək edə bilərik. Məsələn, mən dedim ki, biz müəllimlərə, məktəb direktorlarına təlim kursları keçirilməsini təşkil edə bilərik. Nazirə məlumat verdim ki, Azərbaycanda təhsil nazirliyinin nəzdində Təlim Mərkəzi fəaliyyət göstərir. Mənim təklifim onun çox xoşuna gəldi və biz qərara gəldik ki, əməkdaşlıq edək", - H. İsaxanlı qeyd edib.

H. İsaxanlı bu gün Azərbaycan nümayəndə heyətinin TDU-nun 100 illik yubileyinə qatıldığını, və yubileyin rəsmi açılışında ona da söz verildiyini bildirib: "Çox şadam ki, TDU-nın təntənəli yubileyində iştirak edirik. Azərbaycandan yubileyə nümayəndə heyəti də gəlib. Azərbaycan Milli Elmlər Akademiyasından, Bakı Dövlət Universitetindən və Xəzər Universitetindən nümayəndələr, alim və professorlar dəvət olunub. Universitetin 100 illik yubileyində Bakı Dövlət Universitetinin tədris üzrə prorektoru İradə Əliyeva, Beynəlxalq departamentin müdiri Gülheyran Rəhimova və Xəzər Universitetinin nümayəndəsi olaraq mən də iştirak edirəm. Mən yubileyin rəsmi açılışında çıxış edərək Azərbaycan-Gürcüstan dostluq əlaqələrindən, ölkədə yaşayan azərbaycanlılardan və əlaqələrimizin vacibliyindən söhbət açdım. Mən yubileyə əliboş gəlməmişəm. Hazırda Luvr muzeyində saxlanılan Quba xalçasına bənzər bir xalça toxutdurub bu gün 100 illik yubileyini qeyd etdiyimiz İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinə hədiyyə etmək üçün gətirdim. Xalçanın üzərinə ingilis dilində "İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinin 100 illiyinə. Bakı. Azərbaycan. Xəzər Universitetindən hədiyyə" yazılmış xalçanı universitetin rektoruna bağışladım və bu, yubiley iştirakçılarının alqışına səbəb oldu",- H. İsaxanlı bildirib.

H. İsaxanlı Gürcüstanda yeni fəaliyyət göstərən GAXA.ge saytına münasibət bildirib: "Mən eşidəndə ki, Gürcüstanda "Gürcüstan Azərbaycanlılarının Xəbər Agentliyi" (GAXA.ge) yaradılıb, çox sevindim, hətta bir az təəccübləndim. Bu dünya informasiya üzərində qurulub. Çünki yaxşı informasiyan varsa, uğurlara əl ata bilərsən, yoxdursa, insan kor kimidir, getdiyi yolu görmür. İnformasiya çoxluğu çox mühümdür. Ona görə də, digər informasiya agentliklərinin təcrübəsini öyrənib, sizin yeni açdığınız agentliyi daha da yüksəklərə qaldırmaq üçün gərgin çalışmaq lazımdır",- deyə, professor H. İsaxanlı vurğulayıb.

*https://www.gaxa.ge/hamlet-isaxanli-tiflis-dovl%C9%99t-universitetinin-100-illik-yubileyin%C9%99-quba-xalcasi-h%C9%99diyy%C9%99-edib/*

with the Minister I asked him to consider the educational problems of Georgian Azerbaijanis. I assured that as Khazar University, we can help with whatever is needed. For instance, I suggested to organize training courses to teachers and school directors. I informed the minister about Training Center operating under Ministry of Education in Azerbaijan. He really appreciated my suggestion and we decided to cooperate further", mentioned H.Isakhanli.

H. Isakhanli said that today the Azerbaijani delegation participated in the 100th anniversary of TSU and he was given a speech at the official opening of the jubilee: "I am very pleased to be here at TSU solemn jubilee. The delegation from Azerbaijan also came to the jubilee. Representatives of Azerbaijan National Academy of Sciences, Baku State University and Khazar University, scientists and professors were invited. Pro-rector for Academic Affairs of Baku State University, Irada Aliyeva, Head of its International Department, Gulheyran Rahimova and me as Khazar University representative attend the University's 100th jubilee. Speaking at the official opening of the jubilee, I talked about Azerbaijan-Georgia friendly relationships, the Azerbaijanis living in the country and the importance of our relations, as well as the culture and science of Georgia. I have not come for the jubilee without a present. I have exclusively weaved a carpet similar to the Guba carpet exhibited in the Louvre museum and brought it to the Ivane Javakhishvili Tbilisi State University's 100thAnniversary. On the carpet, it's written in English: "On the occasion of 100th anniversary of Ivane Javakhishvili Tbilisi State University. Baku. Azerbaijan. A present from Khazar University". I presented the carpet to the Rector of the University, which caused the applause of the jubilee participants", H.Isakhanli said.

H. Isakhanli commented on the GAXA.ge site operating in Georgia: "I was very glad and even a little surprised to hear that a news agency of Georgian Azerbaijanis was created (GAXA) in Georgia. This world is based on information. If you have good information, you can achieve the successes, if not, we are like blind, do not see the way to go. The abundance of information is very important. Therefore, you need to study the experience of other news agencies and work hard to improve the agency you have founded", Prof. Isakhanli underlined.

*https://www.gaxa.ge/hamlet-isaxanli-tiflis-dovl%C9%99t-universitetinin-100-illik-yubileyin%C9%99-quba-xalcasi-h%C9%99diyy%C9%99-edib/*

# İVANE CAVAXİŞVİLİ TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ MƏRASİMDƏ PROFESSOR HAMLET İSAXANLININ ÇIXIŞI

# SPEECH OF PROF. HAMLET ISAKHANLI AT THE CEREMONY DEDICATED TO THE 100TH ANNIVERSARY OF IVANE JAVAKHISHVILI TBILISI STATE UNIVERSITY

Xanımlar və bəylər,
Hörmətli Rektor,
Cənab Nazir,
Əziz həmkarlar və dostlar!

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin 100 illik yubileyində iştirak etmək çox xoşdur və bu mərasimdə çıxış etmək mənim üçün böyük şərəfdir.

Mənim üçün bu an dünya üç əsas hissədən ibarətdir. Birinci, Gürcüstan Respublikası mənim vətənimdir. Mən Gürcüstanda doğulmuş azərbaycanlılardan biriyəm. Burada doğulmuşam, uşaqlığım burada keçib, orta məktəbi burada bitirmişəm. Anam və qardaşım burada yaşayır. Bura tez-tez gəlirəm – evimizə, gürcü dostlarımla görüşə; bir sıra beynəlxalq layihələri, həmçinin Gürcüstanla bağlı layihələri həyata keçirmək üçün buranı ziyarət edirəm. Hər zaman Gürcüstana böyük məmnuniyyətlə səfər edirəm.

Mənim dünyamın ikinci hissəsi Azərbaycan Respublikasıdır. Azərbaycanda yaşayıram, işləyirəm. Elmi və bədii yaradıcılıqla məşğul oluram. 27 il əvvəl Azərbaycanın ilk özəl universitetini – Xəzər Universitetini qurdum. Keçən il Xəzər Universiteti dünyanın 150 ən yaxşı gənc (yaşı 50-ni keçməyən) universiteti sırasına daxil oldu (*QS University Ranking*).

Xəzər Universiteti Gürcüstan universitetləri ilə sıx əlaqədədir, bir sıra beynəlxalq layihələrdə onlarla birlikdə çalışır və əməkdaşlıq edir.

Dünyamın 3-cü hissəsi – Gürcüstan və Azərbaycandan kənarda olan böyük dünyadır, hər zaman səyahət etdiyimiz, iş birliyində olduğumuz böyük dünya! Burada, dünyanın müxtəlif bölgələrindən gəlmiş həmkarlarımı salamlayır, "xoş gəldiniz" deyir və uğurlar arzulayıram.

Hər xalq kimi gürcü xalqı da Şota Rustaveli kimi öz böyük ədəbiyyat və sənət adamları ilə, İvane Cavaxişvili, Nikoloz Muxeleşvili kimi elm adamları ilə fəxr edir. Və nəhayət, öz qabaqcıl institutları, xüsusilə, yeni biliklər istehsal etmək gücünə malik İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti kimi institutları ilə fəxr edir!

Ad gününüz mübarək, İvane Cavaxişvili Tbilisi Dövlət Universiteti!

Xəzər Universiteti adından, Azərbaycanın elm və sənət adamları adından Sizi – əziz dostlar, əziz İvane Cavaxişvili Tbilisi Dövlət Universiteti, əziz Gürcüstan – təbrik edirəm!

Ladies and Gentlemen,
Esteemed Rector,
Mr. Minister of Education,
Dear colleagues and friends!

It's my pleasure to participate at the Ivane Javakhishvili Tbilisi State University's 100th Anniversary and a great honour to deliver a speech at this Celebration.

At the moment, for me the world has been divided into three main parts. First, Georgian Republic – my homeland, I am one of the ethnic Azerbaijanis born in Georgia. Here, I was born, spent my childhood and finished secondary school. My mother and brother live here. I often visit this place, our home, come to see my Georgian friends, to implement international projects, as well as projects related to Georgia. I always visit Georgia with great pleasure.

The second part of my world is the Republic of Azerbaijan. I live and work in Azerbaijan. There, I am dedicated to scientific and literature oeuvre. 27 years ago, I established the first private University of Azerbaijan – Khazar University. Last year, Khazar University entered into the list of top 150 best world young universities (QS University Ranking of Young Universities under 50).

Khazar University is in close contact with Georgian universities, works and cooperates with them in a number of international projects.

Finally, he third part of my world is the great world outside of Georgia and Azerbaijan, where we always travel and work together! Here, I greet my colleagues from different regions of the world, welcome and wish success to them.

Like every nation, the Georgian people are proud of their prominent men of art and literature, such as Shota Rustaveli, scientists like Ivane Javakhishvili and Nikoloz Muskhaleshvili. At last, they are proud of their advanced institutions, particularly, of the institutions capable to produce new knowledge, such as Ivane Javakhishvili Tbilisi State University!

Happy Birthday, Ivane Javakhishvili Tbilisi State University!

Dear friends, dear Ivane Javakhishvili Tbilisi State University, dear Georgia! On behalf of Khazar University, Azerbaijani intellectuals and people of arts, I congratulate You!



საჯარო სამართლის იურიდიული პირი –
ივანე ჯავახიშვილის სახელობის
თბილისის სახელმწიფო უნივერსიტეტი
LEGAL ENTITY OF PUBLIC LAW –
IVANE JAVAKHISHVILI TBILISI STATE UNIVERSITY



# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

# LETTER OF GRATITUDE TO KHAZAR UNIVERSITY

**Hamlet Isakhanli**
**Khazar University**

Dear professor Isakhanli,

On behalf of Ivane Javakhishvili Tbilisi State University (TSU) community I would like to extend my deepest gratitude to you for congratulating us on the occasion of TSU's Centennial Anniversary, which was held under the umbrella of UNESCO on February 7-9.

It was an honor and pleasure at the same time to make you part of this remarkable celebration for our university and our country. Your presence was a declaration of our partnership, our mutual interests, and a shared outlook on future.

Herewith, I take an opportunity to thank you for the gift. Let me assure you that it will find a special place at the TSU museum next to other presents which will be exhibited in commemoration of the TSU's 100th Anniversary.

Lastly, I hope that your contribution to TSU's internationalization will continue and evolve into a more intensive collaboration yielding into joint projects and numerous activities beneficial to the university community.

Sincerely,

**Dr.George Sharvashidze**
**Rector**
*21/02/2018*

**Xəzər Universiteti**
**Hamlet İsaxanlıya**

Əziz professor İsaxanlı,

UNESCO-nun himayəsi ilə İvane Cavaxişvili Tbilisi Dövlət Universitetinin (TDU) fevralın 7-9-da keçirilmiş 100 illik yubileyi münasibətilə bizi təbrik etdiyiniz üçün TDU kollektivi adından sizə dərin minnətdarlığımı bildirirəm.

Sizin bu əlamətdar mərasimdə iştirakınız universitetimiz və ölkəmiz üçün eyni zamanda şərəf və zövq doğuran hadisə idi. Sizin iştirakınız əməkdaşlığımızın, qarşılıqlı maraqlarımızın və gələcəklə bağlı ortaq baxışımızın təzahürü idi.

Fürsətdən istifadə edərək, bu məktub vasitəsilə hədiyyəniz üçün Sizə öz təşəkkürümü bildirirəm. Sizi əmin edirəm ki, TDU-nun 100 illiyinə həsr edilmiş xatirə muzeyində nümayiş etdiriləcək digər hədiyyələrlə birlikdə onun xüsusi yeri olacaq.

Nəhayət, ümid edirəm ki, TDU-nun beynəlmiləlləşməsinə göstərdiyiniz töhfələr davam edəcək, universitet kollektivi üçün faydalı birgə layihələr və çoxsaylı fəaliyyətlərə təkan verən daha sıx əməkdaşlığa çevriləcək.

Hörmətlə,

**Dr. George Şarvaşidze**
**Rektor**
*21/02/2018*

# İSRAİL SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# ISRAELI AMBASSADOR VISITS KHAZAR UNIVERSITY



Fevralın 27-də Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin dəvəti ilə İsrailin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Dan Stav universitetin qonağı oldu.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı səfir Dan Stav ilə görüşdü. Görüşdə, həmçinin, Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru, dosent İradə Xəlilova, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayev, Avropa İttifaqı Araşdırmalar Mərkəzinin rəhbəri Baba Bayramlı və İsrail səfirliyinin Mətbuat departamentinin direktoru Sahilə Mustafayeva iştirak edirdilər.

Görüşdən sonra səfir Dan Stav Siyasi elm və beynəlxalq münasibətlər departamentinin tələbələrinə "İsrail-Azərbaycan ikitərəfli münasibətlərinə dair" mövzusunda mühazirə oxudu. Mühazirədə, həmçinin, Yaxın Şərq regionunda baş verən hadisələr və İsrail-Fələstin münaqişəsi barəsində tələbələrə məlumat verildi.

Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Elmar Mustafayevin moderatorluğu ilə keçirilən müzakirə sual-cavab sessiyası ilə başa çatdı.

Mr. Dan Stav, Extraordinary and Plenipotentiary Ambassador of Israel to Azerbaijan, visited Khazar University, on invitation of the Department of Political Sciences and International Relations of Khazar University, on February 27.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, had a meeting with Israeli ambassador Mr. Dan Stav. Associate Professor Irada Khalilova, Vice-rector for Research of Khazar University, Elmar Mustafayev, Coordinator of the Department of Political Sciences and International Relations, Baba Bayramli, Head of European Union Research Centre, and Sahila Mustafayeva, Director of Press Department of Israeli embassy, also participated at the meeting.

After the meeting, Ambassador Mr. Dan Stav delivered a lecture "Israel-Azerbaijan bilateral relations" for the students of the Department of Political Sciences and International Relations. The Ambassador also talked about accidents in the Middle East and the Israeli-Palestinian conflict. The meeting, which was moderated by Elmar Mustafayev, the coordinator of the Department of Political Sciences and International Relations, ended with question-answer session.









## MÖVLANƏ MÜBADİLƏ PROQRAMI HAQQINDA MƏLUMAT SESSİYASI

Fevralın 16-da Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsinin heyəti tələbələr üçün Mövlanə Mübadilə Proqramı haqqında məlumat sessiyası keçirdi.

Sessiyanın əsas məqsədi tələbələrə Mövlanə Mübadilə Proqramı haqqında ətraflı məlumat vermək və onlara bu imkandan necə yararlanmağın yollarını izah etmək idi. Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Günay Fərzəliyeva proqram haqqında qısa təqdimat keçirdi, iştirakçıları qəbul şərtləri və tələb olunan sənədlərlə tanış etdi, tələbələrə uğurlu müraciət üçün faydalı məlumatlar verdi.

Görüşdə, həmçinin, cari tədris ilində proqramdan yararlanmış İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Aytac Ağayeva da iştirak etdi. A. Ağayeva Türkiyənin Sakarya Universitetində Mövlanə mübadilə tələbəsi kimi qazandığı təcrübəni Xəzər Universitetinin tələbələri ilə paylaşdı.

Görüş sual-cavab ilə yekunlaşdı.

## SUMQAYIT "DÜNYA" MƏKTƏBİNDƏ VALİDEYNLƏR VƏ MÜƏLLİMLƏRLƏ GENİŞ TOPLANTI KEÇİRİLDİ

Fevralın 23-də Sumqayıt "Dünya" məktəbində şagirdlərin valideynləri və müəllimlərlə geniş toplantı keçirildi. Öncə "Dünya" məktəbi haqqında çəkilmiş film nümayiş etdirildi. Filmin nümayişindən sonra Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru, təsisçinin Sumqayıt "Dünya" məktəbi üzrə nümayəndəsi Əlövsət Əmirbəyli çıxış etdi. O, Sumqayıt "Dünya" məktəbi, orada tədris edilən fənlər və gələcəkdə görüləcək işlər haqqında geniş məlumat verdi.

Sonda Ə. Əmirbəyli valideynlərin çoxsaylı suallarını cavablandırdı.

## MEVLANA EXCHANGE PROGRAM INFO SESSION

On February 16, the International Affairs Office held an information session about Mevlana Exchange Program for students of Khazar University.

The purpose of this session was to provide the participants with detailed information on Mevlana Exchange Program and explain how they can benefit from this opportunity. Gunay Farzaliyeva, a coordinator of International Affairs Office, delivered a brief presentation about exchange program and informed students about eligibility requirements and required documents. She also gave useful tips for producing a successful application.

Aytaj Aghayeva, a student of the School of Economics and Management and a Mevlana exchange student in the current academic year, also participated in the info session. Aytaj shared her experience as a Mevlana exchange student at Sakarya University in Turkey.

The event ended with a question and answer session.

## AN EXTENDED MEETING WITH PARTICIPATION OF PARENTS AND TEACHERS IN SUMGAYIT "DUNYA"

An extended meeting with participation of parents and teachers was held at Sumgayit "Dunya" school on February 23. First, a movie dedicated to "Dunya" school was demonstrated. Then Alovsat Amirbayli, Director on Public Relations and Media of Khazar University and the Founder's representative in Sumgayit "Dunya" school, delivered a speech. He talked about Sumgayit "Dunya" school, school subjects and future plans.

Then parents received answers to their questions.



## PROFESSOR HAMLET İSAXANLI ELMİ-PRAKTİK SEMİNARDA ÇIXIŞ ETDİ

## PROF. HAMLET ISAKHANLI DELIVERED A SPEECH AT A SCIENTIFIC - PRACTICAL SEMINAR

Fevralın 6-da UNEC-də Türkiyənin və Azərbaycanın nüfuzlu universitetlərinin təmsil olunduğu elmi-praktik seminar keçirildi. "Feyk elmi və akademik etika: müasir çağırışlar və yeni institutların inkişafı" mövzusuna həsr olunan seminarda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ali məktəblərin tədqiqatyönümlü universitetlərə çevrilməsinin əhəmiyyətindən, tədqiqatların beynəlxalq standartlara cavab verməsində akademik sərbəstlik və elmi mühit yaradılmasının vacibliyindən danışdı.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

*http://inform.az/index.php?newsid=27704*

*https://metbuat.az/news/891452/istanbul-universitetinin-professoru-unec-in-akademik-etikasi.html*

*https://az.trend.az/azerbaijan/society/2857517.html* və s.

A scientific-practical seminar, with participation of prestigious universities of Turkey and Azerbaijan, was held at UNEC on February 6. The topic of the seminar was "Fake science and academic ethic: modern challenges and development of new institutions". At the seminar, Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, talked about the importance of transition of higher education institutions into research-centered universities as well as importance of creating a scientific environment and academic freedom at universities for the researches to meet international standards.

Links for further information:

*http://inform.az/index.php?newsid=27704*

*https://metbuat.az/news/891452/istanbul-universitetinin-professoru-unec-in-akademik-etikasi.html;*

*https://az.trend.az/azerbaijan/society/2857517.html* and etc.




## "DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" məktəbinin aylıq nəşri olan "Dünya" jurnalının 2017-ci il dekabtr nömrəsi (22-ci nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.

## NEW ISSUE OF "DUNYA" JOURNAL PUBLISHED

December issue (22nd issue) for 2017 of 'Dunya' journal, monthly publication of "Dunya" School of Khazar University, was published in printing house of Khazar University.



## XƏZƏR UNİVERSİTETİNİN RƏHBƏRLİYİ "GREENTECH" MMC-DƏ

Fevralın 26-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Hassan Niknafs, prorektorlar Məhəmməd Nuriyev, İsaxan İsaxanlı, İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Elektronika, telekommunikasiya və radiomühəndislik departamentinin müdiri Nuru Səfərov, Təmir və tikinti işləri üzrə menecer Şahin İsayev, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Fəxrəndə Əlimərdanova və digər əməkdaşlar Bina qəsəbəsində yerləşən, "Azərsun Holdinq" şirkətinə məxsus "GreenTech" MMC-də oldular.

Qonaqları "Azərsun Holdinq" şirkətinin vitse-prezidenti Tahir Güzel, şirkətin Baş direktoru Nizami Heybətov və digər şəxslər qarşıladılar. Xəzər Universitetindən gələn qonaqlar "GreenTech" MMC ilə yaxından tanış oldular. T.Güzel qonaqlara geniş məlumat verdi.

Sonda xatirə şəkilləri çəkildi.

## KHAZAR UNIVERSITY ADMINISTRATION VISITS "GREENTECH" LLC

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Hassan Niknafs, Rector, Mahammad Nuriyev, Isakhan Isakhanli, Irada Khalilova - Vice-rectors, Alovsat Amirbayli, Director on Public Relations and Media, Rovshan Abbasov, Head of the Department of Geography, Nuru Safarov, Head of the Department of Electronics, Telecommunications and Radio Engineering, Shahin Isayev, Manager on Repair and Construction, Fakhranda Alimardanova, Vice-dean of the School of Engineering and Applied Sciences and other staff members visited "GreenTech" LLC, affiliated to "Azersun Holding", on February 26.

Staff members met Tahir Guzel, Vice-president of "Azersun Holding", Nizami Heybatov, Leading Director of the company, and others. Moreover, the guests got closely familiar with "GreenTech" LLC. T.Guzel gave full information about the company.

A memory photo was taken at the end of the meeting.



# MƏRKƏZİ ELMİ KİTABXANADA "ELEKTRON RESURSLARIN İŞLƏNMƏSİ" MÖVZUSUNDA TƏQDİMAT

# A PRESENTATION ON "USE OF ELECTRONIC RESOURCES" HELD AT CENTRAL SCIENTIFIC LIBRARY

Fevralın 6-da AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun təşkilatçılığı ilə *Oxford University Press* məlumat bazasının "Elektron resursların işlənməsi" mövzusunda təqdimatı və bu bazadan istifadə qaydalarına həsr olunmuş tədbir keçirildi.

Məruzəçi Oksford Universitetinin beynəlxalq nəşriyyatının regional meneceri Marcin Dembowski idi.

Tədbirdə Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli iştirak etdi.

A presentation on "Use electronic resources" of database of *Oxford University Press* and a seminar dedicated to rules for use of the database were held at Central Scientific Library of ANAS with organizational support of Azerbaijan Library Information Consortium on February 6.

The speaker was Marcin Dembowski, regional manager of international publisher of Oxford University.

Aytaj Misgarli, Vice-director of Library-Information Center of Khazar University, also participated at the seminar.



## "MÜSAHİBƏDƏN UĞURLA KEÇMƏYİN YOLLARI" MÖVZUSUNDA TƏLİM

Fevralın 16-da Xəzər Universiteti Karyera mərkəzinin meneceri Səbinə Allahverənova "Müsahibədən uğurla keçməyin yolları" mövzusunda təlim keçirdi.

Təlimin müsahibə mərhələsində Mühəndislik və tətbiqi elmlər fakültəsinin Tədris işləri üzrə dekan müavini Fəxrəndə Əlimərdanova da iştirak etdi.

Təlimin məqsədi tələbələrə fundamental müsahibə praktikası və biliyi vermək idi.

Təlimin sonunda tələbələrin sualları cavablandırıldı.


## TRAINING ON "HOW TO PASS AN INTERVIEW SUCCESSFULLY"

Sabina Allahveranova, a manager of Career Centre of Khazar University, held a training on "How to pass an interview successfully" on February 16.

Fakhranda Alimardanova, Vice-dean on Academic Affairs of the School of Engineering and Applied Sciences, also participated at the interview stage of the training.

The aim of the training was to provide students with basic interview practice and knowledge.

At the end of the training, the trainer answered the students' questions.


AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

Filologiya üzrə

FƏLSƏFƏ DOKTORU
elmi dərəcəsi verilmişdir

Ali Attestasiya Komissiyasının Sədri

Ali Attestasiya Komissiyasının Baş Elmi Katibi

THE SUPREME ATTESTATION
COMMISSION ATTACHED TO THE PRESIDENT OF
THE REPUBLIC OF AZERBAIJAN

Confers on

the academic degree of

DOCTOR OF PHILOSOPHY (Ph.D)

in Philology

Chairman of the Supreme Attestation Commission

Principal Academic Secretary of the Supreme Attestation Commission

## "XƏZƏR"İN ƏMƏKDAŞINA FƏLSƏFƏ DOKTORU DİPLOMU VERİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında diplomların təqdim olunması mərasimi keçirilmişdir.

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müəllimi İrina Orucovaya da filologiya üzrə fəlsəfə doktoru diplomu verilmişdir.

## A STAFF MEMBER OF KHAZAR UNIVERSITY RECEIVED A PHD DIPLOMA

Presentation ceremony for diplomas was held at Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

Irina Orujova, a lecturer of the Department of the English Language and Literature, was also awarded with a PhD diploma in Philology.

## MİR CƏLALIN İNGİLİS DİLİNDƏ KİTABI ÇAP OLUNUB


Azərbaycanın böyük yazıçısı, görkəmli ədəbiyyatşünas alim, əməkdar elm xadimi Mir Cəlalın ADA Universitetində hazırlanmış "Selected Short Stories" ("Seçilmiş qısa hekayələr") adlı yeni kitabı Çaşıoğlu Ə MMC-də nəfis tərtibatla çapdan çıxıb.

Kitabda kiçik hekayə ustadının "İclas qurusu", "Anket Anketov", "Ay İsmayıl, onu başa sal", "Öyrəncəkli", "Pambıqçı", "Dissertasiya", "Müasir toy etiket qaydaları", "Matişgə", "Şaftalılar", "Əcnəbi xəstəlik", "Mirzə", "Söyüd ağacının kölgəsi" adlı qısa novellaları toplanmışdır.

Hekayələri ingilis dilinə Həsən Cavadi çevirmişdir. Kitabın redaktoru Betti Bleyer, redaktor assistenti Şəfəq Məhrəliyevadır.

Kitab Hafiz Paşayevin "Atam haqqında xatirələr" yazısı ilə açılır. Həsən Cavadi "Mir Cəlalın həyat və yaradıcılığı" adlı ön söz yazmışdır.

Kitabın sonunda Mir Cəlal haqqında qısa bioqrafik məlumat verilmişdir.




## A BOOK BY MIR JALAL PUBLISHED IN ENGLISH

A book "Selected Short Stories" by Mir Jalal, the great writer, prominent literary critic, and Honored Scientist of Azerbaijan, compiled at ADA University, has recently been published by Çaşıoğlu LLC.

The book includes short stories such as "Dried up in Meetings", "Anket Anketov", "Ismayil, make him understand", "Used to Scoldings", "Cotton picker", "Dissertation", "Rules of Etiquette for a Modern wedding", "Matishga", "Peaches", "Foreign Illness", "Mirza".

Hasan Javadi has translated the stories. Editor of the book is Betti Bleyer, and assistant editor is Shafag Mehraliyeva.

The book also includes a short biography of Mir Jalal.

## HAMLET İSAXANLININ ŞEİRİNƏ YAZILMIŞ MUSİQİYƏ KLİP ÇƏKİLDİ

XəzərNews.az xəbər verir ki, muğam ustası, xalq artisti Alim Qasımov "Nə olaydı" mahnısına çəkilmiş klipin təqdimatını keçirmişdir. Mahnının sözləri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya, bəstəsi Alim Qasımovun özünə məxsusdur. Klipin ideyasını və montaj işlərini Nigar Fərmanova yerinə yetirmişdir. Musiqi tərtibatı Fərahim Qulubəyova məxsusdur.

Bu link vasitəsilə daha geniş məlumat almaq və klipi izləmək olar:

*https://xezernews.az/?c=news&id=35885*

## A CLIP MADE FOR MUSIC WITH LYRICS BY HAMLET ISAKHANLI

XəzərNews.az informs that there was a presentation of a clip of a piece of music "If only" ("Nə olaydı") by Alim Gasimov, a mugham master and People's Artist. The lyrics of the music belongs to Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and composition belongs to Alim Gasimov. The concept and montage is by Nigar Farmanova. Music arrangement belongs to Farahim Guluhayov.

A link for further information and a clip.

*https://xezernews.az/?c=news&id=35885*



# XƏZƏR UNİVERSİTETİ EURİE - 2018 TƏHSİL SAMMİTİNDƏ

Fevralın 14-də Türkiyənin İstanbul şəhərində Lütfi Kırdar Konqres Mərkəzində EURİE-2018 Sammitinin rəsmi açılışı oldu. Sammitdə dünyanın 80 ölkəsindən 400-ə yaxın universitet, institut, təhsil qurumları və digər təşkilatlar iştirak edirdilər. Açılışda Türkiyənin və xarici ölkələrdən dəvət olunmuş dövlət rəsmiləri çıxış etdilər.

Sammitin rəsmi açılışından sonra konqres mərkəzində universitetlərin və digər qurumların təhsil sərgilərinin nümayişinə başlanıldı. Rəsmi qonaqlar Xəzər Universitetinin sərgi salonunda oldular. Hər il olduğu kimi, bu il də Xəzər Universiteti öz sərgi salonu ilə seçilirdi. Universitetin sərgi salonunda bakalavriat, magistratura və doktorantura bölmələrini özündə əks etdirən xüsusi banerlər, Azərbaycanın və Xəzər Universitetinin bayraqları, broşürlər, bloknotlar, qələmlər, çantalar və digər əşyalar var idi. Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli sammitin ilk günü universitet adından brifinq təşkil etdi.

Xəzər Universitetinin sərgi salonunda olan çoxsaylı qonaqlar universitet haqqında xoş sözlər söylədilər.



# KHAZAR UNIVERSITY AT THE EURIE - 2018 EDUCATION SUMMIT



**An official opening ceremony of the EURIE-2018 Education Summit was held at the Lutfi Kirdar Congress Center in Istanbul, Turkey, on February 14, 2018. Approximately 400 universities, institutes, educational institutions and other organisations from 80 countries participated at the summit. Government officials of Turkey and other foreign countries also participated at the opening ceremony.**

**Universities and other educational institutions took part at Education Exhibition after opening ceremony of the summit. Official guests visited exhibition hall of Khazar University. Like previous years, exhibition hall of Khazar University was distinguishable from the others. In the exhibition hall of Khazar University, there were special banners with information on Bachelor, Master and PhD degrees, flags of Azerbaijan and Khazar Unviersity, desk brochures, pamphlets, pens, bags and other items. Alovsat Amirbayli, Director of Public Relations and Media of the University, held a briefing on behalf of the Univerasity.**

**The exhibition hall of Khazar Unviersity was highly appreciated by the visiting guests.**







Sammitin ikinci günü Malayziyanın Elm və Ali təhsil naziri İdris Yusuf və rəhbərlik etdiyi nümayəndə heyəti Xəzər Universitetinin sərgi salonuna gəlib, universitetlə yaxından tanış oldular. Ə.Əmirbəyli malayziyalı naziri Bakıya, Xəzər Universitetinə dəvət etdi. İdris Yusuf dəvət üçün dərin təşəkkürünü bildirdi.

Sammitin üçüncü günü EURAS-ın prezidenti, Dr. Mustafa Aydın Xəzər Universitetinin sərgi salonunda oldu və sərgi haqqında xoş sözlər söylədi, universitetin rəhbərliyinə dərin təşəkkürünü bildirdi. M.Aydın Xəzər Universiteti tərəfindən sammitə həsr olunmuş xüsusi təqvimləri çox bəyəndiyini və bu cür təşəbbüslərin EURAS-ın digər üzvləri tərəfindən də həyata keçirilməsini arzuladı.

Elə həmin gün Ə.Əmirbəyli EURAS-ın İdarə Heyətinin toplantısında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının adından iştirak etdi. EURİE-2018 Sammitinin Təşkilat Komitəsi adından professor Hamlet İsaxanlıya təşəkkür elan edildi.

EURİE-2018 Sammitində İngiltərə, İtaliya, Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələrdə fəaliyyət göstərən universitetlərin nümayəndələri Xəzər Universitetinin sərgi salonunda oldular. Bütün qonaqlara universitet haqqında geniş məlumat verildi və onlara universitetin hədiyyələri təqdim edildi.

Sammitin sonuncu günü xatirə şəkli çəkildi.







Idris Yusif, Minister of Science and Higher Education of Malaysia visited Khazar University and got closely familiar with it. A.Amirbayli invited the minister to Baku, Khazar University. Idris Yusif expressed his deep gratitude for the invitation.

Dr. Mustafa Aydın, the President of EURAS, visited the hall of Khazar University on the third day of the summit, praised the university hall and thanked university administration. M.Aydın mentioned that he highly appreciated the calendars, which had especially been designed for the summit, and stressed that it is desirable that other members of EURAS follow this practice.

On the same day, A.Amirbayli participated at the meeting of Board of Directors of EURAS on behalf of Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees. The Organising Committee of EURIE-2018 expressed a special gratitude to Prof.Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees.

Staff members of universities from England, Italy, USA, Russian, Turkey, Ukraine and other countries visited the hall of Khazar University. Guests were provided with full information on the University and the university presents were given to them.

On the last day of the Summit, memory photos were taken.



EURAS

# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

**Konu: EURIE 2018-Hazar Üniversitesi**

**Sayın Dr. Hasan Niknafs,**

**14-16 Şubat 2018 tarihleri arasında gerçekleştirdiğimiz EURIE - Avrasya Yükseköğretim Zirvesi'nde Hazar Üniversitesi olarak temsiliniz bizleri onurlandırmış ve etkinliğimize büyük katkılar sağlamıştır. Her yıl olduğu üzere Sayın Genel Sekreter Alovsat Amirbeyli'nin etkinliğimizde yer alması tüm ekibimiz için mutluluk ve teşvik kaynağı olmuştur.**

**Bu vesileyle bir kez daha EURAS - Avrasya Üniversiteler Birliği'nin değerli bir üyesi olarak şahsınız nezdinde tüm Hazar Üniversitesi'ne teşekkürlerimizi sunar ve beklentilerinizi karşılamış olduğumuzu umut ederiz. Öntümüzdeki yıl için de EURIE 2019'da dost ve kardeş ülke Azerbaycan'a tahsis edilmiş özel bölümde Hazar Üniversitesi'ni ağırlama isteğimizi ifade ederek tüm çalışmalarımızda başarılar dilerim.**

**EURAS - Avrasya Üniversiteler Birliği çatısı altında 2018 yılı boyunca EURIE - Avrasya Yükseköğretim Zirvesi dışında da tüm proje ve etkinliklerimizde Hazar Üniversitesi ile işbirliğimizi sürdürmek ve geliştirmek arzusundayız. Değerli katkılarınız için şimdiden içten teşekkürlerimizi sunarım.**

**Saygılarımla,**

**Dr.Mustafa AYDIN**
***Başkan***
***EURAS–Avrasya***
***Üniversiteler Birliği***

**22.02.2018**

EURIE
EURASIA HIGHER EDUCATION SUMMIT

*Certificate of Participation*

*This certificate is presented to:*

ALOVSAT AMIRBEYLI

*For your valuable contribution as a participant to*

*"EURIE 2018 - EURASIA HIGHER EDUCATION SUMMIT" on February 14-16, 2018.*

Dr. Mustafa AYDIN
EURIE & EURAS PRESIDENT



# BANK VTB (AZƏRBAYCAN) - IN İDARƏ HEYƏTİNİN SƏDRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# CHAIRMAN OF THE MANAGEMENT BOARD OF VTB BANK (AZERBAIJAN) VISITS KHAZAR UNIVERSITY

Fevralın 21-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Bank VTB (Azərbaycan)-ın İdarə Heyətinin sədri Yevgeni Kirinlə işgüzar görüş keçirdi. Görüşdə universitetin baş mühasibi Emin Bəylərov və Bank VTB (Azərbaycan) "Neftçilər" filialının müdiri Elşən Nizamov da iştirak edirdilər.

Görüş zamanı H.İsaxanlı universitetin yaranma tarixi, əldə etdiyi nailiyyətlər, tədris prosesi, elmi-texniki bazası, beynəlxalq əməkdaşlığı və beynəlxalq universitetlər reytinqində olan vəziyyəti barədə qonağa geniş məlumat verdi. O, həmçinin, universitetin Bank VTB (Azərbaycan)-la işgüzar əlaqələrinə diqqət yetirərək, onların daha da genişləndirilməsinin, yeni layihələrdə əməkdaşlıq üçün zəmin yaradılmasının vacibliyini nəzərə çatdırdı.

Bank VTB (Azərbaycan)-ın İdarə Heyətinin sədri Yevgeni Kirin görüşdən məmnunluğunu bildirərək, universitetlə işgüzar əlaqələrin genişləndirilməsini və əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasını məqsədəuyğun hesab etdiyini bildirdi.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, had a business meeting with Yevgeny Anatolyevich Kirin, Chairman of the Management Board of VTB Bank (Azerbaijan). Emin Baylarov, Head Accountant of the University, and Elshan Nizamov, Head of "Neftchlier" branch of VTB Bank (Azerbaijan), also participated in the meeting.

Prof. Isakhanli gave detailed information on history, achievements, education process, technical facilities, international relations, and international ranking of the University to the guest. He mentioned business relations of the University with VTB Bank (Azerbaijan), and stressed that it was important to broaden relations and start new projects.

Yevgeny Anatolyevich Kirin, Chairman of the Management Board of VTB Bank (Azerbaijan), expressed his satisfaction of the meeting, and added that every effort should be made to increase mutual relations.



# АЗЕРБАЙДЖАН И ИНТЕГРАЦИЯ ВЫСШЕГО ОБРАЗОВАНИЯ В ЕВРОПРОСТРАНСТВО

*Предлагаем нашим читателям статью, опубликованную на официальной странице интернет-сайта газеты «Эхо» 5 февраля 2018 г.*

Система среднего и высшего образования досталась Азербайджану, как, впрочем, и всем остальным странам постсоветского пространства в наследство от Советского Союза.

Отношение к данной системе неоднозначное, кто-то расхваливает ее, считая чуть ли не образцом для подражания, кто-то, напротив, критикует, называя никчемной и совершенно не подходящей к современным реалиям.

Как бы то ни было, можно сказать одно - образование в Азербайджане, как среднее, так и высшее, до сих пор проходит стадию становления, и реформы необходимы. Впрочем, это признают и представители образовательного сегмента.

Одним словом, то, что с высшим образованием далеко не все так, как этого хотелось бы, признают и те, от кого данная система зависит. Признают они и то, что отечественное образование до сих пор не интегрировано в европейское пространство, хотя попытки этого делались уже давно.

Как заявил в беседе с *Echo.az* **учредитель, председатель Совета Директоров и Попечителей Университета Хазар профессор Гамлет Исаханлы** ни для кого не является откровением, что азербайджанское высшее образование уже давно делает попытки интегрировать в европространство.

«Первым шагом в данном направлении можно считать то, что Азербайджан присоединился к Болонскому процессу, и именно данный факт является главным элементом интеграции отечественного образования в европейское образовательное пространство. Надо сказать, что Болонский процесс был придуман как раз для того, чтобы в разных странах были определенные образовательные стандарты, чтобы студенты могли без всяких проблем продолжать учебу в другой стране» - говорит Г.Исаханлы.

По его словам, Азербайджан не просто присоединился к Болонскому процессу, но и сделал конкретные шаги для того, чтобы приблизить отечественное высшее образование к европейскому.

«К примеру, в азербайджанских вузах появились степень бакалавра, магистра. Вообще, интеграция не означает, что нужно быть неотъемлемой частью евросистемы. Она означает, что высшие учебные заведения имеют связи, совместные проекты, обмениваются студентами с европейскими университетами. Все это происходит и у нас в той или иной степени,» - сказал Исаханлы.

«Нельзя не отметить, что в странах Европы, а также в штатах функционируют ведущие университеты, но наряду с ними есть университеты и среднего уровня, и в первых работы проводятся гораздо больше, чем во вторых,» - отметил он.

«Аналогичное мы можем наблюдать и в Азербайджане. Интеграция имеет место быть, но, конечно, пока в недостаточных масштабах. Тут многое зависит от государственной политики в области образования, а также от высших образовательных институтов. Но в целом, интеграция в области образования, в Азербайджане поощряется», - считает Исаханлы.

Как отмечал в беседе с *Echo.az* эксперт в области образования Этибар Алиев, если говорить о том, какие высшие учебные заведения в Азербайджане можно считать самыми востребованными и, соответственно, престижными, то нужно проанализировать число учащихся вуза, набравших более 600 баллов при поступлении.




Вторым показателем может стать то, на какие вузы страны ссылаются в научных работах.

«Если же говорить о критериях, по которым выбирают вузы в международных рейтингах, то тут учитывается большое количество нюансов, по многим из которых мы не дотягивает до международных стандартов, а потому так редко попадаем в авторитетные рейтинги. В целом же конкуренция на рынке высшего образования растет, а потому нам будет все сложнее и сложнее соответствовать международным стандартам и требованиям в будущем», — сообщал Э.Алиев.

Между тем, как отметила в беседе с *Echo.az* эксперт в сфере образования Сабира Сафарова, отечественная система высшего образования нуждается в реформировании.

«Увы, но качество высшего образования в Азербайджане сильно хромает, и попытки привести его в чувство по сей день не принесли особо ощутимых результатов. Мало кто из отечественных выпускников может трудоустроиться по специальности за границей, а это говорит о том, что попытки интеграции в европейское пространство по сей день так и остались попытками,» — сказала Сафарова.

По ее словам, перспективная система образования должна не только вооружать знаниями обучающегося, но и формировать потребность в непрерывном самостоятельном овладении ими, а также способствовать развитию самостоятельного и творческого подхода к знаниям в течение всей активной жизни человека.

«Образование должно в итоге стать таким социальным институтом, который был бы способен предоставлять человеку разнообразный набор образовательных услуг; позволяющих учиться непрерывно, обеспечивать широким слоям населения возможность получения послевузовского и дополнительного образования», — говорит С.Сафарова.

Понятное дело, что для того, чтобы сказать о том, что высшее образование в стране находится на достойном уровне, необходимо, чтобы выпускник имел не только «корочку» об окончании вуза, но и был настоящим специалистом своего профиля не на бумаге, а на деле. Лишь в этом случае он будет востребован не только у себя на Родине, но и далеко за ее пределами.

**С. Алиева**

*http://ru.echo.az/?p=67063#Kalibri*

## Professor Hamlet İsaxanlı Azərbaycan təhsilinin Avropa ali təhsil sisteminə inteqrasiyası ilə bağlı fikirlərini bölüşdü

2018-ci il fevralın 5-də "Эхо" qəzetinin rəsmi internet səhifəsində "Азербайджан и интеграция высшего образования в европространство" ("Azərbaycan və Avropa ali təhsil sisteminə inteqrasiya") adlı məqalə yayımlanmışdır. Məqalədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının Azərbaycan təhsilinin Avropa ali təhsil sisteminə inteqrasiyası ilə bağlı fikirlərinə yer verilmişdir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
*http://ru.echo.az/?p=67063*

## Prof. Hamlet Isakhanli expressed his views on Integration of Education System of Azerbaijan into European Higher Education System

A research article "Integration into higher education system of Europe and Azerbaijan" was released on official website of "Ekho" newspaper (in Russian) on February 5, 2018. The article includes views by Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, on integration of education system of Azerbaijan into European higher education system.

A link to full article:
*http://ru.echo.az/?p=67063*





# QAZAXISTANIN NAZARBAYEV UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# REPRESENTATIVES OF NAZARBAYEV UNIVERSITY VISITS KHAZAR UNIVERSITY

Fevralın 21-də Xəzər Universitetində Qazaxıstanın Nazarbayev Universitetinin nümayəndələri ilə görüş keçirildi.

Görüşdə Nazarbayev Universitetinin İctimai siyasət fakültəsinin dekanı Weng Tat Hui və marketinq meneceri Yulia Kaufman, Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, Elmi işlər üzrə prorektor İradə Xəlilova, Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Günay Fərzəliyeva iştirak edirdilər.

Görüş zamanı hər iki universitet arasında tələbə mübadiləsi, ikili dərəcə proqramlarının yaradılması, tədqiqat sahəsində əməkdaşlıq imkanları müzakirə edildi. Gələcək əməkdaşlığın əsasını qoymaq və ortaq maraq doğuran sahələrdə birgə işlər görmək üçün anlaşma memorandumunun imzalanması razılaşdırıldı.

Görüşün sonunda hər iki universitetin təbliğat materialları təqdim olundu.

On February 21, the representatives of Nazarbayev University (Kazakhstan) visited Khazar University.

The guests from Kazakhstan included Weng Tat Hui, Dean of Graduate School of Public Policy, and Yulia Kaufman, Marketing Manager. The participants from Khazar University were Dr. Hassan Niknafs, Rector, Prof. Mahammad Nuriyev, Vice-rector for Academic Affairs, Assoc. Prof. Irada Khalilova, Vice-rector for Research, and Gunay Farzaliyeva, Coordinator of International Affairs Office.

The collaboration opportunities on student exchange, establishment of double-degree programs and research were discussed during the meeting. It was agreed to sign a memorandum of understanding to establish future co-operation and joint work in the areas of common interest.

At the end of the meeting, promotional materials of both universities were exchanged.

## XƏZƏR UNİVERSİTETİ İNKİŞAF MƏRKƏZİNİN DİREKTORU DANDİ UNİVERSİTETİNDƏ

## HEAD OF DEVELOPMENT CENTER VISITS UNIVERSITY OF DUNDEE

Fevralın 20-də Xəzər Universiteti İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva Şotlandiya Keyfiyyətin Təminatı Tələbə Tərəfdaşlığının (SPARQS) Şotlandiyanın Dandi Universitetində təşkil etdiyi Akademik Nümayəndəliklər Koordinatorlarının görüşündə iştirak etmişdir. O, ERASMUS+ tərəfindən dəstəklənən beynəlxalq kredit mobilliyi proqramında iştirakının nəticəsi olaraq, Britaniyanın Middlesex Universitetində son 5 ayda apardığı araşdırmaların nəticələri haqqında məlumat vermişdir. Təqdimat ali təhsildə olan nöqsanları əhatə edirdi və universitet idarəçiliyini yaxşılaşdırmaq imkanları haqqında idi. O, həmçinin, təqdidatın planı və metodologiyası, məqsədi və ideyası ilə əlaqədar sualları cavablandırmışdır.

SPARQS Şotlandiya universitetlərində tələbələrin özləri üçün keyfiyyətli təhsil təcrübəsi əldə edə biləcəyi və həmçinin, başqalarına eyni şeyə nail olmaqda köməklik göstərə biləcəyi mühiti təbliğ edən bir xeyriyyə təşkilatıdır. SPARQS təlimlər, seminarlar, görüşlərin təşkili və SPARQS tərəfindən hazırlanan resurslara çıxışı təmin etməklə tələbələr, institutlar və ümumilikdə, təhsil sektorunu dəstəkləyir.

On February 20, 2018, Raziya Isayeva, Head of Development Centre of Khazar University, visited University of Dundee, Scotland, to participate in the Academic Representation Coordinators' meeting, organized by Student Partnerships in Quality Scotland (SPARQS). She presented her research conducted and findings gained at Middlesex University, UK, for the last 5 months, as a result of her participation in the international credit mobility program supported by ERASMUS+.


The presentation covered the shortcomings in Higher Education and was about how the student engagement could improve the university management in Azerbaijan. She also presented the purpose, main idea, plan, methodology of her research and rationale behind it.

SPARQS is a charitable organization which promotes the environment within universities of Scotland, where students can achieve high quality educational experience as well as help others experience the same practice. SPARQS supports students, institutions and the education sector through trainings, workshops, meetings and providing access to the resources developed by SPARQS.

## MƏQALƏDƏ "XƏZƏR"İN MÜƏLLİMİNİN ŞEİRLƏRİNDƏN DƏ BƏHS EDİLİR

Azərbaycan Yazıçılar Birliyinin aylıq dərgisi olan "Ulduz" jurnalının 2018-ci il fevral sayında filoloq Əli Ağazadənin "Yoldan xəbər" adlı məqaləsi dərc edilmişdir.

Məqalədə irfani-fəlsəfi duyğuları ilə insanı mənəvi kamilliyə çağıran Füzuli, Yunus Əmrə yaradıcılığından qısa şəkildə bəhs olunur. Yazıda, həmçinin, Xəzər Universiteti Təhsil fakültəsinin Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının şeirlərinə də müraciət edilmişdir.




## THE ARTICLE ALSO DEALS WITH POEMS OF A LECTURER OF KHAZAR UNIVERSITY

An article "news from road" by philologist ali aghazadeh was published in "ulduz" journal, a number for february, 2018, a monthly journal of azerbaijan union of writers.

The article shortly deals with fuzuli's and y.amra's poetry which, with its enlightening and philosophical feelings, invite people to moral perfection. The author also mentions poems by gardashkhan azizkhanli, a lecturer of the department of the azerbaijan language and literature, the school of education, khazar university.

# "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



## GƏNCLƏR GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİR

2 fevral Gənclər günü münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda tədbir keçirilib.

Tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açıb. Akademik çıxışında bildirib ki, Gənclər gününün qeyd olunması ilə bağlı təşəbbüs Azərbaycan xalqının görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevə məxsusdur. O, həmçinin Ulu öndərin uğurlu siyasətinin davamı olaraq ölkə başçısı, cənab prezident İlham Əliyev tərəfindən gəncliyə böyük diqqət və qayğı göstərildiyini bildirib. Akademik, eyni zamanda, AMEA-da aparılan gənclər siyasətindən bəhs edib. Bildirib ki, AMEA-da Gənc Alim və Mütəxəssislər Şurası bu istiqamətdə uğurla çalışır. Eyni zamanda, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Ədəbiyyat məcmuəsi"nin xüsusi gənclər sayının çap olunmasını, hər il keçirilən "Ədəbi proses" müşavirələrində gənclərə böyük önəm verilməsini, göstəricilərinə görə "İlin gənc alimi" mükafatının təqdimatını gənclərə verilən dəstəyin nümunələrindən olduğunu qeyd edib.

Daha sonra İnstitutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent Eşqanə Babayeva institut gənclərinin ötən ildəki elmi fəaliyyəti barədə məruzə edib. AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri, texnika üzrə fəlsəfə doktoru, dosent Famin Salmanov ötən il Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun gənclərinin fəaliyyətini yüksək qiymətləndirib.

Azərbaycan Yazıçılar Birliyinin Gənclər üzrə katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxışında müstəqillik dövründə Azərbaycan gəncliyinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərildiyini bildirib.

Sonra "İlin gənc alimi" adının qaliblərinə akademik İsa Həbibbəyli tərəfindən diplom və mükafatlar təqdim olunub. Xatırladaq ki, İnstitutun Elmi Şurasının "İlin gənc alimi" mükafatının verilməsi ilə bağlı ötən il qəbul etdiyi nizamnaməyə görə mükafat institutdan müvafiq göstəricilərə cavab verən bir və ya bir neçə gəncə, eləcə də ölkədən ilin nəticələrinə görə fərqlənən bir gəncə təqdim edilir. Göstəricilərinə uyğun olaraq institutdan filologiya üzrə fəlsəfə doktoru Nərmin Cahangirova, ölkə üzrə filologiya üzrə fəlsəfə doktoru Pərvin Nurəliyeva "İlin gənc alimi" adına layiq görülüblər.



# TÜRKİYƏNİN TÜRK ƏDƏBİYYATI VƏQFİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ



Türkiyənin Türk Ədəbiyyatı Vəqfinin geniş tərkibli nümayəndə heyəti AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun qonağı olub.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Azərbaycan-Türkiyə münasibətlərinin daim yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" – deyərək iki ölkə arasında dostluğun, qardaşlığın formulunu müəyyənləşdirdiyini xüsusi qeyd edən akademik İsa Həbibbəyli Türkiyənin görkəmli ədəbiyyatşünası Əhməd Kabaklının tədqiqatlarından ətraflı bəhs edib. Qeyd edib ki, Əhməd Kabaklının 5 cildlik Türkiyə ədəbiyyatı tarixi kitabı Türkiyədə ədəbiyyat tarixçiliyinin mükəmməl nümunəsidir: "Əhməd Kabaklı həm ədəbiyyat tarixçiliyi, həm də nəzəriyyə istiqamətində Türkiyədə təməl yaratmış alimdir".

Akademik İsa Həbibbəyli Türkiyə Ədəbiyyatı Vəqfi ilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə elmi əməkdaşlığı barədə də danışıb. Türkiyədə Azərbaycan ədəbiyyatının, eləcə də Azərbaycanda Türkiyə ədəbiyyatının yığcam tanıtma kitabının çapının zəruri olduğunu diqqətə çatdıran akademik İsa Həbibbəyli eyni zamanda ortaq konfransların keçirilməsi, jurnalların nəşri barədə də təkliflərini bildirib.

Türkiyə Ədəbiyyat Vəqfinin rəhbəri Serhat Kabaklı çıxış edərək, vəqf tərəfindən Türk dünyası ədəbiyyatı nümunələrinin çapına başlandığını və bu seriyadan artıq bir neçə kitabın nəşr olunaraq oxuculara çatdırıldığını bildirib.

Daha sonra çıxış edən professor Ramazan Qorxmaz, İmdat Avşar, vəqfin idarə müdiri Əhməd Ünlü, vəqfin İdarə heyətinin üzvü Erol Ürgen, Şener Buhud Azərbaycan-Türkiyə elmi-ədəbi əməkdaşlığının xüsusiyyətlərindən danışıblar.

Qeyd edək ki, iki qardaş xalq arasında elmi-ədəbi əməkdaşlığın inkişafında çoxşaxəli fəaliyyətinə görə akademik İsa Həbibbəyli Türk Ədəbiyyatı Vəqfinin "Təşəkkürnamə"si ilə təltif edilib. Təşəkkürnamə Vəqfin rəhbəri Serhat Kabaklı tərəfindən akademik İsa Həbibbəyliyə təqdim olunub.



# "HUAWEİ" ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# "HUAWEI" COMPANY REPRESENTATIVES VISIT KHAZAR UNIVERSITY

Fevralın 22-də Xəzər Universiteti Karyera mərkəzinin təşəbbüsü ilə "Huawei" şirkətinin nümayəndələri ilə görüş keçirildi. Şirkətin Şəbəkə texnologiyası departamentinin direktoru Eldəniz Hüseynov öz çıxışında şirkətin qısa tarixi, daxili strukturu, missiyası və hazırkı mövqeyi ilə bağlı ətraflı məlumat verdi.

Şirkətin İnsan Resursları meneceri İradə Rəsulova öz çıxışında tələbələri təcrübə və işə qəbul prosesi ilə bağlı məlumatlandırdı.

Yekunda tələbələrin sualları cavablandırıldı və mövcud vakansiyalarla bağlı ümumi formada məlumat verildi.

Qeyd edək ki, "Huawei" məhsulları və xidmətləri 170-dən artıq ölkədə istifadə olunaraq, dünya əhalisinin üçdə birinə xidmət edir. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində 20 ildən çox zəngin biznes təcrübəsinə malik olan və geniş qlobal biznes əməliyyatları və partnyorları olan iri qlobal şəbəkə olan "Huawei" Consumer BG ən son texnologiyaları istehlakçılara çatdırmaq, geniş imkanlar təklif etmək, unikal təcrübələr yaratmaq və hər yerdə insanların arzularını reallaşdırmaq missiyasını daşıyır.

On initiatives of Career Center of Khazar University, a meeting was held with "Huawei" company on February 22. Eldaniz Huseynov, Director of Network Technologies of the company, gave information on history, internal structure, mission and current situation of the company.

Then Irada Rasulova, HR manager of the company, informed students about employment and internship programs within the company.

Company representatives answered students' questions and gave basic information on current vacancies at the company.

Till the end of 2014 the products and services of "Huawei" company were used by one third of world population in more than 170 countries. The mission of "Huawei" Consumer BG is to offer cutting-edge technologies and a wide range of services to consumers, create unique experience and realize desires of its customers everywhere. "Huawei" company has more than 20 years of experience in ICT (Information and Communications Technologes), wide global business operations, partners and network worldwide.





## UNİVERSİTETİN ƏMƏKDAŞLARI LƏNKƏRAN RAYONUNDA OLDULAR

Fevralın 9-da və 10-da Xəzər Universitetinin Potensial tələbələr üzrə işçi qrupunun koordinatoru Fuat Rəsulov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Layihə meneceri Ülkər Bayramova Lənkəran rayonunda səfərdə oldular.

Səfər zamanı Boladı kənd 1 və 2 saylı orta məktəblərin, Liman şəhər 1 saylı orta məktəbin və Cənub Hazırlıq Kurslarının şagirdləri və müəllimləri ilə görüşlər keçirildi, Xəzər Universiteti və burada kadr hazırlığı aparılan ixtisaslar haqqında geniş məlumat verildi, videoçarx nümayiş etdirildi və iştirakçıların sualları cavablandırıldı.

Lənkəran şəhərində və ətraf rayonlarda təhsil alan yuxarı sinif şagirdləri, onların valideynləri və müəllimləri ilə də universitet rəhbərliyinin görüşlərinin təşkil edilməsi qərara alınmışdır.

## STAFF MEMBERS OF THE UNIVERSITY VISIT LANKARAN

Fuat Rasulov, Coordinator of working group with potential students of Khazar University, Alovsat Amirbayli, Director of Public Relations and Media, and Ulkar Bayramova, Project Manager, visited Lankaran region on February 9-10.

Staff members held meetings with students, and their parents of Boladi village school № 1 and school № 2, Liman city school № 1, and Janub Preparation Course. Staff members provided meeting participants with information about Khazar University and specialities offered by university, demonstrated promotional video, and answered questions of participants.


It was decided that university administration should meet students, students' parents and teachers of Lankaran city and nearby regions.

## "XƏZƏR"İN MÜƏLLİMİNİN TƏRCÜMƏSİ "AZƏRBAYCAN" JURNALINDA

Azərbaycan Yazıçılar Birliyinin aylıq ədəbi-bədii orqanı olan "Azərbaycan" jurnalının 2018-ci il fevral sayında Xəzər Universiteti Təhsil fakültəsi Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının çevirməsində Türkiyənin tanınmış yazarı Zeynalabidin Makasın "Murad gözündə qalanlar" adlı əsərindən bir parça dərc edilmişdir. Qarabağla bağlı əsərdə Xocalı faciəsindən doğan ağrı-acılar da yer almışdır.

## TRANSLATED WORK OF LITERATURE IN "AZERBAIJAN" JOURNAL

An extract from "Those with desperate wishes" by Zeynalabidin Makas, a popular Turkish writer, has been translated by Gardashkhan Azizkhanli, instructor of the Department of Azerbaijani Language and Literature, School of Education of Khazar University, and published in "Azerbaijan" journal, February issue, 2018. The work of literature, which also expresses sorrow for Khojali tragedy, is written about Garabagh.





# GƏNC BİZNESMEN: "İNDİ İSƏ BÜTÜN BÖYÜK ADAMLAR KİMİ VƏRDİŞLƏRİMİN QULUYAM!"

**2018-ci il fevralın 19-da *banco.az* saytının məzunumuz Barat Əlizadədən aldığı müsahibəni təqdim edirik**

***Barat Əlizadə 1994-cü ildə aprel ayının 12-də Astara rayonunda anadan olmuşdur. İlk təhsilini Astara rayonu 2 nömrəli rus məktəbində almışdır. Sonradan Lənkəran Özəl Türk Liseyinə daxil olub, 5 illik təhsilin sonunda liseydən məzun olmuşdur. Xəzər Universitetini filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə bitirmişdir. Əvvəllər "BamBella" adlı İran Malları və Quru Meyvə Topdansatışı şirkətində çalışan Barat Əlizadə hal-hazırda fəaliyyətini özünün təsisçisi və baş direktoru olduğu "Interforce Tourism Company" adlı şirkətində davam etdirir.***

**- Barat bəy, iş həyatında motivasiyanın önəmi nə qədərdir?**

- Motivasiya həddən çox önəmlidir. Belə izah edim, bir çox insanın həyatdan heç bir gözləntisi yoxdur. Çünki, onu yaşamağa vadar edən bir şey də yoxdur. Məqsədi yoxdur, arzuları yoxdur, istəkləri yoxdur. Bəlkə yanında insanlar var, amma, əlaqə qurmağı sevmir. Heç kimə inanmır, güvənmir, başqaları haqqında danışır, qısqanır, paxıllıq edir və s. Bunlar hamısı məqsədin yoxluğundan irəli gəlir.

Ancaq elə insanlar da var ki, onlar özlərini müxtəlif yollarla motivasiya edə bilirlər. Nə istədiyini aydın bilir və buna uyğun davranırlar. Onlar tümidsizliyə düçar olan kimi, hər hansı yollarla, bunu aradan qaldırırlar. Buna görə də, heç vaxt ruhdan düşmürlər.

Şəxsən mən, həyatdan zövq alıram. Çalışmaqdan, arzulamaqdan, xəyal qurmaqdan, başqaları yatarkən ayıq qalmaqdan zövq alıram. Gündə 16 saat işləmək mənə həddən çox zövq verir. Çünki, işimi də, həyatımı da sevirəm. Mən çalışdıqca, özümü daha xoşbəxt hiss edirəm.

**-Siz özünüzü necə motivasiya edirsiniz?**

- Mən artıq öz ruhumu da , bədənimi də, beynimi də, fıreyimi də idarə etməyi bacarıram. Ən çox fıreyimlə problem yaşayıram. O da normaldı (*gülür*).

Ümumiyyətlə, mən planlarla yaşayan insanam. Ömrümün son 3 ilini - yaxşı mənada dəyişildiyim və həyatımın əsas məqsədini kəşf etdiyimdən bəri - yazaraq və planlı bir şəkildə yaşayıram. Ümidsizliyə düçar olduqda kitablarım, planlarım, məqsədlərim köməyə gəlir. Özümə yaxşı vərdişlər aşılayıram. Ən əsası da odur ki, tez-tez təkrar edilən hərəkətlər vərdişə keçir, mən isə onun quluna çevriliram. Uşaqlıqda mən öz ehtiraslarımın qulu idim, indi isə bütün böyük adamlar kimi vərdişlərimin quluyam!

Bu vərdişlərin arasında hər səhər 6-da oyanmaq, gün ərzində fasilələrlə 4 dildə (rusca, ingiliscə, azərbaycanca, türkcə) kitablar oxumaq, meditasiyalar etmək var. Hər yeni bir günüm, əgər dünənimdən yaxşı deyilsə, o zaman özümü pis hiss edirəm. Məsələn, əgər gündəliyimdə yazılan gündəlik kiçik məqsədlərə əməl etməsəm, günüm çox pis keçir. Çünki, beynimi günlük məqsədlərimin üstündən xətt çəkməyə proqramlaşdırmışam. Əgər xətt çəkirəmsə, deməli, hər gün daha güclü oluram.

Bundan əlavə də, həftəlik, aylıq, 1 illik və 35 illik plan-proqramlarım var. Hər bir insan kimi öləcəyimi düşünərək yaşasam da, ölməyəcəkmiş kimi işləyirəm!

**-Hansı kitabları oxuyursunuz?**

- Ən çox biznesə aid kitabları oxumağı xoşlayı-

ram. Amma şəxsi-inkişaf kitablarını da oxuyuram. Çünki xarakterimin güclənməyə başladığını oxuduğum şəxsi-inkişaf kitablarını tətbiq etməyə başladıqdan sonra görmüşəm. Brayan Treysi, Napoleon Hill, Robert Kiosaki, Oq Mandino, Bodo Şefer və s. insanların bestseller olan kitablarını oxuyuram. Özü də bir dəfə yox. Bu kitabları ən azı 4 dəfə oxuyuram. 5-ci dəfə oxuduqdan sonra isə həyatıma tətbiq edirəm. Bu kitablarda yazılanları həyatımda tətbiq etmədiyim müddətcə onların mənə heç bir faydası ola bilməz. Eləcə də, digərlərinə. Mənim həyatımda tətbiq etdiyim heç bir kitab da mənə faydasız ola bilməz.

**-Bəzi insanlar hər hansı bir işi görmək üçün özlərində motivasiya tapa bilmirlər. Onlara nə məsləhətlər edərdiniz?**

-İnsanlar, sadəcə olaraq, qorxurlar. İnsanı addım atmamağa sövq edən şey qorxudur. Pul itirməkdən, sevdiyini itirməkdən, qocalmaqdan qorxur insanlar. Bu qorxuların üstünə getmədikcə heç bir işə başlamağın bir faydası yoxdur.

İnsanlar özlərinə sual verməlidirlər: Mən bu dünyaya niyə gəlmişəm?!

Əgər, doğrudan da, bu dünyaya sadəcə vaxt keçirməyə gəldiklərini düşünürlərsə, boş-boşuna çalışmasınlar. Çünki onlar heç bir şeyə nail olmayacaqlar. Bu dünyaya nə məqsədlə gəldiyini bilən bir insan üçün isə uğur qazanmamaq ehtimalı yoxdur.

Mən onlara xəyal qurmağı məsləhət görərdim. Amma, balaca xəyallar deyil, əlçatmazlığını düşündürəcək dərəcədə böyük xəyallar. Hətta, onları qorxudacaq dərəcədə böyük.

O xəyallarını sadəcə boş bir A4 vərəqinə yazsınlar. Böyük hərflərlə yazılan o böyük məqsədi oxuduqda, özləri-özlərinə gülsələr, demək ki, doğru yoldadırlar. Əgər o xəyalı başqalarına göstərsələr və onlar da o xəyala gülsələr, demək ki, daha doğru yoldadırlar. Bu yoldan dönməsinlər!

Ondan sonrası, insanın o xəyala doğru necə çatacağını ətraflı bir şəkildə yazması ilə davam etməlidir. Düşünmək yox, sadəcə yazmaq. İstəmək və oxumaq yox, sadəcə yazmaq!

Yazmaq mənim kəşfim deyil. Əsrlərdən bəri uğurlu olan və ya olmaq istəyən hər bir insan bu yola baş vurub. Və yazmadan heç bir insan yüksəkliklərə çıxmağı arzulamasın. Bunu edən hər bir insan da uğur qazanmağa layiqdir. İş təkcə bununla da bitmir. Bu yazılan böyük məqsədi hər gün ən azı 30 dəqiqə göz önündə canlandırmalıdırlar. Və ona 5 duyğu orqanını da əlavə edərək, onu, doğrudan da, yaşayırmış kimi hiss etməlidirlər. Ancaq belə mümkün olacaq bir insanın arzuladığı o böyük xəyal.

Bundan sonrakı proseslərdə çətinlik çəkən və köməyə ehtiyacı olan bir insandan, sadəcə, bir mesaj qədər uzaqdayam. Məni çox rahat tapa bilərlər. Hər zaman dəstəyimi göstərə bilərəm. Əsas - bir insanın özündə o gücü hiss edə bilməsi və bir işə başlamasıdır ki, mənim də bunda kiçik bir payım olduğunu bilməkdən zövq alaram.

Qaldı ki, bunlar haqqında lap çox danışa bilərəm burada. Amma bu işlərə o qədər marağı olmayan digər insanları da bunu oxumaq məcburiyyətində qoymamaq üçün müsahibəmizi burda bitirsək, yaxşı olar (*gülür*).

Müsahibələrimə maraq göstərən hər kəsə - ailəmə, dostlarıma, müştərilərimə, məni tanıyan və ya tanımayan hər bir insana əvvəlcədən təşəkkürümü bildirirəm. Səbr edib müsahibəmi sonadək oxuyan insanlara buna görə təşəkkür edirəm.

Təşəkkür - çox gözəl bir şeydir. Etmək və ya almaq, fərq eləməz! İnşallah insanlara o qədər faydalı olaram ki, təşəkkür yağışına tutularam bir gün.

Məni tanımaq istəyən hər bir insanı da öz ofisimdə görməkdən və tanış olmaqdan məmnun olardım. Hər kəsi çox sevirəm!

Bir daha təşəkkür edirəm!

**Əlaqə üçün:** Barat Əlizadə şəxsi facebook səhifə profili:
*https://www.facebook.com/baratalizadehofficial/*
İnstagramda Barat:
*https://www.instagram.com/barat_alizade*

*http://banco.az/az/news/genc-biznesmen-indi-ise-butun-boyuk-adamlar-kimi-verdislerimin-quluyam*

## KHAZAR UNIVERSITY GRADUATE GIVES AN INTERVIEW TO A NEWS PORTAL

Banko.az news portal posted an interview with Barat Alizadeh, a graduate of Khazar University, the Faculty of Education, under headline "A young businessman: "Now, like all successful people, I am a slave of my habits!" on February 19, 2018.

A link for a full interview:
*http://banco.az/az/news/genc-biznesmen-indi-ise-butun-boyuk-adamlar-kimi-verdislerimin-quluyam*



# "TOKSİK ÇİRKLƏNDİRİCİLƏRİN ƏTRAF MÜHİTƏ TƏSİRİ" MÖVZUSUNDA ELMİ - PRAKTİK SEMİNAR

Fevralın 13-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşəbbüsü ilə universitetdə "Toksik çirkləndiricilərin ətraf mühitə təsiri" mövzusunda elmi-praktik seminar keçirildi.

Seminarda universitetin rəhbərliyi və departamentin əməkdaşları, "Xəzər"in və BDU-nun tələbələri, ABŞ-ın Blaksmit İnstitutunun nümayəndəsi Pyotr Şarov, Avropa İttifaqının monitorinq eksperti Eduardo Limbert, Kənd Təsərrüfatı Nazirliyindən pestisidlər üzrə ekspert Xoşqədəm Ələsgərova; Ekologiya və Təbii Sərvətlər Nazirliyindən Oqtay Cəfərov, Adil Zeynalov və baş mütəxəssis Zəki Həsənzadə; Səhiyyə Nazirliyindən həkim Səadət Abbaszadə; SOCAR-ın Ekologiya Mərkəzindən Süleyman Əzizov, Fərhad Davudov, Əbülfəs Allahverdiyev, Nazim Məmmədov, Eldar Zeynalov və Nizami İsmayılov; Bakı Ali Neft Məktəbinin baş müəllimi Sevda Zərgərova; Təmiz Şəhər ASC-dən QHT üzrə mühəndis Cahangir Məmmədzadə; Caspian Geomatiks şirkətindən geomatika mühəndisi Elvin Əliyev və ekologiya mühəndisi Sadıq Seyidzadə; Lənkəran Dövlət Universitetinin müəllimi Cavidan Əliyev; AMEA-nın Torpaqşünaslıq və Coğrafiya İnstitutunun nümayəndələri - aparıcı elmi işçi Rövşən Karimov, elmi işçilər Anar Abutalıbov, Elvin Əmrahov, Nicat İmamverdiyev və Emil Cəbrayılov; Fulbrayt təqaüdçüsü Robert Jeklin iştirak edirdilər.

Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru İradə Xəlilova, Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Pyotr Şarov, Eduardo Limbert, Xoşqədəm Ələsgərova, Oqtay Cəfərov, Adil Zeynalov Zəki Həsənzadə, Robert Jeklin çıxış edərək, mövzunun müxtəlif cəhətlərindən bəhs etdilər və seminar müzakirələrlə işini davam etdirdi.

Sonda Rövşən Abbasov seminarın işini lentə alan "Space" televiziyasına müsahibə verdi.





## A SCIENTIFIC - PRACTICAL SEMINAR ON "IMPACT OF TOXIC POLLUTANTS ON THE ENVIRONMENT"

A scientific-practical seminar on "Impact of toxic pollutants on the environment" was held on February 13, 2018, on the initiative of the Department of Geography and the Environment of Khazar University.

University administration and staff of the department; students of Khazar University and Baku State University; Pyotr Sharov, a representative of Blacksmith Institute, the USA; Eduardo Limbert, a monitoring expert of European Union; Khoshgadam Alasgarova, an expert on pesticide at the Ministry of Agriculture; Ogtay Jafarov, Adil Zeynalov and Zaki Hasanov - representatives of the Ministry of Ecology and Natural Resources; Seadet Abbaszadeh, a representative of the Ministry of Health; Suleyman Azizov, Farhad Davudov, Abulfas Allahverdiyev, Nazim Mammadov, Eldar Zeynalov and Nizami Ismayilov - representatives of the Centre for Ecology of SOCAR; Sevda Zeynalova, Head instructor of Baku Higher Oil School; Jahangir Mammadzade, an expert on NGO of "Tamiz Shahar" OJSC; Elvin Aliyev, a geomatics expert of Caspian Geomatics company; Sadig Seyidzade, an ecology expert of Caspian Geomatics; Javidan Aliyev, a lecturer of Lankaran State University; Rovshan Karimov, a leading researcher, researchers - Anar Abutalibov, Elvin Amrahov, Nijat Imamverdiyev and Emil Jabrayilov, representatives of the Institute of Soil Science and Geography of ANAS, and Robert Jekelin, a Fulbright fellow, participated in the seminar.

Irada Khalilova, vice-rector for research of Khazar University, Rovshan Abbasov, Head of the Department of Geography and the Environment, Pyotr Sharov, Eduardo Limbert, Khoshgadam Alasgarova, Ogtay Jafarov, Adil Zeynalov, Zaki Hasanzade and Robert Jekelin delivered speeches talking about various aspects of the topic.

At the end of the event, Rovshan Abbasov gave an interview to "Space" TV that made a TV reportage on the seminar.

















## İLESAM İLƏ ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM İMZALANDI

Fevralın 16-da Türkiyə Elm və Ədəbiyyat Əsərləri Sahiblərinin Peşə Birliyinin (İLESAM) Baş müdiri Mehmet Nuri Parmaksız və İLESAM-ın Azərbaycan üzrə nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin (AYB) Mətbuat katibi Xəyal Rza Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı başda olmaqla universitet rəhbərliyi ilə görüşdülər. Görüşdə rektor Hassan Niknafs, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı və Elmi işlər üzrə prorektor İradə Xəlilova iştirak edirdilər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu və əməkdaşlıq haqqında memorandum imzalandı.

## A MEMORANDUM OF COOPERATION IS SIGNED WITH ILESAM

Mehmet Nuri Parmaksiz, chief executive of Scientific and Literary Work Owners' Association of Turkey (ILESAM), and Khayal Rza, ILESAM representative in Azerbaijan and a spokesman of Azerbaijan Union of Writers, met Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and the university administration.

Dr. Hassan Niknafs, rector of the university, Prof. Mahammad Nuriyev, vice rector of Khazar University for Academic Affairs, Dr. Isakhan Isakhanli, vice rector for Administration and Student Affairs, and Assoc. Prof. Irada Khalilova, vice-rector for Research, participated at the meeting.

The issues of mutual interest were discussed and a memorandum of cooperation was signed at the meeting.





## XOCALI SOYQIRIMINA HƏSR EDİLMİŞ FİLM NÜMAYİŞ OLUNDU

Fevralın 16-da Xəzər Universitetinin Mərmər salonunda Türkiyə Elm və Ədəbiyyat Əsərləri Sahiblərinin Peşə Birliyinin (İLESAM) dəstəyi ilə hazırlanmış Elçin Arifoğlunun Xocalı soyqırımına həsr edilmiş "Kağız qəbir" filmi nümayiş olundu. Tədbirdə rektor Hassan Niknafs başda olmaqla universitetin rəhbərliyi, əməkdaşları, tələbələr və qonaqlar – İLESAM-ın Baş müdiri Mehmet Nuri Parmaksız və İLESAM-ın Azərbaycan üzrə nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin (AYB) Mətbuat katibi Xəyal Rza iştirak edirdilər.

Filmin nümayişindən əvvəl universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı çıxış edərək, Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Azərbaycanda və xarici ölkələrdə tədbirlərin keçirildiyi haqqında danışdı, Türkiyənin müxtəlif qurumları və ziyalılarının bu sahədəki işini xüsusi qeyd etdi və nümayiş olunacaq filmin də buna bariz nümunə olduğunu söylədi.

İLESAM-ın Baş müdiri Mehmet Nuri Parmaksız çıxışında Xocalı faciəsi qurbanlarının xatirəsinin Türkiyədə də daim yad edildiyindən və filmin məziyyətlərindən bəhs etdi.

Sonra film nümayiş olundu və tamaşaçılarda dərin təəssürat yaratdı.

## DEMONSTRATION OF A FILM DEDICATED TO KHOJALY MASSACRE

A film "A Paper Grave", directed by Elchin Arifoghlu, with the support of Scientific and Literary Work Owners' Association of Turkey (İLESAM), dedicated to the Khojaly Massacre, was demonstrated in Marble hall of Khazar University on February 16. Dr. Hassan Niknafs, rector of the university, as well as the university administration, staff members, students and guests - Mehmet Nuri Parmaksiz, chief executive of ILESAM, and Khayal Rza, ILESAM representative in Azerbaijan and a spokesman of Azerbaijan Union of Writers, participated at the ceremony.

Before demonstration, Isakhan Isakhanli, vice rector for Administration and Student Affairs, delivered a speech and mentioned that ceremonies dedicated to the 26th anniversary of the Khojaly Massacre are organized in Azerbaijan and abroad, highlighted the work of the various organizations and intellectuals of Turkey and said that the film to be demonstrated is an obvious example.

In his speech, Mehmet Nuri Parmaksiz, chief executive of ILESAM, mentioned that the victims of the Khojaly Massacre are always remembered in Turkey, and appreciated the merits of the film.

Afterwards, the film was demonstrated which made a deep impression on audience.







# CAMAL MÜƏLLİMİ XATIRLAYARKƏN...

İllər ötüb keçir, hər şey dəyişir, bəzi adamlar yadda qalır, bəziləri tamamilə yaddan çıxır, sanki onlar heç bu dünyada yox imişlər; ancaq bəzi insanlar bir şəxsiyyət kimi xatirələrdə qalır, onların yoxluğu hiss olunur, onları yada salanda dodaqlarda xəfif bir təbəssüm, gözlərdə bir intizar, könüllərdə "kaş o bizimlə olaydı" arzusu yaranır.

Camal müəllim belə insanlardan idi. Hər bir əsərində, hər bir söhbətində dərin məna, gözəllik, ləyaqət axtarırdı bizim Camal müəllim.

Xarici Dillər İnstitutunda oxuyanda bizə fəlsəfədən dərs deyərdi. Onun mühazirələrində biz tələbələrlə yanaşı, başqa tədris müəssisələrindən gələn aspirantlar, doktorantlar saatlarla ayaq üstə qalaraq onu dinləyirdilər. Fəlsəfi düşüncələrlə yanaşı, insanın mənəvi ucalığından, nəciblikdən, xalqımızın müstəqilliyindən, azadlıqdan yorulmadan danışırdı.

Xəzər Universitetində məni görəndə çox sevindi, tərcümə mərkəzinə dəvət etdi. Knyaz Aslan, Vahid Ömərli, məni, bir-iki aspirant tələbə yığışıb fəlsəfədən tutmuş tərcüməyə, ədəbiyyata aid mövzulardan söhbət edərdik. Ən sonda gülümsəyib deyərdi: "Bax, bu elə özü bir kiçik seminar oldu".

Bir gün Camal müəllim mənə dedi: "Məmməd Araz xəstədir, ona deyməyə gedəcəyik tələbələrlə. Həmişə şikayət edir ki, o boyda mərkəzin müdirisən, hələ də bir şeirimin ingilis dilində tərcüməsi yoxdur. Onun, heç olmasa, bir şeirini tərcümə et, aparaq hədiyyə olaraq verək. Mən cavab verdim: "Camal müəllim, əlbəttə, mümkündür. Hansı şeirini tərcümə edim?" Camal müəllim bir az düşündü və dedi:

- "Dünya mənim, dünya sənin, dünya heç kimin".

Lap ürəyim düşdü, həyəcanlandım:

- Camal müəllim, çox çətin, fəlsəfi bir şeirdir.

- Elə mən də fəlsəfi, insanı düşündürən əsərin tərcüməsini isterdim.

Fikir içində tərcüməyə başladım. Görəsən almacaqmı? Xeyli vaxt apardı bu tərcümə, dostlarımla məsləhətləşdim və nəhayət, şeirin tərcümə variantını Camal müəllimə təqdim etdim. Çox məmnun oldu, gülümsəyərək: "Bax, bu əla oldu, elə deyirdin çətindir, zəhmət çəkmək lazımdır, indi təcili bunu apar "Xəzər Xəbər" redaksiyasına, qoy jurnalın bu nömrəsində çap etsinlər".

Bir müddət keçdi. Camal müəllim məni tərcümə mərkəzinə çağırdı. Əlində "Xəzər Xəbər"in yeni dərc olunmuş nömrəsi var idi:

- Təbrik edirəm. Tərcümə dərc olunub. İndi bir neçə tələbə ilə gedək Məmməd Arazа deyək, sən də özün bu tərcüməni ona oxuyarsan.

Yenə də çox həyəcanlandım:

- Camal müəllim, mən Məmməd Arazın Xarici Dillər İnstitutunda tələbələrlə görüşündə iştirak etmişəm. "Qalx ayağa, Azərbaycan!" deyəndə, bütün zal ayağa qalxdı, o da bizləri öz gur nitqi ilə qələbəyə, zəfərlərə səsləyirdi. Mən onu vətənpərvər, alovlu bir şair kimi tanıyıram. Məmməd Arazı yatəqdə, xəstə görmək mənə çox pis təsir edər. Bağışlayın, mən gedə bilməyəcəyəm.

Camal müəllim ayağa qalxdı, diqqətlə mənə baxaraq dedi:

- Olsun! Mən səni başa düşdüm.

Sanki çiyinlərimdən yük götürüldü.

Ertəsi gün yenə Camal müəllimlə görüşdüm.

- Getdik, şairlə görüşdük, tərcüməni elinə aldı, öpdü və səni soruşdu, sənin fikrini ona çatdırdım, o söz verdi ki, sağalanda sənlə görüşəcək; şəxsən mən özüm o görüşdə iştirak edəcəyəm və sənin yeni tərcümələrinə birlikdə qulaq asacağıq.

Bax belə, əziz dostlar, Camal müəllim haqqında sonsuz danışmaq, yazmaq olar. O, insanları sevən görkəmli bir şəxsiyyət, bu günümüzü, xalqımızın keçmişini və gələcəyini düşünən, müasir dövrün hadisələrini izləyən, mənalı bir ömür yolu keçən alim idi.

*...Bu ömür-gün naxışına həvədi dünya,*
*Əbədiyə qəh-qəh çəkər əbədi dünya,*
*Dünya sənin, dünya mənim, dünya heç kimin...*

**Firəngiz Nəsirova,**
*İngilis dili və ədəbiyyatı*
*departamentinin baş müəllimi*




# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ ELMİ KONFRANSDA

# A LECTURER OF THE DEPARTMENT OF HISTORY AND ARCHEOLOGY PARTICIPATES IN A SCIENTIFIC CONFERENCE

Fevralın 20-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) İctimai Elmlər Bölməsinin və Elm Tarixi İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti: tarixi retrospektivlik və müasirlik" mövzusunda elmi konfrans keçirildi. Konfransda Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Ziyad Əmrahov "Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər millətlərə münasibət" mövzusunda məruzə ilə çıxış etdi.

Konfransın plenar iclasında çıxış edən natiq Cənubi Qafqazdakı coğrafi mövqeyi və tarixi inkişaf xüsusiyyətlərinə görə Azərbaycanın ən qədim zamanlardan müxtəlif xalqların birgəyaşayışı üçün əlverişli ölkə olduğunu, hətta Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlaliyyət Bəyannaməsində insan hüquq və azadlıqlarına hörmətlə yanaşılmasını, ölkə ərazisində bütün millətlərə sərbəst şəkildə geniş bir meydan verildiyini, dövlət quruculuğu və xarici siyasət məsələlərində, parlamentin və hökumətin formalaşdırılmasında digər millətlərin nümayəndələrinin də unudulmadığını konfrans iştirakçılarının diqqətinə çatdırdı.

Division of Social Sciences, Azerbaijan National Academy of Sciences (ANAS), and Institute of History of Science jointly organised a scientific conference on "Azerbaijan Democratic Republic: Historical retrospective and modernity" on February 20, 2018. At the conference, Ziyad Amrahov, PhD in History, a lecturer of the Department of History and Archeology of Khazar University, delivered a report on "An attitude towards other nations in the Azerbaijan Democratic Republic".

Delivering a report at a plenary session, Ziyad Amrahov mentioned that with its suitable geographical and historical characteristics in the South Caucasus, Azerbaijan had been a favourable country since ancient times for various nations to live in a peaceful coexistence. Moreover, the speaker stressed that the Declaration of Independence of Azerbaijan Democratic Republic respected human rights and freedom and guaranteed various peoples freedom within Azerbaijan. The speaker also underlined that Azerbaijan Democratic Republic involved other peoples in formation of government and foreign policy.



# "BİRCƏ XAŞI YEYƏ BİLMİRƏM" - AMERİKALI OLDUĞUNA İNANMAYACAQSIZ

*2018-ci il fevralın 6-da Qafqazinfo.az xəbər portalında Xəzər Universitetinin keçmiş əməkdaşı Marta Lauri ilə dərc olunmuş müsahibəni oxucularımıza təqdim edirik.*

"Azərbaycanda hər şeyə öyrəşmişəm, ancaq bircə bu yol gedəndə insanlarla toqquşmamaq üçün əldən-ayaqdan düşürəm, o yan-bu yana əyilirəm, yenə də alınmır. Biz Amerikada öyrəşmişik ki, piyadalar yolun sağ tərəfi ilə getməlidir. Ancaq burada belə deyil, kim necə istəsə, elə də gedir. Mən də çaş-baş qalıram".

Gülərüz müsahibim Marta yarızarafat, yarıciddi bu sözləri deyib, tərəvəz dükanına yaxınlaşır və yenə mənə tərəf dönüb sözünü davam etdirir: "Ancaq sizin meyvələrin dadı əntiqədir, qiyməti də çox ucuz".

Bir kilo Quba alması, bir kilo da Astara mandarini alıb, söhbətləşmək üçün kafeyə daxil oluruq. Bir müddətdir ki, "Visions of Azerbaijan" jurnalı ilə əməkdaşlıq edən həmkarım 8 il öncə Amerika Birləşmiş Ştatlarından Bakıya gəlib. Azərbaycan dilində özünü səlis ifadə etməsi, bu yaxınlarda Qazaxda iş yoldaşının toyunda saz çalıb mahnı oxumağı sosial şəbəkələrdə böyük marağa səbəb olub.

Odur ki, biz də "Qafqazinfo" olaraq Marta Laurini oxuculara daha yaxından tanıtmaq istədik. Martanın yolunun Azərbaycana necə düşməsini elə öz dilindən eşidək:

**- Bu suala qısa cavab versəm, deyərəm ki, Allah mənim ürəyimə Azərbaycana qarşı bir sevgi qoyub. Mən Allahı, Allah da Azərbaycanı çox sevir. Bunu hiss edə bilirəm. Uzun cavabım isə belə olar ki, mən bakalavr təhsilimi Rusiyada almışam. Dilçilik Universitetində oxuyan zaman Qafqaz millətləri ilə tanış olmağa başladım. Onların "lezginka" oynaması, köhnə ənənələrə bağlılığı mənə çox maraqlı gəldi. Demək olar ki, Qafqaza vuruldum. Bir müddət Amerikaya qayıtdıqdan sonra başladım araşdırmağa. Qafqazda harada yaşaya bilərəm? Bu vaxt magistr təhsilim üçün Azərbaycana gəlmək fürsətim oldu. Və beləliklə mən Xəzər Universitetində təhsilimi davam etdirmək üçün Azərbaycana gəldim.**

**- Hazırda dilimizdə çox səlis danışırsız. Əvvəlcədən bilirdiz, ya sonradan öyrənmisiz?**

- Türk dilini bir az oxumuşdum, rus dilini bilirdim. Ancaq Azərbaycan dilində 10-15 sözdən çox nəsə bilmirdim. Çox gözəl bir ailə ilə qalmağa başladım. Əvvəllər nə onlar mənim dilimi bilirdi, nə mən onların. Jestlərlə, əl hərəkətləri ilə fikrimizi ifadə etməyə çalışırdıq. İki həftə özümü körpə uşaq kimi hiss etdim. Azərbaycan dilini çox tez öyrəndim.

**- Adətən hər ölkəyə getməzdən əvvəl o ölkənin adət-ənənələri, insanları haqqında maraqlanırlar. Yəqin siz də maraqlanmısınız, nələr dedilər?**

- Düzünü desəm, elə də çox məlumatlı deyildim. Vikipediyada oxumuşam. Gördüm ki, müsəlman ölkəsidir. Amerikada olanda Məhsəti türklərindən olan bir ailə ilə dostlaşmışdım. Onlar mənə öyrətdi ki, necə otırmaq, necə davranmaq lazımdır. Dedilər ki, bir az təvazökar olmalısan. Bir şey etməzdən qabaq icazə almaq lazımdır, özbaşına davranmaq olmaz. Evə girəndə ayaqqabını çıxarmaq lazımdır. Bunları demişdilər.

**- Bəs, bu fikirlər ilk baxışdan sizə qəribə gəlmədi?**

- Yox, elə də qəribə gəlmədi. Mənə qəribə



gələn bir o oldu ki, burada hər şey bölüşdürülür. Kimin nəyi varsa, pay verir. Bu pay sözünün nə olduğunu çox gec başa düşmüşəm. Məsələn, evdəkilər mürəbbə bişirir, tez 5-6 banka qonşulara pay edirdilər ki, mürəbbənin qoxusu onlara gedib, gərək dadına baxsınlar. Bu, mənə çox maraqlı gəlib. Amerikada elə şey yoxdur.

**- İki ölkə arasında yemək mədəniyyəti də xeyli fərqlidir. Bizdə əksər hallarda yemək evdə bişir. Nadir halda ailələrin yemək üçün restorana getdiyini görərik. Yeməklərdə də xeyli fərqlər var. Ağız dadınıza uyğundur?**

- Əslində, mənim anam da evdar qadındır, ona görə elə də fərq görmədim. Yeməkləri ilk vaxtlardan çox sevmişəm. Dolmanı xoşlayıram, plov üçün ölürəm, qəşəng qutab, kətə bişirirlər. Dovğaya bir qədər gec öyrəşdim, mənə qəribə gəlirdi, ancaq indi sevərək yeyirəm. Bircə dənə xaş yeyə bilmirəm.

**- Hazırda ölkəmizdə Amerikaya getmək, orada yaşamaq xəyalı quran çox insan var. Bu baxımdan siz xəyallar ölkəsindən gəlib Azərbaycanda yaşayırsız. İki ölkədə uzun müddət yaşamış biri kimi deyə bilərsiz ki, hansı ölkədə yaşamaq daha əlverişlidir?**

- Mənə elə gəlir ki, gənclərin çoxu sırf azadlıq görmək üçün Amerikaya getmək istəyirlər. Fikirləşirlər ki, orada ürəkləri nə istəsə geyinə biləcəklər. Heç kim onlara baxmayacaq. İstədikləri kimi geyinə, gəzib dolaşa biləcəklər. Ancaq onlar sonrasını düşünmürlər, insan problemi olanda onu kiminsə itirib axtarmasını istəyir. İstəyirsən ki, kimsə sənə dəstək versin. Mən o dəstəyi Azərbaycanda gördüm. Kimin problemi olsa, hamı çalışır ki, bir köməklik etsin. Məsələn, götürək elə yas yerlərini. Amerikada yas bir gün olur, vəssalam. Hamı gedir işinə, elə bil heç nə olmayıb. Bu, psixoloji baxımdan çox çətindir. Ancaq burada üçü, yeddisi, qırxı var. Hamı yığışır, kömək edir. Bu cəhətdən daha çox Azərbaycanın mədəniyyətindən xoşum gəlir.

**- Ancaq bəzən insanlar bu qədər iç-içə olmaqdan da sıxılır. Fikirləşirlər ki, adamlar lazım olduğundan çox bir-birinin işinə qarışır.**

- Əslində bu, mənə qəşəng gəlir. Bir-birlərinin fikirlərini nəzərə aldıqları üçün təqribi eyni qaydada gedirlər. Mədəniyyət, adət-ənənələr də itib batmır, formalaşır. Burada daha çox ünsiyyətə fikir verilir. Amerikada qonşu bizə gəlmək istəsə, gərək qabaqcadan zəng vursun, vaxtımız olub-olmadığını soruşsun. Biz də deyirik ki, bu gün yox, sabah gəl.

**- Bu, yaxşı bir şey deyil?**

- Yox, yaxşı deyil. Mən ora gedəndə inciyirəm. Deyirəm ki, mən bir ildir ki, burada yoxam, zəng vururam görüşməyə, deyirsiz, gələn həftənin 4-cü günü gələrsən. Adam pis olur, axı. Burada hamı dəvət edir. Bilmirəm, bəlkə də səmimi deyillər. Amma bu, mənə dəyərli gəlir.

**- Artıq 8 ildir ki, buradasız. Bəs ailəniz üçün darıxmırsız?**

- Amerika mədəniyyətində bir şey də var ki, biz böyüdükdən sonra bir-birimizdən ayrı düşürük. Bacımın biri amerikalı ilə evlənib, Cənubi Koreyada yaşayır. Digər bacım da Avropanı gəzir. Ona görə də, bu, adi bir haldır. Tez-tez görüntülü danışırıq. Mən o gözləntiylə böyümüşəm ki, 18 yaşımdan sonra artıq öz başımın çarəsinə qalmalıyam.

**- Ancaq bizdə o 18 yaş limiti yoxdur. Sizcə, hər zaman ailə nəzarəti olmalıdır?**

- Amerika üçün o sistem yaxşıdır. Ancaq burada o yaxşı deyil. Bu mədəniyyət tamam fərqli olduğu üçün gərək böyüklərdən məsləhət alasan. Orada isə hər bir gənc analiz edir, müəyyən qərarlar verir. Qərarının nəticəsini isə özü çəkməlidir. Valideynlərdən hər hansı bir kömək gözləmir. Burada isə nəticəni hamı çəkir.

**- Çox insanda belə bir fikir formalaşıb ki, Amerikaya getsə, yaxın zamanda az qala varlı olacaq.**

- Bu mühiti görən biri fikirləşir ki, saata 10 dollar qazansa, bu, böyük məbləğdir. Ancaq düşünmür ki, o mühit üçün bu, çox kiçik rəqəmdir. Aylıq kirayə pulu buradan ən azı 3-4 dəfə bahadır, orada məcburi sığorta var və ya 100-200 dollar məcburi maşın sığortası. Orada marşrut sistemi belə deyil, gərək rahat hərəkət üçün maşınımız olsun. Qiymətləri dəqiq analiz etməmişəm, ancaq həqiqətən də hər şey çox bahadır.

**- Bəs burada aylıq xərclərinizi rahat çatdıra bilirsiz? Qiymətlər necədir, sizcə?**

- Burada yaşamaq üçün məvacibim məni qane edir. Mən Amerikadan çıxanda uşaq idim. Düzü, heç bilmirəm orada indi kommunal xərclər necədir.

**- Azərbaycan kişisi və Azərbaycan qadını. Bu iki anlayışı bizə necə izah edərdiz?**

- Azərbaycan kişisi güclü olur. Onlar ailə, iş sahibi, sözünün üstündə duran olurlar. Şərəf xətrinə hər şey etməyə hazırdırlar. Bir az qısqanc olurlar, bu da bir tərəfdən xoşuma gəlir, bir tərəfdən yox. Mənco, yaxşı şeydir.

Azərbaycan qadını hədsiz çox fədakardır. Onlar nələr edirlər, ilahi. Bütün günü nəsə edirlər. Ev yığışdırırlar, yemək bişirirlər, qışa tədarük görürlər. Adi bu şəkərburanı bişirmək necə çətin bir işdir. Ancaq onu da sevərək edirlər. Mən onlara "halal olsun!" deyirəm.

**- Sizcə, qadınlarımız bu fədakarlığının qarşılığını ala bilir?**

- Mənco, digər ölkələrlə müqayisədə burada qadınlar öz dəyərini daha yaxşı bilir.

**- Rahatlığı sevən qadınsız. Azərbaycanlı bir şəxslə evlənib yaşaya bilərdiz?**

- Həmişə deyirdim ki, mənə uyğun azərbaycanlı oğlan çıxsa, ərə gedərdim. Mənə uyğun nə deməkdir? İsa Məsihi, Allahı çox sevirəm, gərək o da sevsin, məni, ailəmi başa düşə bilsin, xasiyyətimiz üst-üstə düşsün. Burada olduğum 8 il müddətində belə bir adamla qarşılaşmadım. Axır ki, qabağıma bir amerikalı çıxdı. İndi nişanlanmışıq. Ötən həftə kanalların birində canlı verilişin qonağı idim. Nişanlım da verilişi Amerikadan izləyib. Görüb ki, efirdə oynayıram. Tez mənə yazdı ki, səninlə oynayan o oğlan kimdir? Verilişin aparıcısını nəzərdə tutmuşdu. Bizdə də qısqanclıqlar olur və bu, mənə xoş gəlir. Qədərincə olanda yaxşı olur.

**- Bakıda toy etmək istədiyinizi deyirdiz. Səbəbi maraqlı gəldi.**

- İkimiz də toyu Bakıda etmək istəyirik. Mənco, ona maraqlı gələr. Mənim üçün səbəb odur ki, 8 ildir buradayam və Bakı evim kimidir. Qaldığım ailə mənə daha doğmadır, nəinki evdəkilər. Onlar böyük bir nəsildir və hər birini çox sevirəm. Dostlarım, iş yerim buradadır. Mənco, toyu burada etməsəm ayıb olar.

**- Bəs evləndikdən sonra yenə Bakıda yaşamağa davam edəcəksiz?**

- Mənim üçün Bakıda yaşamaq xoş olar, ancaq ortaq qərar verməliyik. Gələcəyi özüm də maraqla gözləyirəm.

**Günel Hacı**
**Fotolar: Pərvin Zeynal**

*http://qafqazinfo.az/news/detail/birce-xasi-yeye-bilmirem-amerikali-olduguna-inanmayacaqsiz-210096*

## AN INTERVIEW WITH AN AMERICAN GRADUATE OF KHAZAR UNIVERSITY

Martha Lauri, a graduate and former staff member of Khazar University gave an interview to qafqazinfo.az news website on February 6, 2018.

Links for full interview:

*http://qafqazinfo.az/news/detail/birce-xasi-yeye-bilmirem-amerikali-olduguna-inanmayacaqsiz-210096*
*http://sonxeber.az/72641/birce-xasi-yeye-bilmirem-amerikali-olduguna-inanmayacaqsiz-video*




# XOCALI SOYQIRIMI YAD EDİLDİ

# KHOJALY GENOCIDE COMMEMORATED

Fevralın 26-da Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimləri, xüsusilə, "Azərbaycan tarixi" fənlərinin müəllimləri öz dərslərində Xocalı Soyqırımını yad edərək, tələbələrə bu faciə haqqında geniş məlumat verdilər.

Bununla yanaşı, fevralın 24-də Tarix və arxeologiya departamentinin müəllimi, tarix elmləri doktoru Telman Nüsrətoğlunun Türkiyənin ən böyük qəzetlərindən biri olan "Türkiye" qəzetində "Erməni proje dövləti və Hocalı Soykırımı" adlı məqaləsi çap olunmuşdur.

Fevralın 26-da isə Telman Nüsrətoğlu TRT kanalının canlı yayımında Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahimin də də iştirak etdiyi "Xocalı" özəl proqramında Qarabağ məsələsi tarixini anlatmışdır.

The instructors of Department of History and Archeology of Khazar University, especially the instructors of "Azerbaijan History" discipline, commemorated Khojaly Genocide on February 26, 2018, giving students detailed information on tragedy.

Moreover, an article "Project state Armenia and Khojaly Genocide" by Telman Nusratoghlu, PhD in History and instructor of Department of History and Archeology, was published in the newspaper of "Turkey", one on the prestigious newspapers of Turkey, on February 24.

Also, Telman Nusratoghlu joined special edition of "Khojaly" program on TRT channel, with participation of Ambassador of Azerbaijan to Ankara, and talked about Garabagh conflict.



## XOCALI FACİƏSİNİN 26-CI İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ RƏSM SƏRGİSİ KEÇİRİLİB

Fevralın 23-də Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Xocalı faciəsi qurbanlarına həsr olunmuş rəsm sərgisi təşkil olunub.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək, Xocalı faciəsinin ağır nəticələrinin Azərbaycan xalqının taleyində qoyduğu dərin izlərdən söz açıb, gəncləri daim vətənə xidmətə və sevgiyə səsləyib. Rektor bildirib ki, sərgi Xocalı faciəsinin, zaman-zaman azərbaycanlıların başına gətirilən faciələrin, soyqırımı faktlarının bədii təcəssümü, eyni zamanda, xalqımızın müstəqillik, ərazi bütövlüyünün qorunması yolunda göstərdiyi mübarizə əzminin nümayişi və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə keçirilir.

Sonra sərgiyə baxış olub. Burada ümumilikdə soyqırım hadisələrinin bütün gerçəkliklərini özündə əks etdirən 30-a yaxın rəsm əsəri nümayiş olunub.

## XOCALI FACİƏSİNƏ AİD İNTERNET - AKSİYA

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar internet - aksiya keçirilib.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu qanlı soyqırımın tarixinə nəzər salaraq, erməni vəhşiliyindən, Xocalıda soydaşlarımızın başına gətirilən müsibətlərdən danışıb. Vurğulanıb ki, bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz qəddarlığı ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırım, eyni zamanda, bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Universitet Tələbə Gənclər Təşkilatının sədri Zümrüd Səfərova internet - aksiyanın keçirilməsinin məqsəd və vəzifələri haqqında məlumat verib, tələbələri aksiyada fəal iştiraka dəvət edib.

Sonra aksiyaya start verilib. İki saat davam edən aksiyada yerli və xarici tələbələrin iştirakı ilə dünyanın 55 nüfuzlu ali məktəbinin elektron ünvanına ingilis, fransız, alman, rus və fars dillərində Xocalı həqiqətlərini əks etdirən məlumatlar göndərilib.

**Nərmin Cabbarova,**
*NDU-nun Mətbuat şöbəsinin əməkdaşı*



# NDU - DA NAXÇIVAN ŞƏHƏRİNİN GƏNCLƏR PAYTAXTI SEÇİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

Fevralın 27-də NDU-da Naxçıvan şəhərinin gənclər paytaxtı seçilməsinə həsr olunmuş tədbir keçirilib. Tədbir Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu il İslam mədəniyyətinin paytaxtı olan Naxçıvanın ölkəmizin "Gənclər paytaxtı" seçimi ilə bağlı səsvermədə qalib gəlməsini böyük uğur kimi qiymətləndirib, bunu muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının nəticəsi kimi dəyərləndirib.

Azərbaycanın uğurlu gənclər siyasəti mövzusunda çıxışında universitetin Tələbə Gənclər Təşkilatının sədri Zümrüd Səfərova bildirib ki, Naxçıvanda həyata keçirilən dövlət gənclər siyasəti, gənclər üçün yaradılan yüksək şərait, son illər naxçıvanlı gənclərin beynəlxalq arenalarda qazandıqları uğurlar, Azərbaycanı layiqincə təmsil etmələri sübut edirdi ki, Naxçıvan Gənclər Paytaxtı olmağa layiqdir.

Z. Səfərova 2018-ci il 31 yanvar tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə mədəniyyət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən 6 nəfər gənc arasında öz adının da olmasını ümumən muxtar respublika gəncliyinə verilən töhfə kimi dəyərləndirib.

Tədbir incəsənət fakültəsi tələbələrinin ifasında konsert proqramı ilə davam edib.

**Səadət Əliyeva,**
*NDU Mətbuat Şöbəsinin Müdiri*





# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ TƏQDİMATLAR

# RESEARCH PRESENTATIONS AT ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT

Fevralın 1 - də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentində filologiya üzrə fəlsəfə doktorluğuna namizədlər İlham Tağıyev və Milana Abbasova öz tədqiqat mövzuları üzrə ("İngilis yumorunun koqnitiv xüsusiyyətlərinin eksperimental tədqiqi"; "İngilis dilinin tədqiqinə sosiolinqvistik yanaşmada müasir tendensiyalar"; hər iki işin elmi rəhbəri - filologiya elmləri doktoru, professor Fexrəddin Veysəlli) təqdimatla çıxış etmişlər.

Təqdimatda Xəzər Universitetinin rektoru, Dr. Hasan Niknafs, Tədris işləri üzrə prorektor, professor Məhəmməd Nuriyev, Elmi işlər üzrə prorektor Dr. İradə Xəlilova, Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Dr. Eldar Şahgəldiyev və departamentin əməkdaşları iştirak edirdilər. Hər iki təqdimat iştirakçılar tərəfindən maraqla dinlənilmişdir. Axırda təqdimatçılar iştirakçıların çoxsaylı suallarına cavab vermişlər.

On February 1, Ilham Taghiyev and Milana Abbasova, PhD candidates of English Language and Literature Department of Khazar University, delivered research presentations on their research topics: "Experimental Research of Cognitive Properties of English Humor" and "Modern Tendencies in Sociolinguistic Approach to English Language Research", both supervised by Prof. Sc.D. Fakhreddin Veysalli, respectively. The presentation was attended by Dr. Hasan Niknafs, the Rector of Khazar University, Dr. Mahammad Nuriyev, Vice-rector on Education, Dr. Irada Khalilova, Vice-rector on Research, Dr. Eldar Shahgaldiyev, Head of the Division of Graduate Studies and Research, and the staff of English Language and Literature Department. Both presentations were listened to with great interest by the participants. After the presentations there was a question and answer session where the presenters answered the questions of the participants.





# ŞOTLANDİYA UNİVERSİTETLƏRİ VƏ SPARQS İLƏ TANIŞLIQ

# STUDY VISIT TO SCOTTISH UNIVERSITIES AND SPARQS



Xəzər Universiteti İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva tələbə cəlbi haqqında araşdırması ilə bağlı fevralın 20-dən 22-dək tanışlıq məqsədilə Şotlandiya universitetlərində və SPARQS təşkilatında oldu. O, Dandi Universitetində təşkil edilmiş nümayəndəliklərin görüşündə iştirak etdi və təqdimat keçirdi.

Fevralın 21-də R.İsayeva SPARQS (Şotlandiyada Keyfiyyətin Təminatı üzrə Tələbə Tərəfdaşlıqları) direktoru İv Lyuisla görüşmək və apardığı tədqiqatla əlaqədar söhbət etmək üçün təşkilatda oldu. Həmin gün o, Edinburq Universitetində tələbə birliyi nümayəndələri – Edinburq Universiteti Tələbə Birliyində Təmsilçilik və Demokratiya üzrə menecer Al Pauel və Təhsil və Məktəblər üzrə ofisin məsul şəxsi Meqan Braun ilə görüşdü. Onlar tələbə birliyi və funksiyaları haqqında danışdılar və tədqiqatın cavab axtardığı bir sıra sualları müzakirə etdilər.

Fevralın 22-də R. İsayeva Stirlinq Universitetində olub, tələbə birliyi nümayəndəlikləri - Demokratiya və Araşdırmalar üzrə koordinator Emi Eberlik, Tələbə Birliyi prezidenti Astrid Smollenbrok və Təhsil üzrə vitse-prezident Met Adi ilə görüşdü. Onlar tələbə cəlb edilməsi ilə bağlı bir çox sualları, bu işin həm tələbə, həm də universitet üçün müsbət nəticələrini, eləcə də, tədqiqatın mövzusundan irəli gələn digər məsələləri müzakirə etdilər.

Bütün görüşlər SPARQS-ın böyük dəstəyi ilə baş tutub.

February 20-22, 2018 Raziya Isayeva, Director of Development of Khazar University, had a study visit to universities in Scotland and SPARQS for her research on Student Engagement. She visited University of Dundee to attend the meeting of representatives and made a presentation on her research. On 21st of February she visited SPARQS (Student partnerships in quality in Scotland) to meet the director, Eve Lewis to interview her for the research she is conducting. Later on the day she visited University of Edinburgh to meet representatives of the student union Al Powell, Representation & Democracy Manager at Edinburgh University Students' Association and Megan Brown, Education & Schools officer. They introduced her the buildings of student union, they talked about the history of it and as well functions and discussed many other questions the research is seeking to answer.

On 22nd of February she visited university of Stirling and met representatives of student union: Democracy & Research Co-Ordinator, Amy Eberlin, President of the student union, Astrid Smallenbroek and Vice president for education, Matt Adie. They discussed many questions about student engagement, positive outcomes of it both for students and for the university, as well as many questions derived from the research proposal.

All the meetings were possible to a great support from sparqs.



**Vurğun Əyyub**

*Dosent, Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri*

# HÜSEYN CAVİDİN "ÖKSÜZ ƏNVƏR" ŞEİRİ

Doquz yaşında zəki, uslu bir çocuq: Ənvər...
Sinifdə tam iki ildir, birincilikdə onun
Şərafli bir adı var; daima müəllimlər
Sevərdilər onu. Lakin o şimdi pək yorğun.

O imdi çox müttəfəkkir... cahanda işdə onun
Həyatı, nəşəsi, ümmidi tək bir annəsi var.
Fəqət o, bəlkə üç ay var ki, xəstə, giryəndurun
Nəzərlərilə üzər binəvayı leylü nahar.

Zavallı annəsi söndükcə yavrucuq yanıyor,
Yanıb da qovruluyor; ən böyük düşüncələri
Yarınki matəmi güldürmək üzrə aldanıyor,
Fəqət qadın ərimiş, onda yoq həyat əsəri.

Çocuq davam ediyor dərsə hər səbah; lakin
Nə söylüyorsa müəllim, o bir şey anlamıyor.
Dalıb, dalıb gediyor, dərs için, vəzifə için,
Toqat yeyirsə də biçarə susmuş, ağlamıyor.

Səkiz gün oldu ki, artıq xəbər yoq Ənvərdən,
O şimdi dərsə dəvam etmiyor, qadıncığazın
Qoşar məzarma öksüzcə ağlar, inlərkən

Gəlincə xatirə mazi, düşüb qalır bəyğın.
Sorar sinifdə müəllim o kimsəsiz çocuğu,
Qızar da söylənərək hər gün arqasınca onun;
"Aman, nasıl yaramaz! Bax, bu həftə keçdi dəxi
Nə bir xəbər, nə bir iz var? Demək o bir çapqın..."

Yarınki gün o soluq çöhrə pürmələli təəb,
Sinifdə ərzi-vücud etdi. Dərsə başlanaraq
Müəllim əkşi, çatıq yüzlə püritabü qəzəb,
Görüncə Ənveri, qaldırdı:
- Ey! Çocuq, bana baq!
Sən, işdə hanki cəhənnəmdə, söylə, nerdə idin?
Düşünmə, söylə!
- Əfəndim, şey...
- Ah, dəni yaramaz!
Nasıl da baq dalıyor, sanki tilkidir qurnaz!..
Çocuqcığazda cavab: işdə bir sükuti-həzin...
Gözündə dalğalanır incə bir bahar buludu,
O həp baqıb duruyor, yoqdur onda hiylə və suç...
Sükuta qarşı müəllim qəzəblə bir, iki, üç
Toqatlayınca, çocuq birdə kərrə hıçqırdı:
"Aman, vəy, anneciyim!..", sonra qəşş olub getdi;
Bu səs sinifdə olan cümlə qəlbi titrətdi.

## Şeirin mövzusu, məzmunu və ideyası

Azərbaycan romantizm cərəyanının ən tanınmış və sevilən nümayəndəsi Hüseyn Cavid ədəbiyyatımızda səhnə əsərləri ilə yanaşı həm də lirik-fəlsəfi şeirlər müəllifi kimi tanınmaqdadır. Bu şeirlərin əksəriyyətində Cavidin hələ İstanbulda təhsil aldığı illərdə yaradıcılıqları ilə yaxından tanış olduğu yeni Osmanlı ədəbiyyatının təsiri duyulur. Xüsusən "Sərvəti-fünun"çuların təsiri ilə onun poeziyasında mənzum hekayə şəkli, sosial mövzular və məzmun qabarmağa başlayır. "Öksüz Ənvər" də bu təsir altında yazılmış şeirdir.

Doqquz yaşında olan Ənvər məktəbdə müəllimlərin sevimlisidir, dərslərində birincidir. Onun yalnızca anası vardır. Ancaq üç aydır ki, anası xəstədir. Ənvərin bütün fikri xəstə anasının yanında olduğundan müəllimlərinin dediklərindən bir şey anlamır, "dalıb gedir", şillə yesə də,

susub ağlamır. Artıq səkkiz gün olar ki, Ənvər məktəbə gəlmir, vəfat etmiş anasının məzarı başında ağlayıb analı günlərini xatırlayınca bayğın hala gəlir. Sinifdə bütün bunlardan xəbərsiz müəllim onu soruşur, qızlar arxasınca dedi-qodu edirlər. Səhəli gün məktəbə gələndə müəllim qəzəb içində və turşunmuş bir üzlə ondan "hansı cəhənnəmdə" olduğunu soruşur. Ənvərdən aydın bir cavab almayan müəllim onu şillələyir. Şeir uşağın "vay anəciyim" deyərək huşunu itirməsilə sona çatır. Əsəri şərti olaraq dörd hissəyə ayıra bilərik: a) Ənvərlə tanışlıq. Şair uşağın bacarıqlarından, məktəbdə sevimli şagird olmasından söhbət açmaqla oxucunu onunla tanış edir və ona qarşı bir rəğbət hissi oyadır; b) Ənvərin anasının xəstə olması və məktəbli uşağın xəstə anaya münasibəti; c) anasının ölməsindən sonra Ənvərin keçirdiyi hallar və dərsə gəlməməsi, məktəbdə ona olan münasibət; ç) məktəbə gəldikdən sonra müəllimin ona qarşı davranışı və Ənvərin düşdüyü vəziyyət.

Hər bir hissədə məzmun sadə, yığcam bir şəkildə anladılmışdır. Şeir bütünlükdə romantizmin, o cümlədən Cavidin hümanizm ideyasını əks etdirir. Azərbaycan romantizmini Avropa romantizmindən fərqləndirən ən üstün cəhəti bu şeirdə görə bilərik. Azərbaycan romantikləri Avropa romantizmindəki məşhur "bəşəri kədər"i ümumilikdən çıxararaq ona konkret məzmun aşılayırdılar. Məzlum, köməksiz, yardıma ehtiyacı olan insanların həyatından yazmaq Azərbaycan romantizminin vətəndaşlıq və sosial istiqamətini müəyyənləşdirirdi. "Öksüz Ənvər" də məhz bu hümanizm ideyası, məzluma acımaq, insana məhəbbət və qayğı göstərmək ideyası əsasında yazılmışdır.

## Bir müqayisə...

Sadə oxucunun məlumatı olsun deyə bildirək ki, Türkiyə ədəbiyyatında "Sərvəti-fünun"çular arasında şair kimi çox da tanınmayan İsmayıl Səfanın da "Öksüz Əhməd" adlı bir əsəri vardır. Səfanın əsərində göstərilir ki, dul bir qadın zəngin bir evdə xidmətçi olaraq işə düzəlir. Qadına maaş verilmir, əvəzində öz üzünün və yetim uşağının yeyib içməsi bu evdəndir. Körpə Əhməd uşaq olmasına baxmayaraq hər zaman döyülür, ətrafındakılardan daima pis sözlər, təhqirlər eşidir. Bunları görən ana bir il içində qəhrindən xəstələnir və ölür. Ev sahibləri anasının cənazəsini Əhmədə göstərmək istəyirlər ki, uşaq anasından ötrü darıxıb ətrafdakıları narahat etməsin. Lakin Əhməd anasının üzünü görcək "istəməm" deyib qaçır.

Diqqət edilsə, hər iki şeir ad etibarilə bənzərdir, hər ikisi məzmun hekayə tərzində yazılmışdır, hər ikisində dul bir qadının və yetim uşağın taleyindən söhbət açılır. Hər iki şeirdə anasının ölümü və uşağın yetim, köməksiz qalması, ətrafdakıların onlara münasibəti əsərlərin fakt, hadisə materialını və kompoziyasının qurulmasını təşkil edir. Lakin demək olmaz ki, Cavidin şeiri tamamilə Səfanın şeirinin kopyasıdır. Əsərdə müəyyən fərqlər də nəzərə çarpır. Fərqli cəhətlər budur ki, İ. Səfanın qəhrəmanı Əhmədin yaşı haqqında şeirdə bir şey deyilmir. Bəlli olan odur ki, o hələ oyuncaqlarıyla oynayır. Cavidin qəhrəmanı Ənvər isə doqquz yaşındadır, məktəblidir, çalışqandır, az-çox həyatdan baş çıxarır. Qəhrəmanın bir məktəbli olaraq tanıtması, sinfin birincisi olmasını vurğulaması bir tərəfdən Cavid romantizminin maarifçilik təbiətindən irəli gəlmişdirsə, digər tərəfdən Ənvərin xarakterini açmağa, oxucuda ona rəğbət oyadaraq mərhəmət ideyasının daha qabarıq canlandırılmasına xidmət etmişdir.

İ. Səfanın əsərində ana bir evdə qulluqçu olaraq çalışır, oğluna olan münasibəti görüb qəhrindən xəstələnir və ölür. Cavid isə Ənvərin anasının məşğuliyyəti, nədən xəstələnməsi haqqında məlumat və ya hər hansı bir işarə vermir. Səfanın əsərində ananın övladına olan münasibəti haqqında söz açılsa da, uşağın anasına bağlılığı haqqında bir detal belə yoxdur. Əksinə, uşaq anasının meyitini görünçə, "istəməm" deyə qorxub qaçır. Caviddə isə tam əksinədir. Ananın övladına münasibəti barədə bir söz deyilməsə də, Ənvərin anasına olan bağlılığı, sevgisi aydın və təsirli bir şəkildə canlandırılmışdır. Cavidin qəhrəmanının "həyatı, nəşəsi, ümmidi" tək anasıdır, "anneси söndükcə yavrucuq yanıyor, yanıb da qovruluyor." Əhməddən fərqli olaraq Ənvər hər gün anasının məzarına baş çəkir, onu sevgi ilə yad edir. Fikrimcə, uşaq obrazının qabarıq işıqlandırılmasında Cavid daha usta hərəkət etmişdir. Çünki əsərin qəhrəmanı Ana deyil, Ənvərdir.

Əhməd və Ənvərin adları bənzər olduğu kimi, taleləri də oxşardır. Hər iki uşaq döyülür, təzyiqlərə məruz qalır. Əhməd evdəki davranışlarına görə ev sahibləri, Ənvər isə məktəbə getmədiyinə görə müəllimi tərəfindən döyülür. Cavid də uşağın döyülməsi daha konkret və inandırıcı əsaslandırılmışdır. Səfanın əsərinin başlanğıcı bir qədər anlaşılmaz təsir bağışlayır, Cavid isə əsl hekayəçi ustalığı ilə mövzuya daxil olur.

## Şeirin sənətkarlıq xüsusiyyətləri

"Öksüz Ənvər"in bir çox misraları, xüsusən ilk dörd misrası tamamilə nəsr cümləsidir. Burada şeirə məxsus bədii ifadə və təsvir vasitələri, məcazlar, şeir ahəngi yoxdur. Hətta şair sözləri qafiyələndirmək üçün misra daxilində cümlələri qırmışdır. Bir cümlə digər misranın ortasında bitmişdir.

Şeirin dili əsasən sadə və anlaşıqlıdır. Ərəb-fars sözlərindən ibarət tərkiblərə az bir şəkildə müraciət edilmişdir. Sadəcə, tamamilə Osmanlı şivəsinin və orfoqrafiyasının təsiri altında yazılmışdır. O dövrdə dəbdə olan "pək", "işdə", "çocuq", "annə", "imdi", "tokat" kimi sözlərdən bolluca istifadə olunmuşdur. "Gözündə dalğalanır incə bir bahar buludu" kimi sadə və aydın bir məcazdan istifadə Ənvərin ruh halını, ağlar gözlərini dəqiq ifadə edə bilmişdir.

Nəsrə məxsus təhkiyə və realistik bir təsvir üsulu seçən Cavid öz'ünün romantik mövqeyini qabartmadan sadə və konkret bir həyat hadisəsini qələmə almaqla oxucuda mərhəmət duyğusu oyandırmağa çalışmışdır. Bu mövzuda yazdığı digər şeirlərdəki çağırış, ittiham, fəlsəfi ümumiləşdirmələr "Öksüz Ənvər"də yoxdur. Məsələn, "Məzlumlar üçün" şeiri ilk misrasından son misrasına qədər məzlumun, əsirin halına yanmaq, onlara əl tutmaq barədə çağırışdır. "Kiçik sərsəri" də isə yetim, kimsəsiz uşağın həyatını təsvir edən şair sonunda bütün bəşəriyyətə xitab olaraq səslənən fəlsəfi ümumiləşdirmə aparır:

*Haqqa varmaq, pərəstiş etmək üçün*
*Ucalır bir tərəfdə məbədlər...*
*Daş, çamur; haqq rizası namümkün...*
*Aldanır, aldanır zavallı bəşər.*

"Öksüz Ənvər" də adını çəkdiyimiz şeirlərdə olduğu kimi şair mövqeyinin açıq ifadəsi olmasa da, unutmayaq ki, Cavid realist bir sənətkar deyildi və öz "mən"ini gizlədə bilməzdi. Odur ki, ayrı-ayrı ifadələrdən (zəki, uslu çocuq, binəva, biçarə, yoxdur onda hiylə və suç və s.) şairin mövqeyi, kimin tərəfində olduğu (duyğusuz, həssas olmayan müəllimin, yoxsa məzlum, yetim çocuğun tərəfində olması) aydın görünür.

Uşağın kədərli halı, qayğıya, təəlliyə möhtac durumu ilə müəllimin duyğusuzluğu, qəzəbi bir təzad şəklində verilmişdir ki, bu da vəziyyətin faciəviliyini daha da artırmış olur.

Əsərdəki insan obrazları ana, uşaq, müəllim və məktəbli qızlardır. Şair Ənvəri ağıllı, intizamlı, dərsə, biliyə qiymət verən, duyğulu bir uşaq olaraq təsvir etmişdir. Şeirə giriş hesab olunacaq ilk cümlələr Ənvəri oxucuya tanıdır. Ana haqqında əlavə heç bir məlumat yoxdur. Şairin təhkiyəsindən anlaşılır ki, o, xəstədir və dünyasını dəyişmişdir. Müəllim isə zalım, duyğusuz bir insan olaraq qarşımıza çıxır. İlk üç obraz konkret şəxsləri ifadə edirsə, məktəblilər ümumi şəkildə təsvir edilmişdir. Onların yalnızca sözləri verilmişdir. Burada Ənvərin sinif yoldaşlarının ona münasibətindəki psixologizm, fərdilik açılmamışdır. Bu da əslində dramatik bir olayın təsvirindəki dramatikliyi azaltmışdır. Cavid nə zamanın, nə də məkanın üzərində dayanmamış, qəhrəmanlarının zahiri görkəminin, paltarlarının, əşyaların təsvirinə yer verməmişdir. Təbii ki, bu da əyanilik və dekorativlik, görünülülük baxımından şeirə zərər gətirmişdir.

Cavidin başqa lirik şeirlərində rastlaşdığımız bədiilik, yüksək sənətkarlıq "Öksüz Ənvər"də nəzərə çarpacaq dərəcədə deyildir, məzmun isə bəsitdir. Şeiri sevdirən ondakı hiss-həyəcan və mərhəmət duyğusudur. Böyük romantikimizin istedadını bütün qüdrətilə göstərə bilməsə də, "Öksüz Ənvər" Cavid yaradıcılığının bir faktı kimi, Cavid hümanizminin bədii əksi olaraq diqqətçəkicidir.



# KARYERA MƏRKƏZİNİN MENECERİ DEMOKRATLAR PARTİYASININ SENATORU OLDU

# THE MANAGER OF CAREER CENTRE FUNCTIONS AS A SENATOR OF THE DEMOCRATIC PARTY

Fevralın 24-25 - də Bakıda "Landmark Hotel"-də ABŞ-ın Azərbaycandakı səfirliyinin dəstəyi ilə YLP`13 Proqram məzunu Samirə Qasımova və FLEX`15 proqram məzunu Elmir Muxtarovun təşkil etdikləri Amerika Birləşmiş Ştatları Senatının Modeli (MUSS) konfransı keçirildi. "Nüvə təhdidi: Şimali Koreya" mövzusunda simulyasiya konfransında iştirak üçün 50 ştatı təmsil edən 50 iştirakçı seçilmişdi. Xəzər Universiteti Karyera mərkəzinin meneceri Səbinə Allahverənova konfransda Demokratlar Partiyasının senatoru rolunda çıxış etdi.

İki gün ərzində "senator"lar məruzə sessiyalarına qatılaraq, müzakirələr apardılar. Öz ştatlarından seçilmiş senatoru mümkün qədər dəqiq təsvir etdilər.

Amerika Birləşmiş Ştatları Senatının Modeli ABŞ Senatının qanunvericilik prosesini simulyasiya etmək üçün bir platformadır. Bu proqram Amerika Birləşmiş Ştatları hökumətindəki qanunvericilik prosesinə dair iştirakçıların anlayışlarını yaxşılaşdırmaq və onların siyasi iştirakını təşviq etmək üçün bir proqramdır.

Model United States Senate conference was organized by Samira Gasimova, YLP`13 Program fellow, and Elmir Mukhtarov, FLEX`15 Program Fellow in Landmark Hotel, Baku, with organisational support of the USA embassy to Azerbaijan. 50 delegates representing 50 states were selected to participate in the simulation conference on the topic "Nuclear Threat: North Korea." Sabina Allahverenova, manager of Career Centre of Khazar University, functioned as a Senator of the Democratic Party.

Over two days, the model Senators participated in floor sessions, held discussions, and portrayed the assigned Senator as accurately as possible.

The model United States Senate (MUSS) is a platform aimed to simulate the legislative process of the United States Senate. This program is an educational tool to improve participants' understanding of the legislative process in the United States government and to encourage their political engagement.



## KARYERA MƏRKƏZİNDƏ NÖVBƏTİ TƏLİM

Fevralın 28-də Xəzər Universiteti Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova tələbələrə CV-nin hazırlanması mövzusunda təlim keçirdi. Təlimin ilk hissəsində, CV hazırlama prosesində, adətən, yol verilən səhvlər müzakirə olundu, daha sonra isə CV-nin əsas məzmununun nələrdən ibarət olması barəsində tələbələrə ətraflı izahat verildi.

Təlimin sonunda tələbələrin sualları cavablandırıldı.

## DOKTORANTURA VƏ MAGİSTRATURA TƏLƏBƏ BİRLİYİNİN NÖVBƏTİ SEMİNARI

Fevralın 23-də Xəzər Universiteti Doktorantura və Magistratura Tələbə Birliyinin ənənəvi təlim və seminarları çərçivəsində "Akademik yazının incəlikləri" mövzusunda növbəti seminar keçirildi. Seminarda akademik yazının struktur, semantika və sintaksis baxımından xüsusiyyətləri izah olundu, müzakirələr aparıldı. İştirak edən doktorantların sualları cavablandırıldı, fikir və təcrübə mübadiləsi aparıldı.

Seminarı Xəzər Universiteti Təhsil departamentinin koordinatoru, Osmangazi Universiteti Təhsilin idarə olunması ixtisası üzrə doktorantı Qoşqar Məhərrəmov keçirdi.

## ANOTHER TRAINING AT CAREER CENTRE

Sabina Allahverenova, manager of Career Center of Khazar University, held a training on CV layout. At the first stage of the training, participants discussed common mistakes in CV layout. Later, the trainer gave detailed information regarding main content of CV.

Students also got answers to their questions at the training which lasted an hour.

## NEXT SEMINAR OF PHD AND MASTER STUDENTS UNION

Within the framework of traditional trainings and seminars of PhD and Master Students Union of Khazar University, another seminar "Details of academic writing" was held on February 23, 2018. Participants gained knowledge in characteristics of academic writing in terms of structure, semantics and syntax, had discussions, and received answers to their questions.

The seminar was run by Goshgar Maharramov, coordinator of the Department of Education of Khazar University and PhD candidate in Education Management of Osmangazi University.






# XƏZƏR UNİVERSİTETİNİN ƏCNƏBİ TƏLƏBƏLƏRİ ŞAMAXI ŞƏHƏRİNDƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI ANIM TƏDBİRİNDƏ

# INTERNATIONAL STUDENTS OF KHAZAR UNIVERSITY VISIT COMMEMORATION CEREMONY OF GENOCIDE OF AZERBAIJANIS IN SHAMAKHI

Fevralın 27-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə əcnəbi tələbələr üçün Şamaxı şəhərində "Azərbaycanlıların soyqırımı: yüz ilin yaddaşında" mövzusunda tədbir keçirildi. Bu tədbir Təhsil Nazirliyinin Azərbaycanın ali məktəblərində təhsil alan əcnəbi tələbələr üçün nəzərdə tutduğu silsilə tədbirlərdən birincisi idi.

Tədbirdə təhsil nazirinin müavini Firudin Qurbanov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, ictimaiyyət nümayəndələri, KİV təmsilçiləri, universitet nümayəndələri və əcnəbi tələbələr, Xəzər Universitetindən Beynəlxalq əlaqələr şöbəsinin assistenti Elxan Kasimov və universitetdə təhsil alan Zimbabve, Əfqanıstan və İndoneziyadan olan tələbələr iştirak edirdilər.

Tədbir iştirakçıları öncə Şamaxı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət etdilər. Sonra 1918-ci ildə Şamaxı soyqırımı zamanı ən böyük qırğınların törədildiyi Cümə məscidində oldular. Tədbir Şamaxı Şəhəri İncəsənət Təhsili Mərkəzində davam etdirildi.

Tədbir çərçivəsində əcnəbi tələbələr Azərbaycanın tarixi ilə yaxından tanış olmaq imkanı əldə etdilər.


A ceremony entitled "Genocide of Azerbaijanis: in memory of a century" was organized for international students in Shamakhi city by the Ministry of Education, on February 27, 2018. This ceremony was the first one out of the series of events to be organized by the Ministry of Education for international students of higher educational institutions of Azerbaijan.

Firudin Gurbanov, Deputy Minister of Education, Asif Aghayev, Head of Executive Power of Shamakhi city, public and media representatives, staff members of universities and international students participated in the ceremony. Elkhan Kasimov, assistant of Department of International Relations of Khazar University, as well as students from Zimbabwe, Afghanistan and Indonesia represented Khazar University at the ceremony.

Firstly, the participants visited a monument erected in honor of victims of Shamakhi genocide. Then the participants visited Juma mosque where the biggest massacres were committed during the Shamakhi genocide in 1918. Afterwards, the ceremony continued in Shamakhi Art Education Center. International students became closely familiar with Azerbaijan history within the ceremony.

# "XƏZƏR"- İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ ÖLKƏDƏ VƏ XARİCDƏ ÇAP OLUNUB

***




**Azərbaycan dili və ədəbiyyatı departamentinin əməkdaşı, fil.ü.f.d., dosent Dilbər Zeynalovanın** "Художественное воплощение социально-психологических проблем в новой Азербайджанской прозе ". ("Yeni Azərbaycan nəsrində sosial-psixoloji problemlərin bədii təcəssümü") adlı məqaləsi "Науковий Вісник Міжнародного Гуманітарного Университету" jurnalında (Odessa, Вип. 29, 2017.s.99-103) nəşr olunmuşdur.

Məqalənin tam mətnini bu link vasitəsilə oxumaq olar:

*http://www.vestnik-philology.mgu.od.ua/archive/v29/part_1/29.pdf*

An article entitled "Literary incarnation of social-psychological problems in new Azerbaijani prose" ("Художественное воплощение социально-психологических проблем в новой Азербайджанской прозе") by **Dr. Dilbar Zeynalova, PhD in Philology, a staff member of the Department of the Azerbaijani Language and Literature,** was published in Науковий Вісник Міжнародного Гуманітарного Университету" journal (Odessa, Вип. 29, 2017.s.99-103).

A link for full article:


*http://www.vestnik-philology.mgu.od.ua/archive/v29/part_1/29.pdf*

**D.Zeynalovanın** "Модификация жанра романа в современной Азербайджанской прозе". ("Müasir Azərbaycan nəsrində roman janrının modifikasiyası") adlı məqaləsi isə "Filologiçeske vedomosti № 4" (Çexiya, "Sociosfera-CZ", 2017. s.26-32) jurnalında nəşr olunmuşdur.

Məqalənin tam mətnini bu link vasitəsilə oxumaq olar:

*https://elibrary.ru/contents.asp?issueid=1902196*

Moreover, another article entitled "Modification of the genre of novel in modern Azerbaijani prose" ("Модификация жанра романа в современной Азербайджанской прозе") by **Dr. Zeynalova** was published in "Filologiçeske vedomosti № 4" (Czech Republic, "Sociosfera-CZ", 2017. s.26-32) journal.




***

# KHAZAR UNIVERSITY STAFF MEMBERS PUBLISH ARTICLES IN THE COUNTRY AND ABROAD

***

**Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimovanın** (doktorant) **"N.Çomskinin sintaktik təliminde üst qat problemi: cümlənin üst qatının müəyyənləşməsi kriteriyaları" adlı məqaləsi "Filologiya məsələləri" jurnalının 2018-ci il 1-ci sayında çap edilmişdir.**


**Məqalədə müasir dilçilikdə sintaksisdən danışılır, N.Çomskinin bu istiqamətdə apardığı tədqiqatlar və elmə gətirdiyi yeniliklər də araşdırılaraq geniş formada oxucuya çatdırılmışdır.**

**Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:**
***http://www.filologiyameseleleri.net/pdf/2018/1n.pdf***


**A scientific article "The problem of the upper layer in syntax by N. Chomsky: criteria for the definition of the upper layer of a sentence" by Valida Karimova, Vice-dean of the School of Humanities and Social Sciences, was published in the first issue of "Philology Issues" journal, 2018.**

**The article deals with syntax in modern linguistics. Moreover, the authors investigates and introduces the relevant researches by Chomsky to readers.**

**A link for full article:**
***http://www.filologiyameseleleri.net/pdf/2018/1n.pdf***




***




**Bakı Slavyan Universitetinin nəşri olan "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" rüblük jurnalının son sayında (№4, 2017) Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının "Vətəndaşlıq lirikasında milli məfkurə və azərbaycançılıq" adlı məqaləsi dərc edilmişdir.**

**Məqalədə poeziyamızın görkəmli nümayəndələri Məmməd Araz, Söhrab Tahir Azər və Məmməd İsmayılın vətəndaşlıq lirikasındakı milli məfkurə problemi və azərbaycançılıq konsepsiyasından bəhs olunur, bu məsələ ilə əlaqədar ədəbiyyatşünasların fikirlərinə münasibət bildirilir.**

**A scientific article "National ideology in civic lyrics and Azerbaijanism" by Gardashkhan Azizkhanli, a lecturer of the Department of the Azerbaijan Language and Literature, the School of Education, Khazar University, was published in the last issue of quarterly (№ 4, 2017) "The Actual Problems of Study of Humanities", a journal of Baku Slavic University.**

**The article deals with an issue of national ideology and Azerbaijanism in Mammad Araz's, Sohrab Tahir AzerAzer's and Mammad Ismayil's civic lyrics, prominent figures of poetry. Moreover, the author expresses his attitude towards the views of literary critics in this context.**



# XƏZƏR UNİVERSİTETİ MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR


**Xəzər Universiteti Multimedia mərkəzinin əməkdaşı, Təhsil fakültəsinin birinci kurs tələbəsi Arzu Məmmədovanın Bakıda lentə aldığı maraqlı görüntülər.**



















# HÖKUMƏT BAŞÇISININ OĞURLANMASI

(*hekayə*)

**Aqata Kristi**
*1890 - 1976*
**İngiltərə**

İndi müharibə qurtarmışkən və bütün sirrlər tədricən agah olmuşkən, güman edirəm, dostum Puaronun milli böhranın həllində göstərdiyi fədakarlığı tərəddüdsüz-filansız dünyaya çatdıra bilərəm. Bu sirri o qədər yaxşı qoruyub saxlamışdılar ki, mətbuata bu barədə heç bir məlumat sızmamışdı. İndi bu sirrin qorunmasına lüzum qalmadığından, düşünürəm ki, böyük bir fəlakətin öhdəsindən belə məharətlə gəldiyinə görə İngiltərə sakinləri gözəl zəka sahibi, bəstəboy dostuma nə qədər borclu olduqlarını bilməlidirlər.

Bir axşam dostumgildə oturmuşdum. Dəqiq tarixi açıqlamağa ehtiyac yoxdur. Bu görüş, İngiltərənin düşmənləri "danışıqlar yolu ilə sülh" şüarını tutuquşu kimi təkrar etdikləri bir vaxtda baş vermişdi. Yararsız olduğum üçün ordudan tərxis olunmuşdum və gənc əsgərlərin məntəqəyə toplanması işinə başlamışdım. Axşamlar nahardan sonra Puaroya baş çəkmək, dostumun təcrübəsində rastlaşdığı maraqlı cinayət işləri haqqında onunla söhbət etmək adət halını almışdı.İngiltərənin baş naziri cənab Devid Makadamın həyatına qəsd etmək cəhdi haqqında səs-küyə səbəb olan xəbəri onunla müzakirə etməyə can atırdım. Qəzetlərdəki bu məlumat, senzuradan diqqətlə keçmişdi. Baş nazir ağlasığmaz bir halda canını qurtarmışdı. Güllə onun yalnız yanağını yüngülcə sıyırmışdı. Daha heç bir məlumat verilməmişdi. Düşünürdüm ki, qanunun belə kobud şəkildə pozulması bizim polisin rüsvayçasına ehtiyatsız hərəkət etməsi nəticəsində mümkün olmuşdur. Yaxşı başa düşmüşdüm ki, İngiltərədə alman casusları belə bir uğur qazanmaq üçün daha çox risk etmək arzusunda olacaqlar. İngiltərənin baş naziri var gücü ilə genişlənməkdə olan pasifistlərin təsirinə qarşı qətiyyətlə mübarizə apardığından, mənsub olduğu partiyadaşları ona "Döyüşkən Mak" ləqəbi vermişdilər. O, İngiltərənin baş naziri olmaqdan daha artıq nüfuz sahibi idi, o, İngiltərənin özü demək idi və bu səbəbdən onun siyasi meydandan uzaqlaşması, Britaniyaya sarsıdıcı və iflicedici zərbə vura bilərdi.

Puaro səliqə-səhmana çox fikir verirdi, həmişə boz kostyumunu balaca süngər parçasıyla təmizləyirdi. Erkül Puaro kimi geyiminə fikir verən ikinci adam tapmaq mümkün deyildi! Təmizkarlıq və səliqə-səhman dəlisiydi. İndi benzin iyinin havanı bürüdüyü bir vaxtda o, bütün diqqətini mənə yönəldə bilməzdi.

- Bir dəqiqədən sonra səninlə olacağam, dostum. Bircə yağ ləkəsindən başqa hamısını təmizləmişəm. Yağ ləkəsi çox xoşagəlməzdir. Mən onu belə təmizləyirəm.

O, süngəri əlində yellətdi.Mən yenidən bir siqaret yandırıb, gülümsündüm.

-Maraqlı bir şey var? - bir-iki dəqiqədən sonra ondan soruşdum.

-Mən gümənuzd işləyən bir qadına - siz ona nə deyirsiniz? - əlini tapmaqda kömək edirəm. Çətin işdir, xüsusi nəzakət tələb edir. Məndə belə bir fikir yaranıb ki, əri özünün tapılmasından razı qalmayacaq. Məncə siz də onun yerində olsaydınız, tapılmaq istəməzdiniz. Şəxsən mən o kişiyə rəğbət bəsləyirəm. Belə it-bat olasan!

Güldüm.

-Axır ki, bu yağ ləkəsi getdi! Dostum, bax indi sizin ixtiyarınızdayam.

- Soruşmaq istərdim ki, Makdama qarşı sui-qəsd barədə nə fikirdəsiniz?

- Uşaq işidir! - Puaro cəld cavab verdi. - Bunu ciddiyə almaq lazım deyil. Tüfəngdən atəş açasan, amma məqsədinə çatmayasan. Bu, tamamilə qeyri-peşəkarlıqdır.

- Bu dəfə az qalmışdı məqsədinə çatsın - ona etiraz etdim.

Puaro hövsələsiz-hövsələsiz başını yelledi. Cavab vermək istəyərkən, sahibəsi qapıdan içəri boylanıb, ona xəbər verdi ki, aşağıda iki centlmen onu görmək istəyir.

- Adlarını demək istəmirlər, cənab, amma deyirlər çox vacib işləri var.

- Qoy gəlsinlər, - Puaro ehtiyatla boz şalvarını bükərək dedi.

Bir neçə dəqiqədən sonra iki nəfər içəri girdi. Öndə gələn adamı, ümumi Palatanın lideri, görkəmli şəxsiyyət lord Esteri tanıdıqda, ürəyim bərkdən döyündü. Onun yoldaşı isə hərbi nazirliyin üzvü, bildiyim qədərilə, baş nazirin yaxın dostu cənab Bernard Dodj idi.

- Müsyo Puaro? - lord Ester sualedici tərzdə dedi.

Dostum baş əydi. Məşhur adam mənə baxdı və tərəddüd etdi.

- Bizim şəxsi işimiz var.

- Siz kapitan Qastinqsin yanında danışa bilərsiniz, - dostum dedi və mənə qalmaq üçün başıyla işarə etdi. – Düzdü, onun belə işlərdə səriştəsi yoxdur, amma tədbirli olmasına cavabdeh ola bilərəm.

Lord Ester hələ də tərəddüd edirdi, lakin cənab Dodj özünü saxlaya bilməyib, söhbətə müdaxilə etdi.

- Əşi, gəlin vaxt itirməyək, davam edin. Bizim bildiklərimizi lap tezliklə bütün İngiltərə biləcək. Vaxt qızıldır.

- Xahiş edirəm, əyləşin, cənablar, - Puaro nəzakətlə dedi. Böyük stulda oturmaq istərdinizmi, milord? Lord Ester azacıq diksinən kimi oldu.

-Siz məni tanıyırsınız?

Puaro gülümsündü:

- Əlbəttə. Mən şəkilləri olan kiçik qəzetləri oxuyuram. Necə ola bilər ki, tanımayım?!

- Müsyo Puaro, sizinlə son dərəcə vacib bir məsələ barəsində məsləhətləşməyə gəlmişəm. Xahiş edirəm, söhbətimiz tamamilə məxfi qalsın.

- Erkül Puaronun sözünə inanın, daha heç nə deyə bilmərəm! - dostum təmtəraqla dedi.

- Söhbət baş nazirdən gedir. Böyük kədər içindəyik.

- Çıxılmaz vəziyyətə düşmüşük, - cənab Dodj söhbətə qoşuldu.

- Yara ağırdır, hə? - mən soruşdum.

- Nə yara?

- Güllə yarası.

- Hə, o yaranı deyirsiniz! - cənab Dodj ehtiyatsızlıqla ucadan dedi:

- O, çoxdankı əhvalatdır.

- Mənim həmkarım dediyi kimi, - Lord Ester sözünə davam etdi, - O iş həmişəlik bağlanıb. Xoşbəxtlikdən uğursuz oldu. Təki, ikinci sui-qəsd də belə uğursuzluqla nəticələnəydi!.

.- Demək, ikinci sui-qəsd də olub?!

- Bəli, amma başqa cür olub. Müsyo Puaro, baş nazir yoxa çıxıb!

- Necə?!

- Onu oğurlayıblar!

- Ola bilməz! - deyərək, donub qaldım.Puaro kəskin nəzərlə mənə baxdı. Bildim ki, bununla məni susmağa çağırır.

- Nə qədər inanılmaz olsa da, bu, həqiqətdir, - lord cənabları davam etdi.

Puaro cənab Dodja baxdı.

- Müsyo, siz indicə dediniz ki, vaxt qızıldır. Bununla nə demək istədiniz?

Qonaqlar bir-birinə baxdılar və lord Ester cavab verdi:

- Müsyo Puaro, müttəfiqlərin konfransı barədə eşitmisiniz?

Dostum başıyla təsdiq cavabı verdi.

- Konfransın nə vaxt və harada keçirilməsi barədə bəlli səbəblər üzündən ətraflı məlumat verilmir.

Qəzetlərdən gizlədilməsinə baxmayaraq, diplomatik dairələrə konfransın tarixi yaxşı məlumdur. Konfrans sabah, cümə axşamı Versalda keçirilməlidir. İndi vəziyyətin nə qədər ağır olduğunu başa düşürsünüz? Sizdən gizlətməyəcəyəm ki, baş nazirin konfransda iştirakı həyati zəruriyyətdir. Aramızdakı alman casuslarının başladıqları və müdafiə etdikləri pasifist təbliğat çox fəallaşıb. Ümumi fikir belədir ki, güclü şəxsiyyət olan baş nazirin konfransda çıxışı dönüş nöqtəsini müəyyən edəcək. Onun konfransda iştirak etməməsi ən ağır nəticələrə, bəlkə də vaxtından əvvəl və fəlakətli sülhə gətirib çıxara bilər, həmin konfransa isə baş nazirdən başqa göndərilməyə adamımız yoxdur. İngiltərəni yalnız hökumət başçısı təmsil edə bilər.

Puaro daha ciddi görkəm aldı.

- Demək, baş nazirin oğurlanmasını, konfransda onun iştirakına mane olmaq cəhdi kimi qiymətləndirirsiniz?

- Şübhəsiz, belə hesab edirəm. O, doğrudan da həmin vaxt Fransaya gedirdi.

- Konfrans nə vaxt keçirilməlidir?

- Sabah axşam saat doqquzda.

Puaro cibindən böyük bir saat çıxardı.

- İndi doqquza on beş dəqiqə qalıb.

- İyirmi dörd saat vaxtımız var, - cənab Dodj fikirli-fikirli dedi.

- İyirmi dörd saat, on beş dəqiqə - Puaro düzəliş verdi. - On beş dəqiqəni unutmayın, müsyo, karımıza gələ bilər. İndiyə baş nazirin oğurlanmasının təfsilatı barədə danışaq. Bu hadisə Fransada baş verib, yoxsa İngiltərədə?

- Fransada. Makadam bu səhər Fransaya getmişdi. O, sabah Parisə yola düşən donanma komandanının bu axşam qonağı olmalıydı. Baş naziri La-Manş boğazından eskadron mina gəmisi ilə aparmışlar. Bulonda baş qərargahdan bir maşın və baş komandanın yardım düşərgəsindən də bir adam onu qarşılayıb.

- Sonra?.

.- Onlar Bulondan yola düşüblər, amma gəlib çıxmayıblar.

- Necə?!

- Müsyө Puaro, maşın da qondarma imiş, yardım düşərgəsindən olan adam da. Həqiqi maşın isə sürücü və yardım düşərgəsindən olan ağzı və əlləri məharətlə bağlanmış adamla birlikdə ehtiyat yolda tapılmışdır.

- Bəs baş nazirin olduğu maşın?

- Hələ də tapılmayıb.

Puaro həvəsləsizliyini büruzə verdi:

- Ağılasığmazdır! Şübhəsiz, maşın uzun müddət diqqətdən yayına bilməz.

- Biz də belə düşünürdük. Adama elə gəlir ki, bu iş sadəcə olaraq ətraflı axtarış tələb edir. Fransanın o hissəsində hərbi vəziyyətdir. Biz əmin idik ki, həmin maşın diqqət cəlb etmədən uzağa gedə bilməz. Fransız polisi, bizim Skotlendyardın işçiləri və hərbçilər beyinlərini işə salıblar. Siz deyən kimi, ağılasığmaz işdir. Amma maşının izi-tozu da yoxdur.

Bu an qapının yanında tappıltı eşidildi və cavan bir zabit içəri girdi. O, möhkəm möhürlənmiş zərfi lord Esterə uzatdı.

- Fransadan indicə gəlib, cənab. Göstəriş verdiyiniz kimi məktubu bura gətirdim.

Lord Ester məktubu həvəslə açdı və sevincək-sevincək bərkdən oxudu:

- Nəhayət xəbər gəldi! Bu teleqramın şifri indicə açılıb. Onlar ikinci maşını tapıblar, içində də nazir Daniels - burnuna xloroform tutulmuş, ağzı və əlləri bağlı halda, "K" fermasının yaxınlığında. Daniels arxa tərəfdən burnuna və ağzına nəyinsə sıxıldığını, azad olmaq üçün var gücü ilə çalışmağından başqa heç nə xatırlamadığını deyir. Polis onun dediklərinə şübhə etməyə əsas görmür.

- Başqa heç nə tapmayıblar?

- Xeyr.

- Baş nazirin ölüsünü də?.. Onda ümid var. Amma qəribə işdir. Nə üçün ona bu səhər atəş açmağa cəhd edənlər, indi onun sağ qalması üçün bu qədər dərilən-qabıqdan çıxırlar?!

Cənab Dodj başını yellədi.- Bir şey tamamilə aydındır. Onlar baş nazirin konfransda iştirak etməsi-

nə nəyin bahasına olursa olsun əngəl törətmək əzmindədirlər.- Əgər baş nazir sağdırsa, onda hökmən konfrasda olacaq. Allah eləsin. İndi, cənablar, hər şeyi mənə lap əvvəldən danışın. Elə bu atəş açma məsələsini də bilməliyəm.- Keçən gecə hökümətin başçısı onu müşayiət edən nazirlərdən biri, Kapitan Daniels ilə...- Baş naziri Fransaya yola salan həmin kapitan?- Bəli, bayaq dediyim kimi, onlar maşınla Vindzora getdilər. Orada baş nazirin rəsmi qəbulu oldu. Ertəsi səhər isə şəhərə qayıdarkən, yolda baş nazirə qəsd etmək cəhdi baş verdi.- Zəhmət olmasa, deyin görüm bu kapitan Daniels kimdir? Sizdə onun dosyesi varmı?Lord Ester gülümsündü.- Bu barədə sual ünvanlayacağınızı bilirdim, amma biz onun haqqında çox da məlumatlı deyilik. O, adlı-sanlı ailədən çıxmayıb. İngilis ordusunda xidmət edib, olduqca bacarıqlı nazirdir, müstəsna dərəcədə gözəl dilçidir. Güman edirəm ki, yeddi dildə danışır. Elə bu səbəbdən baş nazir müşayiət etmək üçün məhz onu seçib.- İngiltərədə qohumları var?- İki xalası. Hampsteddə yaşayan Xanım Everard və Askot yaxınlığında yaşayan xanım Daniels.- Askot? Vindzorun yaxınlığındakı, hə?- Bu məsələ nəzərdən qaçmayıb, amma heç bir nəticə verməyib.- Güman edirsiz ki, kapitan Daniels şübhədən kənardı?Lord Ester cavab verərkən, səsində bir kədər duyulurdu.- Xeyr, müsyo Puaro. Bu günlərdə kiminsə şübhədən uzaq olduğunu deməkdə çətinlik çəkərdim.- Çox yaxşı. Milord, indi başa düşdüm ki, baş nazir həqiqətən polisin ayıq mühafizəsi altında olacaq və ona qarşı hər hansı bir hücum qeyri-mümkün hesab edilməlidir, elə deyilmi? Lord Ester başını tərpətdi.- Elədir. Baş nazirin maşınını başqa bir maşın yaxından müşayiət edirdi. Onun içində mülki paltarda xəfiyyələr əyləşmişdi. Hətta bu ehtiyat tədbirləri barədə Cənab Makadamın özü də heç nə bilmirdi. O, çox qorxmaz adam olub, amma təbii ki, polisin də öz tədbirləri olur və doğrudan da baş nazirin sürücüsü O'Merfi cinayət axtarışı şöbəsinin işçisiydi.- O'Merfi? Bu, irland soyadıdır, deyilmi?- Bəli, o, irlanddır.- İrlandiyanın harasındandır?- Mənçə Kler qrafлığından.- Aydındır, davam edin, milord.- Baş nazir üstüörtülü maşında Londona yola düşdü. Kapitan Daniels onun yanında əyləşmişdi. İkinci maşın adəti üzrə onların dalınca gedirdi. Amma bədbəxtlikdən, naməlum səbəbdən baş nazirin maşını əsas yoldan kənara çıxdı...- Yolun döngə olan yerində? - Puaro onun sözünə müdaxilə etdi.- Bəli, hardan bildiniz?- Bu ki aydın işdir. Davam edin.- Müəyyən səbəb üzündən - lord Ester davam etdi - baş nazirin maşını əsas yoldan qıraға çıxıb. Polisin maşını onların kənara çıxmasından xəbərsiz olduğundan, yollarına davam ediblər. Əsas yoldan azacıq arah get-gəlişsiz torpaq yolda baş nazir gedən maşını qəflətən maska geymiş bir dəstə quldur tutub saxlayır. Sürücü...- Cəsarətli O'Merfil - Puaro dalğın halda mızıldandı.- Özümü bir anlığa itirmiş sürücü əyləci basır. Baş nazir başını pəncərədən bayıra çıxarır. Həmin anda bir güllə, sonra da ikinci güllə açılır. Birinci güllə baş nazirin yanağını yüngülcə sıyırıb keçir, ikinci güllə isə xoşbəxtlikdən yan ötür. Təhlükəni başa düşən sürücü maşını quldur dəstəsinin üstünə sürərək irəli çıxır.- Onlar ölə bilərdilər! - titrək səslə bərkdən dedim.- Cənab Makadam aldığı yüngül yaradan ötrü səs-küy qaldırılmasına razı olmur. Yüngülcə cızıldığını bildirir. O, yerli kiçik kənd xəstəxanasında dayanır. Orada onun yarası sarınır. Əlbəttə, baş nazir kim olduğunu demir. Sonra o, qrafika müvafiq olaraq birbaşa Çarinq-Krossa gedir. Orada Duvra gedən xüsusi qatar onu gözləyirmiş və kapitan Daniels tərəfindən baş vermiş əhvalat haqqında təşvişə düşmüş polisə qısa məlumatdan sonra baş nazir vaxtında Fransaya yola düşür. Duvrda onu gözləyən mina gəmisinə minir. Bulonda, bildiyiniz kimi, Birləşmiş Krallığın bayrağı olan qondarma maşın baş naziri gözləyirmiş...- Mənə demək istədiyiniz elə bunlar idi?- Bəli.- Bəlkə nəsə yadınızdan çıxıb, milord?- Bir qəribə məsələ var...- Eləmi?- Baş naziri Çarinq-Krossa aparmış maşın geri qayıtmayıb. Polis O'Merfi ilə söhbət aparmaq istəyib, dərhal axtarış başlanıb. Maşın alman casuslarının görüş yeri kimi tanınmış Soho rayonunda diqqəti cəlb etməyən kiçik bir restoranın yanında tapılmışdır.- Bəs sürücü?- Sürücümü heç yerdə "gördüm" deyən olmayıb. O da yoxa çıxıb.- Beləliklə, - Puaro düşüncəli halda dedi: iki nəfər yoxa çıxıb: baş nazir Fransada və O'Merfi Londonda.O, hərəkətlərində ümidsizlik hiss edilən lord Esterə diqqətlə baxdı.- Bilirsiniz necədi, Müsyo Puaro, əgər dünən kimsə O'Merfinin satqın olduğuna eyham etsəydi, həmin adama yalnız gülərdim.- Bəs bu gün?- Bu gün isə heç bilmirəm nə deyim. Puaro qaşqabağı halda başını tərpətdi. O, yenidən qədim cib saatına baxdı.- Başa düşürəm ki, cənablar, mən tamamilə sərbəst hərəkət etməliyəm, hər mənada. Yəni hara getməliyəm, necə getməliyəm - özüm seçməliyəm.- Əlbəttə. Bir saatdan sonra Duvra xüsusi qatar yola düşür. Həmin qatarla Skotland Yarddan əlavə kontingent gedir. Sizi bir hərbçi zabit və Cinayət Axtarışı Şöbəsinin bir əməkdaşı müşayiət edəcək. Onlar hər cəhətdən sizin sərəncamınızda olacaqlar. Sizi qane edirmi?- Tamamilə qane edir. Getməmişdən qabaq sizə bir sualım da var, cənablar. Sizi nə vadar etdi ki, mənim yanıma gələsiniz? Mən ki sizin bu böyük London şəhərində naməlum, nəzərəçarpmayan bir adamam.- Biz sizi ölkənizin ən məşhur adamının xüsusi zəmanət və arzusuyla axtarıb tapmışıq.- Nə?! Mənim köhnə dostum, polis komissarı?Lord Ester başı-

rı buladı.- Komissardan da yüksək bir adam. Elə bir adam ki, onun sözü Belçika üçün bir vaxt qanun olub və yenə də olacaqdır. İngiltərə ona and içib.Puaro lordun sözünü alqışlamaq üçün əlini aktyorsayağı yelləyi.- Kaş elə olsun! Amma mənim müəllimim unutmur... Canablar, Erkül Puaro sizə sədaqətlə qulluq edəcək. Allah eləsin ki, bu, vaxtında olsun. Ancaq qaranlıqdır, qaranlıq... görə bilmirəm.- Yaxşı, Puaro, - nazirlərin dalınca qapı örtülən kimi səbirsizliklə ucadan dedim:- Nə fikirləşirsiniz?Dostum mahir və cəld hərəkətlərlə balaca çamadanını qablaşdırmaqla məşğul idi. O, fikirli-fikirli başını buladı.- Nə fikirləşdiyimi bilmirəm. Ağlım başımda deyil.- Amma siz dediniz ki, onun başına zərbə vurmaq daha rahat ola bilərdi, nəinki oğurlamaq - tərəddüd etmədən dedim.- Məni bağışlayın, dostum, amma heç də belə deməmişəm. Görünür, onların işi elə baş naziri oğurlamaqmış.- Nə üçün?- Çünki qeyri-müəyyənlik çaxnaşmaya səbəb olur. Bu da bir səbəb. Əgər baş nazir ölsəydi, bu, dəhşətli fəlakət olacaqdı, amma vəziyyətlə barışmaq olardı. İndi isə elə bil iflic vəziyyətindəsən. Baş nazir gəlib çıxacaq, ya yox? Ölüb, yoxsa sağdır? Heç kəs bilmir və nə qədər ki, onlar bilmirlər dəqiq heç nə demək olmaz və mən sizə dediyim kimi qeyri-müəyyənlik çaxnaşma törədir, çaxnaşma isə almanlar üçün sərfəlidir. Əgər baş naziri oğurlayanlar onu bir yerdə gizli saxlayırlarsa, belə olan təqdirdə yenidən hər iki tərəfin bu vəziyyətdə razılığa gəlməsi üçün onların əlində üstünlükləri var. Almən idarələri pul verməkdə israfçı deyildir, amma belə bir işdə onlar məcburdular ki, səxavət kisəsinin ağzını açsınlar. Üçüncüsü, onlar cəllad kəndirinə keçmək üçün heç bir risk etmirlər. Şübhəsiz, onların işi adam oğurlamaqdır.- Belə isə, bəs nəyə görə ona əvvəlcə güllə atsınlar? Puaro əsəbiliklə əlqol atdı.- Bax mən də elə bunu başa düşmürəm. Onlar baş naziri oğurlamaq üçün bütün tədbirləri görüblər, bununla yanaşı, tamamilə qeyri-real görünsə də filmə çəkilməyə layiq bu əməliyyatı melodramatik bir basqında təhlükə altında qoyurlar. Londondan iyirmi mildən az bir məsafədə maskalanmış quldur dəstəsinin bu hərəkətinə demək olar ki, inanmaq mümkün deyil.- Bəlkə bunlar biri digərindən tamamilə asılı olmayan ayrılıqda edilmiş iki sui-qəsd cəhdləridir?- Xeyr. Bu qədər təsadüf ola bilməz. Bəs onda kimdir satqın? Birinci cəhddə, hər halda, satqın var. Bəs satqın kimdir? – Daniels, yoxsa O'Merfi? Onlardan biri olmalıdır, yoxsa maşın nə üçün əsas yoldan çıxıb? Biz baş nazirin öz həyatına edilmiş sui-qəsd cəhdinə göz yummadığını zənn etməyə bilərik. O'Merfi maşını öz arzusuyla döndərib, yoxsa Daniels ona belə etməyi təklif edib?- Əlbəttə, bu, O'Merfinin öz işi olmalıdır.- Bəli, əgər Danielsin işi olsaydı baş nazir əmri eşitmiş olardı və buna görə də səbəbini soruşardı. Bu işdə bir-birinə zidd həddindən artıq "nə üçün"lər var. Əgər O'Merfi düz adamdırsa nə üçün əsas yoldan çıxıb? Düz adam deyilsə, niyə maşını yenidən işə salıb və bu zaman açılan iki güllə bunun nəticəsində ona dəyib?! Çox güman ki, baş nazirin həyatı xilas olub və yenə də deyirəm, əgər, o, düz adamdırsa nə üçün Çarinq-Krossu tərk etdikdən sonra alman casuslarının məşhur görüş yerinə gedir.- Burası pisdir - dedim.- Gəlin, bu işə ardıcıllıqla nəzər yetirək. Bu iki adamın lehinə və əleyhinə nə deyə bilərik? Birinci O'Merfidən başlayaq. Əleyhinə: onun baş yoldan çıxması şübhəlidir; Kler qraflığından olan irlandır; çox xoşagəlməz halda yoxa çıxıb. Lehinə: maşını yenidən işə salarkən göstərdiyi cəldlik baş nazirin həyatını xilas edib; o, Skotlənd Yardın əməkdaşıdır və görünür, etibarlı xəfiyyə olduğundan, ona vəzifə həvalə edilib. İndi Daniels barədə. Əleyhinə: Keçmişinə dair məlumat olmaması, bir ingilisə lazım olduğundan daha çox dil bilməsi (Bağışla, dostum, dilçi kimi zəyəm!) faktından başqa əleyhinə deyilən çox dəlil yoxdur. Lehinə gəldikdə isə onun ağzı tıxanmış, əlləri bağlı, burnuna xloroform tutulması faktını deyə bilərik. Axırıncı fakt onun bu işlə əlaqəsi olmadığına dəlalət edir.- Şübhəni yayındırmaq üçün onun ağzını və əllərini cinayət yoldaşı da bağlaya bilərdi.Puaro başını buladı.- Fransız polisi belə səhv etməz. Bundan başqa, əgər Daniels öz məqsədinə nail olubsa və baş nazir isə asanlıqla oğurlanıbsa, onun kənarda qalmasının mənası yoxdur. Onun cinayətkar yoldaşları Danielsin ağzını bağlayıb, ona xloroform verə bilərdilər, amma bununla onların hansı məqsədi həyata keçirməyə ümid bəslədiyini başa düşə bilmirəm. Baş nazirlə bağlı əhvalat aydınlaşana qədər Daniels onlar üçün indi az əhəmiyyətli olduğundan ona yaxından göz qoyulmalıdır.- Bəlkə o, polisi yanlış yola salmaq istəyirdi?- Bəs onda niyə etməyib? O, sadəcə olaraq burnuna və ağzına nəyinsə sıxıldığını, daha heç nəyi xatırlamadığını deyir. Burada heç bir iz azdırma yoxdur. Bu, yalana bənzəmir.- Yaxşısı budur, stansiyaya gedək, - divar saatına baxaraq dedim, - Fransada bu işə daha çox açar taparıq.- Ola bilər, dostum, amma mən şübhə edirəm. Baş nazirin o məhdud ərazidə aşkar olunması hələ də mənim üçün aydın deyil. Onu həmin yerdə gizlətmək çox böyük çətinlikə başa gəlməlidir. Əgər iki ölkənin hərbiçiləri və polisi onu tapmayıblarsa, mən necə tapacam?Vağzalda bizi cənab Dodj qarşıladı.- Bu, Skotlənd Yardın xəfiyyəsi Barns və mayor Normandır. Onlar tamamilə sizin sərəncamınızda olacaqlar. Sizə uğurlar olsun. Xoşagələn iş deyil, amma ümidimi üzməmişəm. İndi getməliyəm.Nazir tez çıxıb getdi.Biz mayor Normanla rabitəsiz tərzdə söhbət edərkən, platformada duran kiçik

bir qrupun arasında sarışın, ucaboy bir kişi ilə səfrənsifətli yoldaşa söhbət edərkən tanıdım. O, Puaronun köhnə tanışlarından biri - xəfiyyə inspektoru Cepp idi və Skotlend Yardın ən bacarıqlı zabitlərindən biri hesab edilirdi. O, yaxınlaşıb dostumu sevincək salamladı.- Eşitdim siz də bu işlə məşğulsunuz. Bir qədər çətin işdir. Çünki onlar əşyayi-dəlillərin izini yaxşıca itiriblər! Amma inana bilmərəm ki, onu uzun müddət gizli saxlasınlar. Adamlarımız Fransanı ələk-vələk edəcəklər. Eləcə də fransızlar. Bir neçə saatdan sonra onların sonuna çıxmalıyıq!- Elədir, əgər baş nazir sağdırsa, - ucaboy xəfiyyə qaş-qabaqlı halda qeyd etdi.Ceppin çöhrəsi tutuldu.- Bəli… amma məndə nədənsə elə fikir əmələ gəlib ki, o, sağ-salamatdır.Puaro başını tərpətdi.- Bəli, bəli. O, sağdır. Bəs onu vaxtında tapmaq olar? Mən də sizin kimi düşünürdüm ki, onu bu qədər gizlədə bilməzlər.Fit verildi və hamımız vaqonun içinə getdik. Sonra ahəstə və xoşagəlməyən təkanla qatar stansiyadan uzaqlaşdı.Bu, maraqlı səyahət idi. Skotlend Yardın əməkdaşları bir yerə toplaşmışdılar. Şimali Fransanın xəritələri sərilmişdi və şahədət barmaqları oradakı yollar və kəndlərin üzərində gəzirdi. Hər kəsin öz mülahizəsi var idi. Puaro adəti çərənliyini biruzə vermədən onun qarşısında oturub gözünü ona zilləmişdi. Üzündəki ifadə çətinliyə düşmüş uşağı xatırladırdı. Mən Normanla söhbət edirdim. Onun çox qəribə adam olduğunu aşkar etdim. Duvra çatanda Puaronun davranışı məni bərk narahat etdi. Bu bəstəboy adam gəmiyə minərkən ümidsizliklə qolumdan yapışdı. Külək şiddətlə əsirdi.- Aman Allah! - Puaro mızıldandı, - bu, dəhşətdir!- Cəsarətli olun, Puaro, - barkdan dedim. - Siz müvəffəqiyyət qazanacaqsınız, siz onu tapacaqsınız. Buna əminəm.- Eh, dostum, mənim keçirdiyim hissləri düzgün başa düşün. Mənə əzab verən bu zahirəmara qalmış dənizdir. Dəniz xəstəliyi - bu dəhşətli xəstəlikdir!- Belə deyin!.. - kənarımış halda dedim.Mühərriklərin ilk döyüntüləri hiss olundu və Puaro dərindən nəfəs alaraq gözlərini yumdu.- Mayor Normanda Şimali Fransanın xəritəsi var, baxmaq istərdinizmi?Puaro səbirsizliklə başını buladı.- Xeyr, xeyr! Məni rahat buraxın, dostum. Bilirsiz, fikirləşmək üçün mədə və beyin harmoniyada olmalıdır. Dəniz xəstəliyindən yaxa qurtarmaq üçün Laverjenin olduqca əla metodu var. Yavaş-yavaş nəfəs alıb, nəfəs verirsiniz, belə etdikdə başınızı soldan sağa döndərir və hər nəfəs aldıqca altıya qədər sayırsınız.Onu idman hərəkətləri edən yerdə qoyub göyərtəyə getdim. Biz yavaş-yavaş Bulon Harbora daxil olduqda Puaro tər-təmiz geyinmiş halda gülümsəyərək gəlib çıxdı. Pıçıltı ilə qulağıma dedi ki, Laverjenin metodu "möcüzə"lər yaradırmış!Ceppin şahədət barmağı hələ də xəritə üzərindəki xəyali istiqamətlərdə hərəkət edirdi.- Cəfəngiyyatdır! Maşın Bulonda yola düşüb, burada onlar ayrılıblar. İndi bu fikirdəyəm ki, naş naziri başqa maşına keçiriblər. Bildin?- Həə, - ucaboy xəfiyyə dedi, - dəniz limanlarına sərəncam verəcəm! Görünür, baş naziri gəmidə olarkən oğurlayıblar.Cepp başını buladı.- Şübhəsiz.Dərhal bütün dəniz limanlarını bağlamaq üçün əmr verildi.Biz gəmidən düşəndə dan yeri ağarırdı. Mayor Norman Puaronun qoluna toxundu.- Burada sizi hərbi maşın gözləyir, cənab.- Təşəkkür edirəm, müsyo. Amma bu dəqiqə Bulondan getməyi məsləhət görmürəm.- Nə?- Dedim ki, məsləhət görmürəm, biz burada - körpünün yanında olan mehmanxanaya gedəcəyik.O, dediklərini yerinə yetirdi, tələb etdi və ona xüsusi otaq verildi. Heçnə anlamadan təəccüblənmiş halda üçümüz də onun arxasınca getdik.O, bizə cəld bir nəzər saldı.- Sizin ürəyinizdən keçəni duyuram. Yaxşı xəfiyyə belə hərəkət etməlidir, elə deyilmi? O, enerjili olmalı, ora-bura baş vurmalı, tozlu yola sərilib maşın təkərlərinin izlərini mikroskopla axtarmalıdır. O, siqaret kötüklərini, yerə düşmüş kibrit çöplərini yığmalıdır, hə? Sizin fikriniz belədir, elə deyilmi?Onu gözləri bizə meydan oxuyurdu.- Şəxsən mən Erkül Puaro, sizə deyirəm ki, məsələ belə deyil! Əsl açar içəridə - buradadır! - o, əlini alnına vurdu. - Görürsüzmü, mənim Londondan getməyimə ehtiyac yox imiş. Londondakı mənzilimdə sakitcə oturmaq kifayət edərmiş. Əsas məsələ içəridəki kiçik beyin hüceyrələrindədir. Onlar gizlincə və sakitcə öz işlərini o vaxta qədər görürlər ki, birdən mən xəritə tələb edirəm və barmağımı bir yerə qoyub deyirəm: baş nazir buradadır! Belə də olur. Məntiq və ardıcıllıqla insan hər şeyə nail ola bilər. Bizim Fransaya bu çaparaq gedişimiz ağılsız bir səhv olub. O, uşaq oyunu olan gizlənpaç kimi bir şeydir. İndi isə baxmayaraq ki, həddindən artıq gecdir, mən dərhal içəridə işə başlayacağam. Rica edirəm, dostlar, sakit olun.Düz beş saat müddətində bu bəstəboy adam göz qapaqlarını pişik kimi açıb-yumaraq hərəkətsiz oturdu. Onun parıldayan yaşıl gözləri get-gedə daha da yaşıllaşırdı. Skotlend Yardın xəfiyyəsi aydınca ona həqarətlə baxırdı, mayor Norman bezmiş və təngə gəlmişdi, mən isə vaxtın ləng və yorucu keçdiyini görürdüm.Nəhayət, ayağa durdum və bacardığım qədər sakitcə pəncərəyə yaxınlaşdım. Cinayət işi hoqqabazlığa çevrilirdi. Dostumdan ötrü gizlincə narahat olurdum. İşdir şayət o, uğursuzluğa düçar olsa, bəri bu qədər də gülməli şəkildə olmayaydı. İki ölkə arasında gündəlik işləyən, yanalma körpüsü boyunca tüstü burumları buraxa-buraxa dayanan gəmini pəncərədən tənbəl-tənbəl seyr edirdim.Birdən böyrümdən gələn Puaronun səsi məni ayıltdı:- Dostlar, gəlin başlayaq.Ona tərəf döndüm. Onda qeyri-adi

sakitliyin hökm sürdüyümü duydum. Onun gözləri həyəcandan parıldayır, ürəyi köksü altına sığışmurdı.- Dostlar, səfeh olmuşam! Axır ki, günəşin zərrələrini görmək olur.Mayor Norman tələsik qapıya tərəf getdi.- Maşın üçün göstəriş verim?- Ehtiyac yoxdur. Maşından istifadə etməyəcəm. Allaha şükür, külək kəsib.- Demək istəyirsiniz ki, piyada getmək niyyətindəsiniz?- Xeyr, dostum. Mən müqəddəs Pyotr deyiləm. Mən gəmiylə dənizi keçib getməyi üstün tuturam.- Dənizi keçmək?- Bəli. Ardıcıllıqla işləmək üçün gərək əvvəldən başlayaq və bu işin də başlanğıcı İngiltərədədir. Buna görə də biz İngiltərəyə qayıdırıq.Saat üçdə biz yenidən Çerinq-Kross platformasında dayanmışdıq. Verdiyimiz öyüd-nəsihətlərə baxmayaraq Puaro vaxtı itirməmək üçün yeganə yolu başdan başlamaqda görür, bunu təkrar-təkrar deyir və bizim dediklərimizə məhəl qoymurdu. Yolda gedərkən Puaro astadan Normanla məsləhətləşdi və axırda Duvrdan bir yığın teleqram göndərdi. Normanda olan xüsusi buraxılış sayəsində biz hər yerdən rekord vaxtda keçib gedirdik. Londonda içində mülki adamlar oturmuş böyük bir polis maşını bizi gözləyirdi. Onlardan biri maşında yazılmış vərəqi dostuma verdi. O, mənim sualedici baxışlarıma cavab verdi.- Londonun qərbində müəyyən radius daxilində olan vilayət xəstəxanalarının siyahısıdır. Bundan ötrü Duvrdan teleqrafla xəbər göndərmişdim.Biz Londonun küçələrində sürətlə gəzib dolaşırdıq. Betroudda olduq. Hammersmit, Cizvik və Brentfordan keçib getdik. Məqsədimizi başa düşməyə başladım. Vindzordan keçib Askota gəldik. Ürəyim atlandı. Askotda Danielsin xalası yaşayırdı. Deməli, biz O'Merfini deyil, onu təqib edirdik. Bizə lazım vaxtda səliqəli bir villanın darvazası yanında dayandıq. Puaro maşından sıçrayıb düşdü və zəngi basdı, onun nurlu çöhrəsinə qaranlıq çökdüyünü gördüm. Düzü, o, narazı idi. Zəngə cavab verildi. O, içəri girdi. Bir neçə dəqiqədən sonra o, yenidən göründü və maşına minərək kəskin və ani bir hərəkətlə başını buladı. Ümidləri puça çıxmağa başladı. İndi beşin yarısıydı, əgər o, Danielsi cinayət törətməkdə günahlandıran müəyyən dəlil tapsaydı belə, baş nazirin Fransada saxlandığı yeri bir kasdan öyrənə bilməsəydi, bunun nə xeyri olacaqdı?Bizim Londona qayıtmaq səfərimiz arasıkəsilmiş səfər idi. Əsas yoldan bir neçə dəfə çıxdıq və hərdənbir balaca binaların yanında dayanırdıq. Binalardan birinin kənd xəstəxanası olduğunu sezdim. Puaro hər xəstəxanada yalnız bir neçə dəqiqə ləngiyər, amma hər dəfə dayananda nurlu çöhrəsindəki əminlik getdikcə qüvvətlənərdi.O, Normana nə isə pıçıldadı. Norman ona cavab verdi:- Bəli, əgər sola dönsəniz körpünün yanında onların sizi gözlədiyini görərsiniz.Biz yan yola gəldik və zəif işıqda yolun kənarında gözləyən ikinci maşını ayırd etdik. Maşında mülki geyimdə iki nəfər vardı. Puaro aşağı düşüb onlarla danışdı və sonra biz şimal istiqamətində yola düşdük. İkinci maşın arxadan bizi müşayiət edirdi. Bir müddət yol getdik, məqsədimiz, Londonun şimal qəsəbələrindən biriydi. Nəhayət, biz hündür bir binanın küçə qapısına yaxınlaşdıq. O, yoldan bir qədər aralıda - bağın içindəydi.Normanla mən maşında qaldıq. Puaro və xəfiyyələrdən biri qapıya yaxınlaşdılar. Səliqəli geyinmiş ev qulluqçusu qapını açdı. Xəfiyyə dedi:- Mən polis zabitiyəm, evi axtarmaq üçün orderim var.Qız alçaqdan qışqırdı, orta yaşlı, ucaboy, yaraşıqlı bir qadın zalda onun arxasınca peyda oldu.- Qapını bağla, Edit. Məncə, onlar ev oğrularıdır.Amma Puaro cəld ayağını qapıdan içəri qoydu və eyni zamanda fit çaldı. Dərhal o biri xəfiyyələr tökülüşüb evin içinə doluşdular və qapını arxalarınca bağladılar.Normanla mən təxminən beş dəqiqə müddətində keçən məcburi fəaliyyətsizliyimizi lənətləyirdik. Nəhayət qapı açıldı və dustaqları - bir qadın və iki kişini mühafizə edən polis işçiləri göründülər. Qadın və kişilərdən biri başqa maşına aparıldı. İkinci kişini bizim maşına Puaronun özü oturtdu.- Mən o biri adamlarla getməliyəm, dostum. Amma bu cəntlmendən yaxşı muğayat olun. Siz onu tanıyırsınız, elə deyilmi? İcazə verin onu sizə təqdim edim: müsyo O'Merfil!- O'Mörfil..Yola düşəndə heyrətlə ona baxdım, ağzım açıla qaldı. Onun əllərinə qandal vurulmamışdı, amma onun qaçmağa cəhd edəcəyini ağlıma gətirmirdim.O'Merfi gözlərini zilləyərək qabaqda oturmuşdu, sanki sarsılmışdı. Bununla belə, Normanla mən onun öhdəsindən gələ bilərdik.Təəccübümün əksinə olaraq biz hələ də şimal istiqamətində yolumuza davam edirdik. Deməli, biz Londona qayıtmırdıq. Çox təəccübləndim. Maşın sürətini azaltdı, birdən gördüm ki, biz Henden təyyarə limanının yaxınlığındayıq. Puaronun fikrini dərhal anladım. O, Fransaya təyyarə ilə getməyi təklif etdi. Üzdən baxanda bu işgüzar təklif idi. Amma yerinə yetirilməsi mümkün deyildi. Teleqram daha tez olardı. Vaxt hər şey demək idi. Puaro baş nazirə xilas etməkdə şəxsi qələbəni başqalarına həvalə edə bilməzdi!Maşın dayandı, mayor Norman bayıra sıçradı. Onun yerində mülki geyimli şəxs əyləşdi. Norman Puaro ilə bir neçə dəqiqə məsləhətləşdikdən sonra cəld yola düşdülər.Mən də maşından düşüb Puaronun qolundan yapışdım.- Təbrik edirəm, dostum! Gizlənmə yerini onlar sizə dedilər? Amma qulaq asın, siz bu dəqiqə Fransaya teleqramla xəbər verməlisiniz. Özünüz getsəniz həddindən artıq gecikəcəksiniz.Puaro bir- iki dəqiqə maraqla mənə baxdı.- Təəssüf, dostum, elə şeylər var ki, onlar teleqramla göndərilə bilməz.Elə bu vaxt mayor Norman qayıtdı. Onu

hava qüvvələri qoşunları paltarı geymiş cavan bir zabit müşayiət edirdi.- Bu, kapitan Lyoldur. O, sizi Fransaya aparacaq. Elə bu dəqiqə yola düşə bilər.- İsti geyinin, cənab. İstəsəniz sizə müvəqqəti palto verə bilərəm - cavan təyyarəçi dedi.Puaro böyük saatına baxıb, öz-özünə mızıldandı.- Bəli, vaxt var, özü də lazım olan qədər vaxt, - sonra başını yuxarı qaldırdı və cavan zabitə baş əydi. - Təşəkkür edirəm, müsyo. Amma sizin sərnişininiz mən deyiləm. O, buradakı centlmendir.O, danışarkən bir qədər kənara çəkildi və uzaqdan bir qaraltı vəqe olaraq onlara tərəf gəldi. Bu, o biri maşında getmiş olan kişi sərnişin idi. İşıq onun üzünə düşəndə təəccübdən donub qaldım. Bu baş nazir idi!- Allah xatirinə, bu barədə mənə nəsə izah edin! - Puaro, Norman və mən maşınla Londona qayıdarkən səbirsizlikə ucadan dedim. - Necə olub ki, onlar baş naziri oğurlayıb yenidən İngiltərəyə gətiriblər?- Onu oğurlayıb geri qaytarmağa ehtiyac olmayıb, - Puaro laqeydliklə cavab verdi. - Baş nazir heç Londondan getməyib. O, Vindzordan Londona gedərkən yolda oğurlanıb.- Necə necə?!- İndi izah edəcəm. Baş nazir maşınındaymış, katibi də yanında. Birdən xloroform yastıqcası onun üzünə sıxılıb…- Kim tərəfindən?- Bacarıqlı dilçi kapitan Daniels tərəfindən. Baş nazir huşunu itirən kimi Daniels danışıq trubkasını götürür və sağa dönmək üçün O'Merfiyə göstəriş verir, sürücü şübhələnmədən elə də edir. Bir neçə yard aşağıda gediş-gəlişin az olduğu yerdə böyük bir maşın dayanmışdı, görünür xarab olmuşdu. Onun sürücüsü O'Merfiyə dayanmaq üçün siqnal verir. O'Merfi sürəti azaldır. Naməlum adam yaxına gəlir. Daniels başını pəncərədən çıxarır və güman ki, dərhal təsir edən keyləşdirici dərmanın - etil xlorinin köməkliyi ilə xloroform kələyi təkrar edilir. Bir neçə saniyədən sonra iki nəfər köməksiz adamı maşından dartıb çıxarır, onları başqa maşına mindirir və onların yerini özgə iki adam tutur.- Mümkün olan iş deyil!- Qətiyyən! Müzik Holl aktyorlarının məşhur adamları necə fövqəladə dəqiqliklə yamaladığını görmüsünüzmü? İctimai xadim rolunu oynamaqdan asan heç nə ola bilməz. Baş nazirin rolunu oynamaq, deyək ki, Klephemdən olan Con Smitin rolundan daha asandır. O'Merfinin əvəzedicisinə gəldikdə, baş nazir yola düşənə qədər ona əhəmiyyət verən olmazdı və sonra o, gözə görünməyəcəkdi. O, Çarinq-Krossdan birbaşa dostlarının görüş yerinə gedir, O'Merfi kimi özünü təqdim edir və tamam başqa bir adam kimi üzə çıxır. O'Merfi isə özündən sonra lazımi şübhəli iz qoyaraq yoxa çıxır.- Axı baş nazir kimi özünü qələmə verən adamı hamı görüb?- Onu şəxsən və ya yaxından tanıyan heç kəs görməyib. Həm də Daniels onun mümkün qədər hər kəslə ünsiyyətdə olmasının qabağını alırdı. Bundan başqa onun üzü sarınmışdı, davranışındakı qeyri-adilik onun həyatına edilmiş sui-qəsd nəticəsində aldığı şokdan əzab çəkməsi faktı ilə əlaqələndiriləcəkdi. Makadamın zəif yeri onun boğazı idi və həmişə böyük nitq söyləməmişdən əvvəl mümkün qədər səsini qorumağa çalışırdı. Bu kələyi Fransaya qədər gizli saxlamaq tamamilə asan idi. Fransada isə bu həyata keçməyən qeyri-mümkün bir iş idi. Buna görə də baş nazir yoxa çıxır. Ölkənin polisi La-Manş boğazına can atır, ancaq ilk hücumun təfsilatına varmaq üçün heç kəs özünə əziyyət vermir. Baş nazirin Fransada oğurlanması barədə illüziyanı sübut etmək üçün ağlabatan bir tərzdə Danielsin ağzını tuturlar, burnuna xloroform tuturlar.- Bəs baş nazirin rolunu ifa edən adam?- Maskasını çıxarırlar. O və bir də qondarma sürücü şübhəli adamlar kimi həbs olunsaydılar belə, onların bu işdə oynadığı əsl roldan şübhələnmək heç kəsin xəyalına gəlməzdi və axırda sübut olmadığı üçün azad ediləcəkdilər.- Bəs həqiqi baş nazir?- Onu və O'Merfini birbaşa Hempstetdə Danielsin "xalası" adlanan "işsiz Everardın" evinə gətirirlər. Əslində isə adı xanım Berta Ebertaldır. Polis xeyli vaxtdır onu axtarmaqdadır. Daniels bir yana dursun, bu, mənim onlara kiçik də olsa, qiymətli hədiyyəm oldu. Ağıllı plan imiş, lakin Erkül Puaronun daha ağıllı olduğunu nəzərə almayıblar!Zənn edirəm dostumun bu ani lovğalığını bağışlamaq olardı.- İşin mahiyyətinə nə vaxtdan şübhə etməyə başladınız?- Elə işə içəridən başladığım vaxtdan etibarən! O atışma məsələsini aydınlaşdıra bilmirdim, amma bu işin nəğd nəticəsi kimi baş nazirin üzü bağlı Fransaya yola düşdüyünü aydınlaşdırarkən anlamağa başladım! Həm də Vindzor və London arasındakı kənd xəstəxanalarına baş çəkərkən təsvir etdiyimiz üzü bağlı və yarası sarınmış adamın həmin səhər heç kəsin görmədiyini deyərkən əmin oldum. Bundan sonra mənim kimi dedektiv üçün bu işi açmaq uşaq oyunu idi.Ertəsi günün səhəri Puaro mənə təzəcə aldığı teleqramı göstərdi. Teleqramın haradan vurulması qeyd olunmamışdı, imza da qoyulmamışdı. Orada deyilirdi:- Düz vaxtında!Bir xeyli keçəndən sonra axşam qəzetlərdə müttəfiqlərin konfransı barədə məlumatı dərc etdilər. Məbuat cənab Devid Makadamın gurultulu alqışlarla qarşılandığını xüsusilə qeyd edirdi. Hökumət başçısının ilhamverici nitqi ürəklərə yol tapan və uzun müddət yadda qalan təəssüratlara vəsilə oldu.

*Tərcümə:* **Ramil Rahiboğlu**

EUROMONITOR INTERNATIONAL

# TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

## "EUROMONITOR INTERNATIONAL" ŞİRKƏTİNİN HESABATINDA 2017-Cİ İLDƏ TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB

**Siyahıya Honkonq başçılıq edir. 2017-ci ildə şəhərə 25,7 milyon turist gəlib.**

**İkinci yerdə Banqkok (23,3 milyon), 3-cü yerdə isə London qərarlaşıb (19,8 milyon).**

**İlk onluğa həmçinin Sinqapur, Makao, Dubay, Nyu-York, Şençjen və Kuala-Lumpur daxil edilib.**

**BANQKOK**

















# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI


***TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.***

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI



### KANZAS - SİTİ KÜTLƏVİ KİTABXANASI

Kitabxananın əsası 1837-ci ildə qoyulmuşdur. Kitab rəfi şəklində olan bayır hasarı ilə məşhurdur. "Kitab rəfi"ndə oxucular arasında ən məşhur 22 ədəbi əsər, o cümlədən Şekspirin "Romeo və Cülyetta", Mark Tvenin "Heklberri Finnin macəraları" və Rey Bredberinin "Farengeytlə 451 dərəcə" əsərləri həkk olunmuşdur.



# XƏZƏR UNİVERSİTETİNİN
# DÜNYA MƏKTƏBİ

## BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dinlindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.


**Ünvan:**

**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

**Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?**
**Xəzər Universitetini seçl**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn